**KAMALƏ ABİYEVA**

# TORPAQ

***Torpaq***
***Ayağın altında olanda qalib,***
***Olmayanda məğlubsan.***

**«APOSTROF-A»**
BAKI – 2022

**Redaktor**
*Aysel Aydın Əlizadə*

**Naşir**
*Akif Dənzizadə*

**Abiyeva Kamalə**
A16 **TORPAQ.** Bakı: **"APOSTROF-A",** 2022. – səh. 144

**ISBN: 978-9952-527-91-9**

"Torpaq" adı təsadüfi deyil. Kitabın ana xətti "vətən" dediyin torpağa bağlılıq-vətən sevgisidir. Kitabda bu duyğularla yazılan şeir və hekayələr, eləcə də Birinci və İkinci Qarabağ savaşının şəhidləri, qaziləri haqda esselər yer alıb. Kitabdakı yazılar vətəndən halallıq almaq kimi ali bir duyğuya köklənib.

"Torpaq" həm də müəllifin, bütün ağrı-acısına baxmayaraq 44 günlük savaşın qələbə sevincini bizə yaşadanlara, Şuşa ilinə tövhəsidir.

**Kitabın istifadəsi ilə bağlı bütün müstəsna hüquqlar müəllifə məxsusdur.**

**© Kamalə Abiyeva, 2022**

## Sevimli şairimə

Abşeron! Xəzər dənizinin sahilində coğrafi nöqteyi-nəzərdən yarımsəhra hesab edilən sarı qumlu, məhz ona xas xəzri və gilavarlı, zəfəran, adı sonuncu müqəddəs kitab olan Quranda çəkilən üzüm, əncir, zeytunlu, balaca boylu, bərəkətli ağacları, ovdanları, kiçik çəpərli, külafrəngili bağ evləri yaddaşımda qalan, dünyada bir çox ilklərə və rekordlara imzalar atmış neft şəhərim paytaxt Bakımı qoynuna alan Abşeron.

Bakı! Tam fərqli sivilizasiyalara malik Şərqlə Qərbin qovuşduğu yerdə yerləşən Bakıdır. Özünəməxsus üslublu, çox zaman assimmetrik, böyük olmayan, qırla örtülü evləri ilə seçilən Bakıdır. Dar, səssis, amma hamının ürəyini danışdıran İçərişəhər, eyvanlı Zərgərpalan, daş naxışlı küçələr, dahi Nizaminin adını daşısa da, bu günədək ilk adı ilə məşhur Torqovaya küçəsi, əzəmətli İsmailliyə, yaraşıqlı Hökumət evi, 20 ildir çalışdığım elm və sənət məbədi Nizami Muzeyi... Və sadalamadığım digər tikililər. Bakım mənim...

Çox mahnılar, şeirlər var Bakı haqqında. Bir deyil, iki deyil, onlarladır, yüzlərlədir. Fəqət onlardan biri ruhumu büsbütün silkələyir. Bu Eyyub Yaqubovun ifa etdiyi, bəstəkar Aygün Səmədzadənin şairə Kamalə Abiyevanın müəllifi olduğu "Bakı haqqında nağıl"dır. O nağıl ki, dinləyərkən göz yaşlarım dayanmır. O nağıl ki, müəlliflərin Bakıya sevgilərinin hədsiz dərəcəsi insanı heyrətə gətirir. Çalışdığım Nizami Muzeyi Qoşa Qala qapısının yanında yerləşir və ilin bütün fəsillərində səhər işə gələrkən və axşam evimə qayıdarkən həmin mahnının bu sözlərini xatırlayıram:

“Qoşa Qala qapısı da
heç vaxt səndən ayrılmayan gözlərimdir elə bil ki”.

Bakı nefti. Haqqında çox danışılıb və danışılacaq. Amma neftin qoxusunun təsvirinə nadir hallarda rast gəlmək olar. Goradildə yerləşən bağımıza Binəqədidən, yəni neft qoxulu məkanların birindən keçməklə gedirik. Orada hər dəfə bu misraları xatırlayıram:

*“Saçlarıma sığal çəkən neft ətirli küləklərin*
*Hələ deyə bilmədiyim sözlərimdir elə bil ki”.*

Abşeronun məşhur ağ şanısı. O elə yetişir ki, ağırlığından torpağa baş qoyur. Bu gözəlliyi Kəmalə xanım şeirdə necə təsvir edib!

*“Uşaqlığım, gəncliyimsən,*
*Qum üstündə şanılartək*
*xumarlanan dincliyimsən”.*

Yaxud:

*“O əfsanə bağlarının*
*meynəli çəpərlərindən*
*yenə aşmaq istəyirəm,*
*Uşaq olmaq istəyirəm”.*

Sanki adi sözlər deyil, ruhumuzun, könlümüzün duyğularıdır bu şeir. O sözlər ki, bizi real dünyadan bir neçə dəqiqəlik ayıraraq gözəgörünməz mənəvi aləmə aparır.

İnsanın özünün özünə etiraf etmək istəmədiyi, özünün özündən gizlətdiyi, həm də bəzən ifadə edə bilmədiyi hisslərdir onun şeirləri... Niyə məhz bu şeirlə başladım yazıma? Çünki onun Azərbaycana sevgisini, bağlılığını duymaq üçün “Bakı haqqında nağıl”ı oxumaq da kifayət edir məncə, amma şeir barəsində təəssüratları yazmaq

kifayət deyil... Hər dəfə bu şeir insanda hansı Vətən hisslərini oyadır, hər qələm yazıya çevirə bilməz...

Vətəninə qarşı insanların hisslərini necə təsvir edir Kamalə xanım...

Vətən! Yaşadığın ev, doğulduğun ünvan, dolandığın küçə, böyüdüyün həyət, işlədiyin yer və əlbəttə ki, bütün Azərbaycanımız. Vətən! Bu ən ali hisslərimiz cəmləşən məfhumdur. Vətən-illərlə işğal altında qalmış torpaqlar cəmi 44 günə igidlərimizin canı, qanı bahasına geri qaytarıldı! Ermənilər tərəfindən darmadağın edilmiş və qələbəmizdən sonra addım-addım abadlaşan Vətən! Hər birimizin ona borcumuz var. Kaş hər kəs "Vətənim üçün nə edim" deyə düşünsün. Kamalə Abiyeva kimi. Amerikada "Ölkəm mənim üçün nə edib?" deyil, "Mən ölkəm üçün nə etmişəm" əsas amal kimi götürülür.

İnsanlar fərqlidir, hərə bir sənət sahibidir, hərə bir bacarığa malikdir. Əgər əlində qələm varsa, dəyərli yazı yaranırsa, insanlarda sevgi hissi yaradırsa, yatmış duyğuları oyadırsa, daima fikirləşdiyi düşüncələri möhkəmlədirsə bunun dəyərinin ölçüsü gözəgörünməzdir. Şairəmiz Kamala Abiyeva hansı duyğuları yazıya köçürməyib ki... Uşaqlıq illərimizi yaşadığımız "Məktəb illəri"ndən başlayaraq ruhumuzu tərpədən

*"Azərbaycan gözlərimin qarası,*
*Azərbaycan həyatımın mənası.*
*Nə deyim ki, layiq olsun vəsfinə,*
*Ey Vətənim, anaların anası".*

Yazı adamı nə edə bilər? Bu sevgini misralara çevirər, yazılara köçürər ki, oxuculara ötürsün. Özünü ağacın budağına, budağın yarpağına, ...hər an, hər zaman o nəğməyə

möhtac dodağ"a bənzədən "Torpağını geyinərəm əynimə" deyən şairim vətənini bütöv sevir.

*Sən uğruna öləcəyim,*
*sən uğruna yaşadığım varlığımsan Ana vətən!*
*Səni bütöv sevirəm mən.*

"Vətəndən o yana kimi sevərik" deyən şairədən çox sitat gətirmək olar. Əbədi mövzu olan sevgini ikicə misrada necə gözəl verib:

*"İlk sevgilim deyilsən sən –*
*Son sevgimsən".*

Bu sevgi onun şeirlərində yaşayır. Ona görə də 44 günlük müharibədə qələbə sevincini yaşadanlar, "Vətəndən halallıq alan igidim" dediyi qəhrəmanlarımız haqda müharibə bitən gündən esselər yazır. Onları bizə tanıdır. Onlar qarşısında borclu hiss edir özünü. Hər birimiz borcluyuq onlara. Və nə yaxşı ki, onun kimi bu ərənlərimiz haqda yazan söz sahiblərimiz var.

Onun yaradıcılığı torpaq ətirlidir. Vətən ətirlidir. Vətənsevdalı hər oxucunun gərəyidir.

"Torpaq –
Ayağın altında olanda qalıb,
olmayanda məğlubsan" – deyən sevimli şairim yaşayın, yaradın.

***Təbəssüm Muxtarova***
***AMEA Nizami Gəncəvi adına***
***Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin***
***əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru.***

# AZƏRBAYCAN – qalibiyyət dünyası

Ey Vətənim, gözlərimin qarası,
Ey Vətənim həyatımın mənası.
Nə deyim ki, layiq olsun vəsfinə,
Ey Vətənim – anaların anası.

Bir ağacsan, mən də sənə budağam,
Bir budaqsan, sənə yarpağam.
Bir nəğməsən, mənsə hər gün, hər saat
O nəğməyə möhtac dodağam.

Bir sinəyəm, sənsən vuran ürəyim,
Bir ürəyəm, sənsən arzum, diləyim.
Yaşasam da yaşamıram, əgər mən,
Ey vətənim, olmaramsa gərəyin.

Torpağını geyinərəm əynimə,
Kür, Arazı axıdaram könlümə.
Xəzərimi məlhəm edib gələrəm,
Ey Vətənim, dəyən olsa könlünə.

Məğrur səsin azadlığın sədası,
Şəhidlərin ölməzliyin nidası,
Azərbaycan – Qalibiyyət dünyası,
İgidliyin sarsılmayan qalası!

## SƏN ELƏ AZADSAN

*Şəhidlərə məktub*

Torpaq əsirdisə Vətən şəhiddi,
Bu boyda ağrıyla yaşamaq olmur.
Ey Vətən yolunda şəhid igidim,
Böyüklüyünü də daşımaq olmur.

Elə möhtəşəmsən, elə böyüksən,
Sığmırsan nə qəlbə, nə gözə igid.
Utancdan öləcək sənə nə desəm,
Sığmazsan nə dilə, nə sözə igid.

Bu torpaq uğruna fəda etdiyin
həyatına qurban, özünə qurban.
Bağrımı yandıran son nəfəsinin
"Vətənim sağ olsun" sözünə qurban.

Sənə də, mənə də anadır igid,
Vətən dediyimiz bu Azərbaycan.
Heyf, əvəzinə ölə bilmədim,
Sən anana qurban, mən sənə qurban...

Sən elə azadsan, elə azadsan,
Mən bu azadlığın quluyam daha.
Sən elə rahatsan, elə rahatsan,
Mən isə dönmüşəm  gözyaşlı aha.

Sən elə əlçatmaz bir zirvədəsən,
Bilmirəm, nə vaxtsa görüşərikmi?
Sən o kutsal Vətən zirvəsindəsən.
Bilmirəm, ruhumuz görüşəcəkmi?

Vətəndən halallıq alan igidim,
Sən elə xoşbəxtsən, elə xoşbəxtsən.
Mən səndən halallıq ala bilmədim,
Ömürlük önündə borclu qaldım mən.

Hər qarış torpaqda gəzən nəfəsin
"Haqqını halal et" deməyin deyir.
Həkəri çayına qarışan səsin
"Haqqımı Vətənə vermişəm" deyir.

Haqqımı qoruyun, tapdalanmasın,
Qoruyun siz Vətən əmanətimi.
Elə qoruyun ki, canı yanmasın.
Qoruyun Şəhidlik səadətimi.

## SON SEVGİMSƏN

İlk sevdiyim deyilsən sən.
Sənə qədər nəyi sevdim,
kimi sevdim bilmirəm mən.
Sənə  qədər səndən ötə sevdim bəlkə
ipək donlu gəlinciyi,
bər-bəzəkli yelləncəyi.
Bəlkə qışı, qarı sevdim,
Bəlkə də baharı sevdim.
Sənə qədər onu sevdim, bunu sevdim,
kimisinin gözlərini,
kiminin boyunu sevdim.
Bəlkə sevdim mən hamıdan çirkinini,
bəlkə də ən gözəlini?
Amma demə sənə qədər
sevməmişəm heç birini.
Demə sənə çatanadək
bilməmişəm sevgi nədir.
Amma ki, mən səni sevdim.
Hər tikəni, hər parçanı
gözlərimə,  ürəyimə yığdım elə.
Səni bütöv sevdim elə.
Hər daşını əzizlərəm,
hər ağrını ovudaram.
Yadlardakı hər qarışın dərd evimdi.

Hər yarana məlhəm olmaq,
yad əllərdən səni almaq and yerimdi.
Adım "Vətən" deyən neçə şəhidin var.
Türkün yurdu şəhid olmaz,
türkün özü şəhid olar.
"Vətən" adlı oğlun ilə,
qızın ilə mən əl-ələ
Təbrizimlə Bakım ilə
gedəcəyəm Qarabağdan Zəngəzura,
İrəvana, Göyçə gölə.
Oxşayacam hər gülünü, yarpağını,
oxşayacam mən hər qarış torpağını,
bəlkə bir az səndən doyum.
Səni bütöv sevəcəyəm ömrüm boyu.
Sən uğruna öləcəyim,
sən uğruna yaşadığım varlığımsan -
ana Vətən.
Səni bütöv sevirəm mən.
İlk sevgilim deyilsən sən -
Son sevgimsən.

## QARABAĞIM

Sənsiz keçən gecələrim
özüm kimi ağır oldu ...
Sənsiz ötən gündüzlərim
özün kimi fağır oldu...
Gecələrin yaxasından
ay tək asılmaq istədim
hərdən sənə boylanmaqçün,
gündüzlərdə
günəş tək yanmaq istədim
hərdən sənə toxunmaqçün.
Donub qaldım dağlarıntək,
susub qaldım bağlarıntək,
həsrət oldum yarpaq-yarpaq,
çiçək-çiçək.
Bulud oldum düzlərinin başı üstə,
ota döndüm qayaların daşı üstə.
Külək olub meşələrində dolandım,
ağaclarına sarıldım.
Yağış oldum səpildim ki çöllərinə
"gələcəyəm" pıçıldayım dönə-dönə...
Elə böyükdü ki ağrın,
ağrı da ola bilmədim,
sənin ağrında əridim,
böyüyə də bilmədim mən...
kiçik qaldım Qarabağım.
30 ildi bətnindəydim

ağrı çəkən bu torpağın.
göz yaşımla, gülüşümlə
onun Vətən  ağrısından doğuldum mən.
44 günə sənin boyda böyüdüm mən,
böyüdüm ki, səni görəm, səni sevəm.
heç doyunca görməmişdim səni axı,
Gördüm səni əsgər-əsgər, igid-igid,
gördüm səni Qarabağım.
Heç doyunca sevməmişdim səni axı,
sevdim səni şəhid şəhid,
sevdim səni Qarabağım.

***

Ərənlərim...
Sizdən sonra yağış yağır...
Sizdən sonra dayanmır yağış,
dəyişib yağış da...
Ana, ata, bala,
sevgili səsi var yağışda.
Sizdən sonra danışır yağış.
Sizdən sonra çoxalıb yağış.
Arzulara hopub qarışır torpağa
Azadlıq ətri gəlir torpaqdan...

## UNUT

Boynubükük bir atanın gözlərindən
cığır salan,
bir ananın saçlarında
dən-dən olan dərd gördünmü?
O gözlərdən həyatına boylandınmı?
O saçlarda dolandınmı?
Sən kədəri heç gördünmü?
Bilirsənmi necə olur?
kədər torpaq ağrısıdı, kədər vətən yarasıdı.
Bəs sevinci gördünmü sən
torpaq üçün şəhid olmaq sevgisində?
Atasının daş şəklinə qucaq açan
bir körpənin gülməsində?...
Hələ gizlənqaç oynamaq arzusunun
şəhid olmaq arzusunda ölməsində
kədərlə qolboyun olan
sevincdən xəbərin varmı?
dərdlərini, kədərini yığ üst-üstə
Bax bir vətən qazisinin sevincinin gözündəki
o qürürlu kədərə, bax protez üstə
və həyatdan sevinc istə.
gör olurmu?
Olmasa da, heç darılma.
Bir də qar soyuqluğunu
duymayacaq  uşaqlığın
qartopu oynamaq istəyinin
əlindən tut,
bütün dərdlərini unut...

## DOYA BİLSƏYDİM

Eşqində yuyuna-yuyuna,
Köksümdə döyünə-döyünə,
çöl-çəmənini görə-görə,
gül-çiçəyini dərə-dərə həsrətəm,
həsrətəm sənə elə, Vətən.
Dağlarının havasını uda-uda,
Çaylarını qəlbimə axıda–axıda,
sevgimi hər qarışına səpə-səpə,
gözlərimlə hər daşını öpə-öpə həsrətəm,
həsrətəm elə sənə, Vətən.
Həsrətim bircə damcı azalardı,
həsrətim bircə damcı az olardı,
bircə damcı doya bilsəydim səndən, Vətən.
Bu dünyaya hər an səni qorumağa,
hər an sənə vurulmağa,
həsrətinlə yaşamağa
həsrətini daşımağa,
bir gün də bu həsrətlə
torpağına qarışmağa
gəlmişəm elə, Vətən.

# BAKIMA

Hər səhərlə sevdim səni
hər gecəylə yaşadım mən.
Dalan-dalan, küçə-küçə
ürəyimə daşındın sən.
Qarış-qarış sevdim səni,
addım-addım oxşadım mən.
Addım-addım, qarış-qarış
gözlərimə sığındın sən.
Haray salan, hey vurnuxan
o dəlisov küləklərin
sənlə dolu nəfəsimdi.
Hər daşına möhtac olan,
ovunmayan həsrətimdi.
Köhnə Bakım, təzə Bakım
tarixindən qoparılan,
sökülən daşların kimi
başıma yağan kədərim.
Aradığım, tapmadığım
qır qoxulu məhlələrin
ovcuma dolan qəhərim.
Ay şəhərim, ay sultanım,
qulun olum, kölən olum.
bir gün elə Xəzərimin
bircə ovuc suyu kimi, duzu kimi
torpağına hopum qalım.

## BAKI HAQQINDA NAĞIL

Bu dünyada nağıl çoxdu,
hamısı da belə başlar:
“Biri vardı, biri yoxdu.
Mənim də öz nağılım var.
Istəyirəm danışım mən
bir dənizin sahilində
nağıl olan şəhərimdən.
Toxunanda hər daşına
o qayğısız günlərimə
mən qayıtmaq istəyirəm.
O əfsanə bağlarının
meynəli çəpərlərindən
yenə aşmaq itəyirəm,
uşaq olmaq istəyirəm.
Yenə yansın ayaqlarım
qumlarının istisindən,
ağlayım mən yenə yanan
xəzəllərin tüstüsündən.
Bir nağıl var ürəyimdə
İstəyirəm danışım mən
nağıl kimi bir şəhərdən.
Bu şəhərin yolları var
necə ömrün yaddaşıdır.
Yollardakı ağacları
neçə qəlbin sirdaşıdır.

Dalanları dolaşıqdı,
küçələri qarışıqdı.
Qoşa qala qapısı da
heç vaxt ondan ayrılmayan
gözlərimdi elə bil ki.
Saçlarıma sığal çəkən
neft ətirli küləkləri
ürəyimdə hey dolaşan
hələ deyə bilmədiyim
sözlərimdi elə bil ki.
Səadətim, doğma Bakım,
mənim sirli dünyamsan sən.
Uşaqlığım, gəncliyimsən,
qum üstündə şanılar tək
xumarlanan dincliyimsən.
Səadətim, doğma Bakım,
sevgi dünyam, Odlar yurdum,
nur torpağımsan.
O sehrli gecələrdə
Xəzərə layla deyən ay işığımsan.

## URMU GÖLÜNƏ

Azərbaycan, bu nə tale yazısı,
Hər tərəfdə canının bir parası.
Yüz illərdi dərmanım yox dərdinə
sağalmır ki, ürəyinin yarası.

Yüz illərdi  ayrılıqdan  asılan
Havasızam, çörəysizəm, susuzam.
Yüz illərdi  qərib-qərib  dolaşan
dərviş kimi yuvasızam, yurdsuzam.

Yüz illərdi sərkərdantək gəzirəm
Bu dünyanın bağlı yolu olmuşam.
Güney, Quzey  yarasına dözürəm,
Bu dözümün qara qulu olmuşam.

Yüz illərdi həsrətim var içimdə
Güneyimtək – gözəl Urmu biçimdə.
Yüz illərdi ilmə-ilmə toxunub,
Bu həsrəti necə söküm içimnən?

Yüz illərin həsrətisən, ay Urmum,
Yüz illərdi həsrətimsən, ay Urmum,
Sevənlərin göz yaşından yarandın,
Sevənlərin həsrətisən, ay Urmum.

Təbrizimin, Urmiyamın nağılı,
Sevənlərin göz yaşımı qurudu?

Hanı sənin o nağıllı suların,
yoxsa səni yad nəfəslər qurudur?

Urmum, harda Azərbaycan türkü var
Damla-damla gözlərinə dolmusan.
Sanma səni yad nəfəslər qurudar,
sən ki bizim canımıza hopmusan.

Yüz illərdi ağrı döyür canımı,
Ağrı çəkən bir günaham, mən, Urmu.
Sularına qatsam bir gün qanımı,
Bağışlarsan günahımı sən, Urmu?...

## VURĞUNAM

Yaz yağışlarından gücünü alan,
Dağlara hay salan selə vurğunam.
Bahar örpəyini çiyninə salan
Çəmənə vurğunam, çölə vurğunam.

Öz gözəlliyi var yayın, qışın da,
Əfsanə, dastandır  hər bir daşı da.
Sevimli yurdumun hər qarışında
Nazlanan çiçəyə,  gülə vurğunam.

Odlar diyarıdır odu sönməyən
Namərdlər önündə heç əyilməyən
Ucalan bayrağı bir də enməyən
“Azərbaycan” adlı elə vurğunam.

## ARAZA

Nələr gəlib başına,
necə dözmüsən, Araz?
Vüsalın göz yaşına
necə dönmüsən Araz?

Tarixin ən qübarlı
səhəri sənə düşüb.
Bölünən ürəklərin
kədəri sənə düşüb...

Sahilində çiçəklər,
arzularmı solubdur?
Səsində sevənlərin
nisgilimi qalıbdı?

Suların alışırmı,
həsrətə qarışırmı,
neyçün oda döndüyün
kimsədən soruşurmu?

Axar su olar sərin
bu yanğı səndə hardan?
Dəyişməyib ki, yerin,
bəs niyə narahatsan?

## AZƏRBAYCAN

Azərbaycan sənin üçün
çıraq kimi yanaq gərək.
“Mən azəri övladıyam
fəxr edirəm” deyə bilək.

Çaylarının səsi laylam,
çəmənlərin yatağımdı.
Azərbaycan, mənim dünyam,
səcdəgahım torpağındı.

Ucalaraq günü-gündən,
yaşayaq biz baş əymədən.
Yalnız sənin bayrağına
baş əyərək, ana vətən.

Sənə canım demirəm mən,
axı canımdan əzizsən.
Bu canımdan keçərəm mən
səndən keçmək olmur, vətən!

Sevgi dolu ürəyimsən,
möhtacınam sənin hər an.
Qovuşaram torpağına
sevgin ilə Azərbaycan.

## SİLƏK SƏRHƏDLƏRİ

O gündən ki, bu torpağı
sərhədlərlə ayırdılar,
o gündən də anaların günlərini
qəm-qüssəyə sarıdılar.
O gündən də narahatdır
bu Yer adlı anam elə.
Bir ananın qucağını
kim bölübdü görən belə?
Kim yaradıb sərhədləri?
Bu sərhədlər dünyamızın-
anamızın əsəbləri.
Nadanlar var, axı, hələ,
oynayırlar sərhədlərlə.
Ey insanlar, qoruyaq bu dünyamızı,
öz yeganə anamızın qiymətini bilək biz,
Məhəbbətin əliylə sərhədləri silək biz.

# YUXU

Qar yağır dənə-dənə,
göylər yatmayıb yenə,
yuxulu baxışları
yavaş-yavaş sığınır
torpağın sinəsinə.

Göylər yatmayıb yenə...
Gecə qaranlığından torpağa gedən yola
ağ-ağ cığırlar salır.
torpaq bürünüb yatır gecə səssizliyinə.

Göylər yatmayıb yenə...
Qar yağır dənə-dənə.
Bu qış nəğməsi ilə təbiət layla deyir
öz torpaq övladına.
qoy yatsın, rahatlansın, yuxusu şirin olsun,
yuxusu dərin olsun. Pis yuxular görməsin.
Tanrı dinc yaradıbdı asimanı, torpağı
bu dincliyi pozmayaq,
Yuxusundan yarımçıq oyanmasın bu torpaq.
Təbiət özü bir gün bahar nəfəsi ilə,
şəlalə səsi ilə mehriban bir ana tək
torpağı səsləyəcək, yuxudan oyadacaq.
Öz səxavət donunu əyninə geyinərək
oyanacaq bu torpaq onu qoruyanlara
min nemət bitirəcək, bərəkət gətirəcək.

## QORUYA BİLMƏDİM

Ayağım altında dayağım oldun,
Başımın üstündə bayrağım oldun,
Mənim odum oldun, ocağım oldun,
Mən səni qoruya bilmədim, Vətən.

Şimalım, Cənubum, sən Qərbim oldun,
Özün özün ilə sərhəddim oldun,
Cənnətim, çəkilməz bir dərdim oldun,
Mən səni qoruya bilmədim, Vətən.

Fəxr etdim mən sənin hər sərvətinlə,
Bar-bərəkətinlə, var-dövlətinlə,
Çapıb taladılar hər nemətini
Mən səni qoruya bilmədim, Vətən.

“Azərbaycan” deyib öyündüm, amma
Mən səni qoruya bilmədim, Vətən.
Ürəyim adınla döyündü, amma,
Mən səni qoruya bilmədim, Vətən.

## BİR KÖRPƏ YATIRDI

Gecə sükutunda bu təbiətin
bir körpə yatırdı ana səsində.
Sığınıb qoynuna ilk məhəbbətin
yatırdı bir eşqin təntənəsində.

Bir körpə yatırdı, ana gözündə
yer üzü şirin bir yuxu görürdü.
Yuxulu gözləri göyün üzündə
yuxu nağılında torpaq gülürdü.

Bir körpə yatırdı...
Durub səmadan
kövrək bir həsədlə ay boylanırdı.
Ana laylasında uyuyub hər yan,
məsumluq içində xumarlanırdı.

Bir körpə yatırdı,
bütün kainat
bir ülvü müqəddəs yuxu gürürdü.
Bir körpə yatırdı arxayın, rahat,
çünki keşiyində Ana dururdu.

# HƏYAT

Həmişə uçmaq arzusuyla yaşamaq olmaz,
uçmaq həmişə yaşatmaz.
Yəni yaşamaq üçün uçar quşlar,
yarpaqlar ölməkçün, ölümə uçar yarpaqlar.
Budağından qopar, azad olar, amma
ölmək üçün uçar yarpaqlar, uçar torpağa.
Yaşamaq üçün uçar quşlar,
uçar göylərə-azadlığa.
Amma göylərdən asıla bilməz.
Hər baxanda gördüyümüz, duyduğumuz
Havasıyla içimizə çəkdiyimiz
azadlıq başımız üstə.
Hər addımda hiss etdiyimiz
ölüm ayağımız altda.
Həyat yerlə göy arasında,
Amma nə göydən asılar, nə torpaqdan ayrılar.
Azdı göylərin cazibəsi,
güclüdü torpaq- çəkər bizi.
Torpaqla olmaq, torpaqda ölmək,
torpaqçün ölmək gözəldi
Azadlığa uçmaq,
Azadlığı duymaq qədər gözəldi.

# MƏNƏ NAĞIL DANIŞ

Mənə nağıl danış, nağıl, ay ana,
Yatım bu dünyadan bir az xəbərsiz.
Yatım yuxularda nağıllar görüm,
Yatım körpə kimi qəmsiz, kədərsiz.

Mənə nağıl danış, eybi yox, ana,
Düşmənlər, xainlər olur, qoy olsun.
Ağ atlı oğlanlar girib meydana
Təki düşmənlərə qələbə çalsın.

Çəkib qılıncını qorxmaz igidlər,
Yağı qoşunuyla üz-üzə gəlsin.
Qorusun yurdunu, sonunda ellər,
Qırx gün şadlıq etsin, sevinsin, gülsün.

Mənə nağıl danış, nağıl, nə olar,
Gecənin zülməti məni sıxmasın.
O Simurq quşunu çağır nə olar,
İşıqlı dünyaya məni aparsın.

Divlər gözəlləri assın saçından,
Quyuya salsınlar Məlikməmmədi.
O da gözəlləri qurtarıb dardan
Sonunda tanısın mərdi, naмərdi.

Mənə nağıl danış, inanım sənə,
Qorxmayım ay ana, təpəgözlərdən.

İnanım xeyirin qələbəsinə
Bilim qurtaracaq dünyanı şərdən.

Mənə nağıl danış, ay ana, de ki,
ötən günlərimiz nağıldı elə.
Sonu yaxşı olur hər bir nağılın
Nə qədər qorxulu olsa da belə.

Mənə nağıl danış, nağıl, ay ana,
Bənzət dünyamızı nağıllara sən.
Mənə nağıl danış, ay nağıl anam,
Bir az nağıllanım-ağıllanım mən.

## QIZCIĞAZLAR ANA OLMAQ İSTƏYİR

Bayaqdandır evcik-evcik oynayır,
qızcığazlar 6-7 yaşında.
Qızcığazlar bu oyundan doymayır,
hərəsinin min nağıl var başında.

Bir eyvanı bölübdülər ortadan,
hərəsinin bir ayrıca otağı.
"Bu gəlincik mənim balam olacaq,
busa sənin, bu da onun yatağı"...

Hərəsinin öz evi, öz körpəsi,
bir eyvanı bölübdülər ortadan.
Hərəsinin dilində öz nəğməsi,
qızcığazlar nəğmə deyir astadan.

Qonaq gedib bir-birinin evinə,
pıçıltıyla danışırlar arabir.
Sən müqəddəs arzuya bax, hissə bax,
qızcığazlar ana olmaq istəyir.

Aman qızlar, dayanmayın bircə an,
qoy heç zaman qurtarmasın bu oyun.
Göyçəklərim, çiçəklərim, güllərim,
laylanızı siz ucadan oxuyun.

Yer üzünə haray salın, hay salın,
pıçıltıyla danışmayın arabir.
Qoy eşitsin bu arzunu YER üzü:
Qızcığazlar Ana olmaq istəyir!
Qızcığazlar Ana olmaq istəyir!

## VƏTƏNİM

Eşqin ilə alışım,
torpağına qarışım,
hər daşı, hər qarışı
bol sərvətsən, Vətənim.

Muğanın tək düz hanı,
səndən doyan göz hanı,
vəsf etməyə söz hanı,
nə hikmətsən, Vətənim?

Sinəndə çox köz qalıb,
deyilməmiş söz qalıb,
hər gülündə göz qalıb,
min sərvətsən, Vətənim.

Günün gündən uğurlu,
keçdiyin yollar nurlu,
hər anı zəhmət dolu
səadətsən Vətənim.

Dözə-dözə yaşadın,
tarix özü yaşıdın,
ürəkləri yaşadan
məhəbbətsən, Vətənim.

## BİR LAYLA DE

Bir layla de, layla, ana,
bir az sakit, bir az rahat yata biim,
o nağıllı uşaqlığın əllərindən tuta bilim,
Gecələrin sükutunu ürəyimdən ata bilim.
Bir layla de, layla, ana,
qoy o kövrək uşaqlığım
nəfəsinə sığınaraq
bu günümə dönsün mənim,
köməyimə gəlsin mənim.
Qoy özümü mən hamıdan
güclü sanım, güclü bilim.
Bir layla de, layla, ana,
səsin dolsun ürəyimə.
Mən laylanda qoy bir azca əzizlənim,
qoy bir azca güzgülənim, təmizlənim.
Bir layla de, laylan gəzsin Yer üzünü,
gözü yaşlı arzular var Yer üzündə,
sən onları ovut, ana.
Səsin gəzsin Yer üzünü,
mürgüləyən, yuxulayan ürəklər var,
duyğular var Yer üzündə,
laylan ilə sən onları oyat, ana,
yatanları oyat, ana,
yatmışları oyat, ana.

## ÜRƏKLƏRDƏ ÖLMƏYİN

Sevgi olmaq istəyirəm
ürəklərdə yaşamaqçün.
İnam olmaq istəyirəm
ürəkləri yaşatmaqçün.
Milyonların arasında yaşayaraq
bir ürəkdə ölməkdənsə
Bir həyatçün bu canımdan keçərəm mən.
Yad ellərdə bulaqlardan şərbət axsa, istəmərəm,
Xəzərimin duzlu suyun
ovuc-ovuc içərəm mən.
nələr-nələr edərəm mən,
dostluq olub eldən-elə gedərəm mən.
Yer üzünü gülüstana döndərərəm,
sərhədlərdə çiçək kimi bitərəm mən.
Ey insanlar,
bir arzum var hamınıza
Yaşamağı çox da asan bilməyin siz.
Bu dünyadan köçəcəyik əvvəl-axır,
Çalışın ki, ürəklərdə ölməyin siz.

# PUBLİSİSTİKA – VƏTƏN OLANLAR

# Birinci Qarabağ Savaşının qəhrəmanları

## QARDAŞLAR

Həyat gözlənilmədən sevinc yaşadar. Gözlənilmədən bir daş olub çırpılar qapına, bacana, sakitliyinə...

Və ən ağrılısı odur ki, oturub düşünərsən: Bu daş qəfil idimi, həyatın üzümü çöndü? Yanıb, yanıb kül olarsan. Qəfil deyildi heç nə. Yanındaca gözünün qabağındaydı bu xəyanət daşı.

Kim deyir ki, ermənilərin xəyanətindən xəbərsizdik? Kim deyir ki, bir gün qara daş kimi düşməyəcəkdi həyatımıza? Kim güvənirdi ki, bu dostluğa? Heç kim. Əmin olmadığına güvənə bilməzsən. Hər birimiz bunu bilirdik: bakılı, qubalı, lənkəranlı, naxçıvanlı, qarabağlı...

Şuşalılar da bilirdi. Görməzdən gəldiyimiz, qulaqardına vurduğumuz, üzünə baxmadığımız dəhşətli həqiqət bir gün yenə də zorla evimizə, yuvamıza, ürəyimizə təpildi... Minlərin faciəsinə səbəb oldu...

Ruslanla Nasir kimi... İkisi də Şuşada doğulmuşdu. İkisi də Şuşaya qarışdı.



# RUSLAN

HÜSEYNQULU OĞLU
BAĞIROV

**11.03.1956 – 8.05.1992**

Hüseynqulu müəllimlə Zərif xanımın ailəsi xoşbəxt idi. 6 övlad böyüyürdü ailədə: Elman,Yelmar, Fərman, Lyudmila, Ruslan, Nasir.

Ailənin 5-ci övladı dünyaya gələndə təbiətin ən gözəl vaxtıydı. Yaz gəlirdi. Şuşa əsrarəngiz gözəlliyə bürünür yazda. Dağı-daşı gül açır mart ayında. Ailənin dördüncü oğlu 1956-cı il martın 11-də anadan oldu. Hüseynqulu müəllim Puşkin yaradıcılığını sevdiyindən oğluna Ruslan adını verdi. Yeganə qızının adı isə Lyudmila idi.

Ruslan da özündən böyük qardaşları və bacısı kimi ata qayğısı, ana sevgisiylə böyüdü, Şuşa şəhər 4 saylı orta məktəbdə təhsil aldı.

Orta məktəbi bitirib Azərbaycan Politexnik İnstituna (indiki Texniki Universitetə) qəbul oldu. Ali təhsilini başa vurub öz el-obasına qayıtdı: əvvəlcə Şuşada Mənzil İstismar idarəsinin müdiri, sonra peşə

məktəbində direktor müavini işlədi. Bütün gənclər kimi xəyallar quran, sevib-sevilən vaxtı idi. Aşiq oldu. İngilis dili müəllimədi olan Rəhilə xanımla ailə qurdu. Bir oğul, bir qız atası oldu: Emil və Zərif. Xoşbəxt idi Ruslan. Şuşanın bir gün od tutub yanacağından xəbərsizdi.

1988-ci il hadisələri başlayanda ermənilərin ağlasığmaz vəhşiliklər edəcəyindən xəbərsizdi.

Ölkədə vəziyyət qarmaqarışıq idi. 1990-cı ilin yanvarında çiyin-çiyinə verib Sovet Ordusunun tanklarının qarşısına çıxan, 1991-ci ildə müstəqilliyini elan edən Azərbaycan Rusiyanın düşməni idi. Bu "özbaşınalıq" cəzalanmalıydı. Rusiyanın erməniləri dəstəkləməsi ilə cəzalandı Azərbaycan xalqı. Qarabağda ermənilər vəhşiyə döndü. Yerli əhali işgəncələrə, kəndlər, rayonlar işğala məruz qaldı. 1992-ci ilin fevralında əsrin faciəsi - Xocalı soyqırımı baş verdi.

Hər kənd, hər qəsəbə isə qorunurdu. Könüllü özünümüdafiə batalyonları yaranırdı. Ruslan da torpağı uğruna döyüşlərə qatıldı. Milli qəhrəman Ramiz Qənbərovun başçılığı ilə yaranan özünümüdafiə batalyonunda rota komandirinin müavini idi baş leytenant Ruslan Bağırov. Son anacan doğma şəhərini qorudu Ruslan. Rusiyanın Hərbi bazalarından atılan qradlar gözəl Şuşanı alovlara qərq edənə kimi, erməni və rus silahlıları şəhərə girənə kimi döyüşdü Ruslan. Qardaşı Nasir kimi...

***Feval, 2022***



# NASİR

HÜSEYNQULU OĞLU
BAĞIROV

**22.05.1958 – 08.05.1992**

1958-ci ilin yasəmən ətirli mayının 22-də dünyaya gəldi ailənin sonbeşiyi. Ata xoşbəxt idi. Hər qayaya sarılmaq, hər çiçəklə sevincini bölüşmək istəyirdi. Bütün uşaqlar kimi onun da övladları Şuşanın saf suyu, təmiz havası ilə saf, təmiz böyüdülər.

Ailənin yeganə qız övladı 5 qardaşın əziz xələfi Lyudmila xanımın xatirələrindən: Ən kövrək, ən əziz, şirin və ən ağrılı xatirələrimdi o illər. Çox hörmətli idi ailəmiz. Xoşbəxt idik. Elə bil Şuşada hamı xoşbəxt idi. Nasir sonbeşiyimiz idi. Elə bilirdik ki, o, hamımızdan sevimlidir. Valideynlərim onun Bakıya getməsinə belə razı olmadılar. Nasir Şuşada Orta İxtisas Musiqi məktəbində təhsil aldı. Musiqini sevirdi. Gözəl tar çalırdı. Amma tar müəllimi kimi işləyə bilmədi. Həyətimizdə elektrik mişarı ilə işləyəndə ehtiyatsızlıqdan tarın simlərində gəzən barmaqlarını itirdi. Tar çala bilmədi. Sonra mağazada işlədi. Hadisələr başlayanda bütün

qeyrətli oğullar kimi Könüllülər batalyonuna yazıldı. Topçu idi. Son anacan Şuşadan çıxmayıb qardaşlarım. Orda olan oğullarımızdan xəbər tuta bilmədik. Doğma yurddan çıxmadılar, Şuşanın torpağına qovuşdular. Qardaşlarımı itirəndən sonra meylimizi gəlinlərə, onların övladlarına saldıq. Onların çətinliyi təkcə atalarının yoxluğu oldu. Rəhilə də, Nərminə də mərd duruşlu, sədaqətli xanımlardı. Çox cəfakeş analardı. Övladlarını qəhrəman atalarının adına layiq böyütdülər. Hər biri ali təhsil aldı. Gözəl övladlar oldu.

Nərminə xanım ata ocağında qaldı. Riyaziyyat müəllimədisi Nərminə. O qədər sadiq xanım oldu ki, Fəridi, Fəxrini böyütdü. Ata yurdumuzu tərk etmədi. İndi ocağımızda Nasir adı yenidən yaşayır. Fəridin oğlu indi babası Nasirin adını daşıyır. Mən qardaşlarımın xanımlarına-Rəhilə xanıma, Nərminə xanıma sonsuz minnətdaram. O qədər ləyaqətli xanımlardı. Qardaşlarımın xatirəsini müqəddəs tutdular. Biz nə qədər dəstək olsaq da, əsas yük onların çiyinlərində idi. İndi ikisi də nənədi.

Sizə həyatımın bir parçasını danışıram. 70 illik ömrümün 91-ci ilin avqustuna qədər olan hissəsini ömür sayıram. 91-ci ilə qədər olan qardaşlı, atalı-analı, Şuşalı ömrüm dağıldı sonra.

Qələbədən sonra igid oğullarımızın canlarını fəda etdiyi torpaqları, doğma yerləri gördüm yenidən. Yenə Şuşanın suyunu içdim, havasını ciyərimə çəkdim. Qardaşlarımın son döyüş yerlərinə saatlarla baxdım. Mənə elə gəlirdi ki, yenə o günləri yaşayacam...

Lyudmila xanıma qulaq asanda mənə elə gəlirdi ürəyi danışır. İllərin yanğısını, həsrətini qələbəmizlə söndürən həsrətli səsi həm də çox uzaqlardan – 90-cı illərdən gəlirdi elə bil.

Bütün bu ağrı-acıları mən də yaşamışdım. Bu 30 ili əzab çəkmişdim. Ölənləri-itənləri ürək ağrısıyla düşünürdüm.

Torpaqlarımızın düşmən əlində olması cızdağımı çıxarırdı. Amma evindən-ocağından didərgin düşənlərin tüstüsü bir başqadı. 1990-cı illərdə yaranan Könüllü özünümüdafiə batalyonunun komandiri Fəzail Əsədov: Mən o vaxt Xalq Təsərrüfatı adlanan institutu bitirmişəm. Təyinatla Şuşaya göndərildim. Hadisələr başlayanda Şuşa sanatoriyasında baş iqtisadçı işləyirdim. Özüm Ağdamlı olsam da Şuşada yaşayırdım. Onu qorumalıydım. Ölkədə ümumi vəziyyət, gərginlik, pərakəndəlik bizi çətin duruma salmışdı. Könüllü özünümüdafiə batalyonları yaranırdı. Müxtəlif bölgələrdən uşaqlar vardı. Hamı döyüşürdü. Tofiq Oğuz kimi igidlər vardı. Sadəcə vahid rəhbərlik yox idi. Mən də uşaqları topladım. O zaman icra başçısı Mikayıl Gözəlov idi. Elin qeyrətli, igid oğullarından biriydi. Ancaq ona güvənirdik. 3 top tapıb gətirmişdi. Ziyəddin, Vahid, Akif, Əbülfət, Zakir, Elbrus, Əhəd, Dərgah, Nizami, Vidadi, Ələmşah, Mehman, Tariyel, yeznə-qayın olan Əlilər, Fikrət, Adil,Təyyar, Vəliəddin, Nasir-ümumilikdə 20 nəfər idi dəstəmizdə. Qax polisləri də bizimlə döyüşürdü. İki qrupa bölünürdük. Nisbətən imkanlı olanlar döyüşənləri geyimlə,

ərzaqla təmin edirdi. 20 nəfərlə sonacan döyüşdük. Çox nizam-intizamlı batalyonumuz vardı.

Şuşaya hücum olacağını eşitsək də inanmırdıq. Mayın 7-dən 8-nə keçən gecə güclü artilleriya hücumu, qrad yağışı başladı. Xankəndində Rusiyanın 366-cı polku yerləşirdi. Dayanmadan Şuşaya atəş açırdılar. Hər yer yanırdı. Yenə iki yerə bölündük. Nasir Xankəndi istiqamətində müdafiədə idi.

Onu hədsiz çox istəyirdim, əvvəlcə uzaqlaşdırmaq istədim, getmədi. Bir neçə ay əvvəl onlara getmişdim, Anası Zərif xanım çox narahat idi. Ona dedim ki, nə qədər mən sağam Nasirdən nigaran qalma. Amma olmadı. Çox igid idi. Qorxmaz idi. Hətta ermənilər Şuşaya girəndə də döyüşüb, öz postunu tərk etməyib. Mən Ruslanın, Nasirin, Birinci Qarabağ Savaşında, İkinci savaşda da torpaq üçün canından keçənlərin ruhu qarşısında baş əyirəm, döyüşən hər bir oğulun, qazinin qarşısında baş əyirəm. Bu torpağı həqiqətən sevdiyi üçün onu hər an qorumağa hazır olan hər bir kəsin qarşısında baş əyirəm. Hər birinin xatirəsi əzizdi. Onları unuda bilmərik. – Dərindən nəfəs aldı Fəzail bəy. – Sevinirəm ki, Mikayıl Gözəlov yaşayır. Övladlarımız böyüdü. Qızımla Mikayılın oğlu ailə qurub. İndi nəvəmizin adı Mikayıldır. Mikayıl Gözəlov yenidən doğuldu. Mikayıl Gözəlovlar yenidən doğulur və doğulacaq. Bu torpağı qoruyacaq İkinci Savaşın igidləri kimi.

Şuşa xatirələrini dinləyəndə, yazını yazanda o günlərə yüzüncü, mininci dəfə yenə qayıtdım.

Bilmirəm düşmən gülləsinəmi rast gəlib Ruslan, ya Nasir? Ya rus hərbçilərinin yandırdığı Şuşanı görəndə ürəklərimi dayanıb sonacan Şuşanı qoruyanlar kimi? Nə qədər ürəklərin dayandığını kim bilir ki?

İki qardaşın yanğısı hələ səngiməyən Lyudmila xanımla söhbətləşəndə dedi ki, illərdi qardaşlarım yuxuma gəlir, həmişə dərdli, qapqara, yaralı görürdüm onları. Qələbədən sonra Şuşaya gedəndə qardaşlarımın son döyüş yerinə baxdım. Bilirdim ki, ermənilər ancaq  Xankəndindən Şuşaya gedən yoldan şəhərə daxil ola bilərdilər. Elə bil onları gördüm. Həmin postda dayanmışdılar. Sapsağlam, dimdik dayanmışdılar.  Gülümsəyirdilər...

***Feval, 2022***



# ӘHӘD

FİRUZ OĞLU İSGӘNDӘROV

**18.07.1974 – 29.10.1993**

**Birinci Qarabağ müharibəsinin şəhidi**

## ӘHӘDİN XOŞBӘXTLİYİ

– Deyirlər, tək uşaqları aparmırlar, bəlkə maraqlanaq, müraciət edək?

– Ana, nə danışırsan? Vətən də təkdi. Başqa Vətənimizmi var? – dedi.

– Səndən başqa kimim var, ay oğul? Mən səninlə nəfəs alıram...

– Ana, mən də səninlə nəfəs alıram. Amma getməliyəm. Kimdən artığam? Orda ölənlərin, itənlərin anası, atası, övladı yoxdumu? Belə gündə ana dizinə sığınım? Olmaz, ana, olmaz...

– Sənə bir şey olsa...

Oğlu ilə xidmətə yola düşməzdən öncəki söhbətləşməsini xatırlayır Gülnaz xanım. “Sözümü kəsdi

“Qismətimdə yaşamaq varsa, yaşayacam, yoxdursa, burda da nəsə ola bilər”– dedi və üzümdən öpdü.

– Xocalı faciəsi olanda cəbhəyə getmək istəyirdi, 18 yaşı olmamışdı, aparmadılar. Hərbi xidmətdə də onu arxa cəbhədə saxlayırdılar ailənin tək uşağı olduğu üçün. Özü gedirdi döyüşlərə... – kövrəlir Gülnaz ana.

“Elə bilirdim onsuz yaşaya bilmərəm. Yaşadım amma..”

Əhəd Sərhəd Qoşunlarında xidmət edirdi. O, hərbi xidmətə gedəndə vəziyyət gərgin idi.

Valideynləri tez-tez gedir Əhədin yanına. Oğulları haqqında döyüş yoldaşlarından həmişə tərif eşidirlər.

Komandiri atasına deyir: Necə övlad böyütmüsüz? Hamının sevimlisidir. O qədər mərddi, qorxmazdı ki! Biz onun tək uşaq olduğunu bilirik. Onu arxa cəbhədə saxlamaq istəyirdik. Soruşuram: Kim Veysəlliyə getmək istəyir? “Mən” deyir. Böyük Bəhmənliyə kim gedər? “Mən” deyir. Horadizə kim getmək istəyir – deyirəm, yenə “mən” deyir. Əslində bilir ki, onu göndərmək istəmirəm. Amma bizə Əhəd kimi oğullar lazımdı”.

Əhəd ən gərgin nöqtələrə birinci getmək istəyirdi və gedirdi.

Yerli əhalinin əzab-əziyyətini görürdü.

Sərhədçi yoldaşlarından olan Əlibalanın xatırladıqları: 19 yaşı vardı, amma ağsaqqalımız idi elə bil. Həmişə öndəydi. Hamıya kömək etməyə hazır idi. Qadınları, uşaqları, yaşlıları döyüş bölgəsindən

çıxarmaq lazım gəlirdi. Araz çayından keçməli olurdular. Əhəd uşaqları iki-iki, bəzən üç-üç keçirirdi. Bir neçə dəfə qayıdırdı.

1993-cü ildə Fizuli, Cəbrayıl, Qubadlı uğrunda gedən döyüşlərdə iştirak edib. Sərhədçi idi Əhəd. İmkanı olsa, sərhədlərimizi qorumaq üçün sərhəd boyu sərərdi canını... Artıq düşmən də bunu bilirdi. Əhəd onlar üçün keçilməz sərhəd olmuşdu. Onu snayperlə başından vurdular.

Əhəd Firuz oğlu İsgəndərov 1974 – cü il iyulun 18 - də Bakıda doğulmuşdu.

Yasamal rayonundakı 31 nömrəli tam orta məktəbdə təhsil almışdı. Onu həmişə anırlar məktəbdə. Müəllimlərinin bir çoxu dünyasını dəyişsə də, onun xatirəsi yaşayır. Əhəd oxuyanda pioner baş dəstə rəhbəri olan Nazilə müəllimə indi də onu sevgiylə xatırlayır: O qədər mədəni, intizamlı, nümunəvi idi ki. Məktəb tədbirlərində iştirak etməyi sevərdi. Çox məsuliyyətli idi. Heç unutmuram, Yeni ilə hazırlaşırdıq. İbtidai siniflər üçün Şaxta baba axtarırdım, Əhədi seçdim. Həvəslə razılaşdı. Geyimlərini özü hazırladı. Anası da bizə kömək edirdi. Elə gözəl Şaxta papağı hazırlamışdı ki. Bir neçə il Şaxta Babamız oldu. İcazə verməsəm də, özü əlavə hədiyyələr alırdı. Uşaqlara hədiyyə verəndə özü onlardan çox sevinirdi. Sevinc doluydu.

Hərbi Xidmətə gedəndə də məktəbə gedib müəllimləri ilə görüşür. Bəlkə bir daha görüşməyəcəklərini hiss edib, çox sevdiyi məktəbini, müəllimlərini gör-

mək istəyib? Anası deyir ki, müəllimlər də onu çox istəyirdi. İllərdi müəllimlər mənimlə əlaqə saxlayır, xəbərləşir, xatirə tədbirləri keçirirlər. İndi işləyənlər Əhəd oxuyanda işləmirdi. Amma xatirəsini əziz tuturlar. Məktəbin qarşısından keçəndə, müəllimləri görəndə rahatlıq tapıram...

Gülnaz xanımın ürək dolu təşəkkür sözlərindən narahat oldum əslində. Ürəyim sızladı: Ay gözəl qadın, gözünün ağı-qarası tək övladını min bir əziyyətlə böyüdən zəhmətkeş ana, biz sənə borcluyuq. Əhədə, əhədlərə borcluyuq – dedim.

29 oktyabr 1993-cü ildə Horadizdə şəhid olur.

Ana 28 – də gecə yata bilmir. Səhər tezdən cəbhə bölgəsinə yola düşür. Orda ən cəsur, ən qorxmaz bir gəncin snayperlə vurulduğunu eşidir. Hamı onun igidliyindən danışır. Oğlu olduğunu bilmədən ağlayır ana bir gənc igidə. Əhədin komandirini tapır ata-ana. Ancaq komandir Əhədin ölüm xəbərini deyə bilmir: Əhəd yaralanıb, Bakıya hospitala aparıblar – deyir.

Ata – ana tələsik geri dönür...

"Oğlumu çox hörmətlə yola saldılar. Onu Şəhidlər Xiyabanında dəfn etmək istədilər. Razılaşmadım. Özüm Novxanılıyam. Bütün qohumlarım ordadı."

Gülnaz ana bir igid Şəhidin anası olması ilə təsəlli tapır illərdi. Sual etmək istəyirəm: "Şəhid ailəsi kimi sizə nə kömək..."

"Kamalə müəllimə, mən Səhid anasıyam deyə heç nə üçün müraciət etməmişəm. Etmərəm də. Bunu oğlumun ruhuna hörmətsizlik hesab edirəm. Arzusu

idi Vətəni azad görmək. Vətən uğruna Şəhid olmaq. Elə bilirəm ruhu narahat olar. Hər qələbə xəbərində onun yanına gedirəm, bu xəbəri ona deyirəm. Bilirəm ki, sevinir."- deyir.

Ana əmindi ki, İndi Novxanıda Şəhidlər Xiyabanında sevinir, rahatlıq tapır Birinci Qarabağ savaşının şəhidləri kimi Əhədin də ruhu.

Əhəd başqalarının sevincindən xoşbəxt olurdu. Bütün dünyanı sevinclə qucaqlamaq istəyirdi. İndi Qələbə sevincindən xoşbəxtdi.

***P. S. Gülnaz xanım isə Sovetskinin köhnə məhləsində kiçik, kasıb  mənzilində yaşayır böyük ürəyi ilə.***

***Yanvar, 2021***



# ŞAHNUR

ŞAHİN OĞLU HÜSEYNOV

**30.11.1991 – 27.09.2020**

## OHANYAN SƏDDİNİ YARAN ŞAHNUR HÜSEYNOV

Hərbi xidmət zamanı "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları, ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Şahnurun atası Şahin Hüseynov ötən əsrin 90 – cı illərində Polşada hərbi xidmətdə idi.

Oğlu Şahnur da 1991 – ci il noyabrın 30-da Belqrad şəhərində dünyaya gəlir. Birinci Qarabağ savaşı başlayanda Şahin Hüseynov Vətənə qayıdır, ailəsiylə Cəlilabadın Göytəpə qəsəbəsindəki Hərbi şəhərcikdə məskunlaşır. Şahnur da orta təhsilinə Cəlilabadın Göytəpə qəsəbəsində başlayır. Sonra Şahin Hüseynov Ağcəbədiyə köçür. Hərbçilər yaşayış yerlərini özləri seçmir. Şahin bəyin də xidmət yeri Füzuliyə dəyişilir və təqaüdə çıxana qədər

Füzulidə hərbi xidmətinə davam edir.

Şahnur da Füzulinin Əhmədbəyli kəndindəki Mahmudlu - 2 kənd tam orta məktəbində oxuyur. Hərbçi ailəsində böyüyən Şahnurun qəlbində uşaqlıqdan bir arzusu da böyüyür: hərbçi olmaq.

Bu haqda təkcə valideynləri, dostları deyil, Şahnurun fizika – riyaziyyat müəllimi Narınc xanım da danışdı. Onun Şahnurlu xatirələri ürəyimə doldu, yanaqlarımda iz saldı. İllərdi kəndinin ölüm qoxulu havasını içinə çəkə-çəkə yaşayır bu mərd Azərbaycan xanımı: Bir başqaydı Şahnur. Şagirdlərimi, sənətimi çox sevirəm, amma hər müəllimin seçilən, ürəyində xüsusi yeri olan şagirdləri olur. O belə idi. Çox-çox dəyərliydi mənim üçün. Adətən uşaqlara "Kim olmaq istəyirsən?" sualını veririk. Həmişə "general" deyə cavablandırıb mənim balam. Ona arada "general" deyirdik. Kapitan oldu. Bilirəm ki, mütləq general olacaqdı. Müharibə bizim kənddən başladı elə bil. Kənddə yalnız kişilər və biz – dörd qadın qalmışdıq. Özüm də məscidin yaxınlığında yaşayıram. İlk yaralılar, şəhidlər gətirilirdi. Axşamüstü dayana bilmədim, qadınlara "məscidə gedək" dedim. Elə bil hiss etmişdim ki, mənim Şahnurum ordadı. Onu şəhidlərin arasında görəndə inanmadım. Fikirləşirdim Şahnur şəhid olmaz. Ailə ilə münasibətim var. Onlara xəbər vermədim. Sadəcə oxşatdığımı düşünmüşdüm... Bu il doğum gününü onsuz qeyd elədik oxuduğu sinif otağında. Sinif yoldaşlarından bəziləri döyüşürdü, bəziləri gəlmişdi.

Şahnur Hüseynovun hərbçi olacağını hamı bilirdi.

8-ci sinifdən sonra C. Naxçıvanski adına Hərbi Liseyə daxil olur, oranı bitirib 2009- cu ildə H.Əliyev adına Ali

Hərbi Məktəbdə təhsil alır. Ali Hərbi Məktəbin məzunu olduqdan sonra 2013-cü ildə taqım komandiri kimi hərbi xidmətə başlayır.

2016-cı il aprel hadisələrində, Lələtəpə yüksəkliyinin alınmasında qəhrəmanlığı ilə fərqlənib. Hərbi xidmətdə olarkən Yubiley medalları ilə təltif olunub. Beləcə arzusunda olduğu hərbçi həyatını şərəflə yaşayıb...

2017-ci ildə sevib-seçdiyi Gülyaz xanımla ailə qurur. Sonra daha bir ad alır: Əlinurun atası. GDU-nun “Riyaziyyat – informatika” fakültəsinin məzunu olan Gülyaz xanım “Şahnurlu günlərimin əvəzi olmayacaq. Həyatımın nuru idi, Şah nuru” – deyir.

Tağım, bölük komandiri olub. Taborun qərargah rəisi kimi də seçilib: intizamı, çalışqanlığı, mədəniyyəti, savadı, təşkilatçılığı, cəsurluğu ilə seçilib.

Atası Şahinin əmiləri Böyük Vətən müharibəsində Berlinə qədər döyüş yolu keçənlərdəndir. Ata deyir ki, həmişə ona əmilərimi nümunə gətirərdim. Vətənpərvər ruhda böyüyüb Şahnur. Onunla bir hərbçi, bir övlad, bir vətəndaş kimi fəxr edirəm. Övladım Vətən oğlu kimi öz borcunu yerinə yetirib, təkcə ailəsinin deyil, Vətəninin övladı idi. Mərd yaşadı. Qəhrəman kimi yaşadı.

7 yaşlı Şahnurun himnimizi oxuyarkən çəkilən görüntülərini izlədim. Balaca Şahnurun dəqiq, səlis ifasından çox diqqətimi Şahin Hüseynovun qürur dolu baxışları, özündən razı üz ifadəsi çəkdi. Ata himnimizi ürəklə oxuyan oğluna elə baxırdı ki. Baxışlarından, üzündən “baxın, mənim balaca oğlum Vətən himnini necə böyük ürəklə oxuyur” təbəssümü işıq səpirdi. Bu işıqda oğlunun oxumasından

qürurlanan atadan çox, Vətən sevgisindən doğan nur vardı.

Mərd kapitanın anası Hüseynova Hədiyyənin sözlərini də heyranlıqla dinlədim: “Şahnur tək mənim oğlum deyil ki? Astaranın, Füzulinin – bütün elin övladıdır. Onun dərdi-səri Vətən torpaqları idi. O, bütün arzularına çatmışdı. Oxumuşdu, xoşbəxt ailəsi vardı. Ən böyük arzusu Vətən azadlığını görmək idi. Həmişə deyirdi ki, lazım gəlsə, Şəhid olaram, amma torpaqlarımızı azad edərəm. O günü görsəm, bütün həyatım məna tapacaq. Üzürlü sayın, amma “Şəhid olacam” dedikcə deyirdim elə demə. Anayam axı. O qədər inanırdı ki, torpaqlarımızın azad olacağına. Mən o qədər inanmırdım, amma o inanırdı. “Bu arzuma da çatacam” deyirdi. Çox ağırdı övlad itkisi. Bütün dərdlərdən ağırdı. Övlad itirən ananın ürəyi yaralıdı. Sağalmaz bu yara.  Amma indi düşünürəm ki, oğlum xoşbəxt oldu doğurdan da, bütün arzularına çatdı. Hamının sevimlisi idi. Yaxşı oxuyurdu, yaxşı övlad idi. Uşaqlıqdan hərbçi olmaq istəyirdi, arzusuna çatdı. Sevdiyi qızla evləndi. Xoşbəxt ailəsi vardı. Torpaqlarımızın azadlığı uğrunda Şəhid olmağa hazır idi. Bu arzusuna da çatdı. Mən bu gün tək Şahnurun anası deyiləm, bütün şəhidlərin anasıyam. Vətən uğrunda döyüşən bütün oğulların anasıyam”.

Nehmətov İlkin Şahnur Hüseynovun bölüyündə xidmət edib. “Onun haqqında hamıya danışmaq istəyirəm, hamıya. Şəxsiyyət idi, əsil şəxsiyyət. Bütün heyətimiz onu sevirdi. İlk hücuma keçdi, düşmənin ön xəttini, müdafiə səddini yaran ilk qəhrəman oldu. Döyüş başlamazdan əvvəl bütün əsgərlərlə görüşdü: Bu günü illərdi gözləyirəm, xoşbəxtəm, – dedi. Onun düzlüyünə, cəsarətinə heyrət

edirdik. Onun qanını, bütün Şəhidlərin qisasını aldıq".

2 güllə, 21 qəlpə yarası alan Abbasov Müşfiq: İnsan idi, İnsan. Çox savadlı, işini bilən igid idi. Nə deyim ki? Bütün əsgərlərinə sevgiylə, qayğıyla yanaşırdı. Döyüş başlamazdan əvvəl dedi ki, biz çox xoşbəxtik. Qələbə çalacayıq. Bu torpaqları azad edəcəyik. Bundan böyük xoşbəxtlik ola bilməz. Belə cəsur hərbçilərin sayəsində qələbə çaldıq əslində.

Hər birimizin uşaqlıq arzuları olur. Böyüdükcə arzularımız böyüyür, dəyişir. Kiçik Şahnurun arzusu özündən əvvəl böyümüşdü, dəyişmədi. İnadla "Əsgər olacam. General olacam" – dedi.

"Vətən mənim namusum, qeyrətimdi. Onu sevmirəmsə, bütün sevgilərim yalandı" deyirdi kapitan Şahnur Hüseynov. Düşmənin güvəndiyi "Ohanyan" səddini dağıtdı, döyüşlərdə göstərdiyi cəsurluq dastan oldu. Ohanyan səddini yara bilməyəcəyimizə inanan ermənilərin inamını alt-üst etdi. Kapitan olmasına baxmayaraq, polkovnik-leytenant vəzifəsini daşıdı. 3 tabora rəhbərlik edərək ölümün üstünə getdi qorxmadan, mərdliklə. Şəhid olacağını bilərək getdi.

"Vətən mənim canımdı. Elə bilirəm torpaqlarımız yox, canımın parçası düşmən əlindədi. Onu azad etməsəm yarımcan, yarımçıq olacam həmişə. Bütün torpaqlarımızı almalıyıq".

Doğru deyir Şahnur. Vətəni bütöv olmayanın özü də paramparçadı.

Böyük amalı uğrunda savaşdı, Qalib kimi ən yüksək rütbəyə çatdı Vətən oğlu.

Belqradda doğuldu, Füzulidə böyüdü, Füzuli uğrunda döyüşlərin qəhrəmanı oldu. Düşmənin çox güvəndiyi Ohanyan səddini yardı – Qələbəyə yol açdı talış balası kapitan Şahnur Hüseynov.

İndi Astaranın Ərçivan qəsəbəsində uyuyur.

Gülyaz xanıma sevgili həyat dostu, Əlinura qürur duyacaq ata oldu. Şəbnəm və Şəhriyara əvəzsiz qardaş oldu. Atası Şahin bəyin dediyi kimi vətənpərvər Azərbaycan oğlu oldu. Anası Hədiyyə xanımın dediyi kimi ən böyük arzusuna çatdı - xoşbəxt oldu.

Bədbəxtlər... Özündən əvvəl xoşbəxtliyi ölən çoxdu. Özündən sonra xoşbəxtliyi yaşayan isə azdı - Şahnur Hüseynov kimi.

Xalqın qəhrəmanı oldu kapitan Şahnur Hüseynov.

***Feval, 2021***

***P. S. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeni ilə (05.11.2021) təltif olundu.***



# ELÇİN

VAQİF OĞLU HƏSƏNLİ

**16.06.1993 – 8.11.2020**

## Elçin ətirli bayrağımız

Düşünürsən, arzuları yarımçıq qaldı.
Və necə bir ali arzusuna çatdı.
Deyirsən, ömrü yarımçıq oldu...
Və necə bütöv ömür yaşadı.

Belə düşündüyümüz vətənsevdalıların, əsgər və zabitlərimizin həyatını,  öyrənməliyik, öyrətməliyik, vətən sevgisindən dərs almalıyıq. Dərs verməliyik.

Həsənli Elçin Vaqif oğlu kimi oğulların həyatını yaddaşlara yazmalıyıq.

Həmişə seçilib. Həmişə fərqlənib Elçin. Amma nə bahalı geyimi, bahalı telefonu, nə maşını ilə fərqlənmək istəməyib, ağlına gəlməyib. Sadəcə birinci sinifdən məsuliyyəti, çalışqanlığı ilə seçilib. Şəxsiyyət kimi  seçilib. Bütün məktəbin sevimlisi olub.

1993-cü il iyunun 16-da Ağstafada ziyalı ailəsində

dünyamıza gəlib. Atası aspiranturaya qəbul olunduğundan Bakıya köçüblər. Hal-hazırda elmlər doktoru, professor olan Vaqif Həsənli universitet, anası Xatirə İsmayılova ibtidai-sinif müəllimidir.

1999-cu ildə Suraxanı rayonundakı 290 nömrəli məktəbdə orta təhsilə başlasa da, sonra A.Abdullayev adına Nəsimi rayonu 211 nömrəli tam orta məktəbdə oxuyub. Məzun Elçin Həsənli arzusunun dalınca gedib. Azərbaycan Dövlət Texniki Universitetinin tələbəsi olub 2010-2014-cü illərdə. Məktəbdə olduğu kimi universitetdə də savadı, düşüncəsi, davranışı ilə fərqlənib.

Müəllimləri onun haqqında bir-birindən gözəl sözlər dedi. Onlara elə gəlirdi ki, ən tutumlu kəlmələri seçsələr də az olacaq.

Sonra Həqiqi Hərbi xidmətə yollanıb. Lənkəranda, Füzulidə hərbi xidmət keçib.

Hərbi Xidmətdən sonra magistraturaya daxil olub. 2017-ci ildə magistr təhsilini də fərqlənmə diplomu ilə başa vurub. Bu da Elçinin arzusu idi. Oxumaqdan usanmırdı. Nə qədər oxusa “azdı” deyirdi.

2019-cu ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinə doktoranturaya qəbul oldu. Qiyabi oxuyur, “Şirvan” RETŞİ-nin Salyan ETŞİ – də paylayıcı şəbəkə sahəsində mühəndis işləyirdi. Həm də Sabirabad “Asan xidmət” mərkəzində çalışırdı.

Mükəmməlliyə can atırdı Elçin Həsənli.

2016-cı il aprel hadisələrində özünə yer tapmadı. Döyüşlərə getmək istəyirdi. Gənclərin kumiri olan

general-mayor Polad Həşimovun ölümündən sarsıldı. “Ermənilərin cavabını verməliyik” – dedi. Elə iyul ayında da könüllü hərbi xidmətə yazıldı.

Anası Xatirə İsmayılova müəllimədir: Məktəbdə hər il tədbirlər keçirir – 20 yanvar, Xocalı faciəsi, işğal günlərini qeyd edirik. Bütün bu hadisələr adamı dəhşətə gətirir. Bizim evdə həmişə tariximizlə bağlı söhbətlər olub, bu faciələri yaşamışıq bütün ruhumuzla. Özüm də Vətənə bağlı insanam. Deyirdim ki, vuruşub torpaqlarımızı almalıyıq. Mübariz İbrahimovun qəhrəmanlığı təpik kimi oldu. Silkələdi bizi. Döyüşüb torpaqlarımızı almalıydıq. Oğlanlarımın da gedib döyüşməli olduğunu düşünürdüm. Müharibədə şəhid olmaq da var, təki vətən azad olsun. Polad Həşimov öləndə gedib könüllü yazılanlar oldu. İnanırsız, düşündüm ki, görən Elçin də yazılıb? Bir gün dedi “ana, könüllü yazılmışam orduya, müharibə olsa gedəcəm”. Sevindim. İnanın, hətta şəhid olmasını da gözə aldım. Savaş başlayanda gedəcəyini bilirdim. Və o gecə zəngini də gözləyirdim onun kimi. Gecə getmək istəyirdi. Dedim ki, gecə hara gedirsən? Dinmədi. Mən bilirdim bu nə gedişdi. Yatmadı. Bütün gecəni otaqda fırlandı. Su da içmədi. Bir tikə çörək də yemədi. Güclə gözlədi sabahı. Maşın gələndə düşdü tələsik. Maşına minəndə çevrilib mənə baxdı. Elə qəribə baxdı ki... Ürəyimə damdı ki, bu ayrılıqdı”.

Kimsə onu saxlaya bilməzdi...

“Ən böyük arzum torpaqlarımızın azad olunmasını görməkdi. İndi bu savaşa az da olsa qatqımın

xoşbəxtliyini necə ifadə edim?" – deyirdi yaxınlarına.

Beləcə ilk gün getdi döyüşlərə...

Döyüş yoldaşlarının sözlərinə görə Elçin bir şəhidi, yaralını döyüş meydanında qoymurdu. "Müharibədi, bəzən gec yardım olunduğundan da itkilər olurdu. Çox diqqətliydi. Güllə altında çıxarırdı onları. Bütün silahlardan istifadə etməyi asanlıqla öyrənirdi. Çox məharətlə döyüşürdü. Təhlükəni hiss edirdi elə bil", – deyir Sarxan.

Gəncəli Sarxan Rafael oğlu Yolçuyev 1993-cü ildə Gəncədə anadan olub. Könüllü qatılıb savaşa. Murov uğrunda döyüşlərdə qəhrəmanlıq göstərib. Oktyabrın 1-də minamyot qəlpəsindən ağır yaralanıb. "Kəlbəcərin azad olunmasına görə" və "Hərbi xidmətə görə" medallarına layiq görülüb. Elçinlə dost olub: Təəssüf edirəm yaralandım, dostlarımın yanında ola bilmədim. Bütün şəhidlər mənim qardaşımdı, vətən övladıdı. Amma Elçinin yeri başqaydı. Elə bir oğul idi ki. Neçə əsgəri ölümdən qurtardı. Yaralıları çiynində daşıyırdı. Savadlı, qorxmaz. Heç inanmırdım ona nəsə olar.Yoxluğuna alışa bilmirəm. Bilirsiz, deyirlər nöqsansız adam olmur, amma o, nöqsansız idi. Nə desəm, azdı. Mən dostluğu onunla anladım, onunla yaşadım. Hamımızın evində, qonşusunda uşaqlar böyüyür. Söhbətləşəndə deyirdik ki, bu yükü, bu acını onlara qoymayaq – qazinin göz yaşı necə ağrılı olurmuş. – Amma biz valideynlərimizdən öncə bu vətənin övladıyıq. Onun üçün canımızdan keçməliyik. Vətən sağ olsun – deyir, sonra ona yazdığı şeiri oxuyur:

*Allah səni sevdi yenə,*
*zirvəni bəxş etdi sənə.*
*İtirmək ağırdı mənə*
*sənin kimi igid qardaş.*
*Qan oldu bayraq sinəndə,*
*nə söyləyim mən dinəndə?*
*Mən zəfərə sevinəndə,*
*sən olmuşdun Şəhid, qardaş.*
*İndi saralıb solmuşam*
*yaman çarəsiz qalmışam,*
*sən gedəndən mən olmuşam*
*nəfəs alan meyit, qardaş.*
*Bayraq bulaşdı qanına,*
*qurbanam Şəhid canına,*
*məni də apar yanına,*
*nolar, məni eşit, qardaş.*

Sol cibində ürəyinin üstündə bayrağımızla keçdi bütün savaşı – Vətən yolunu. “Vətən uğrunda” medalı ilə təltif olundu.

O qədər cəsur idi Elçin “Cəsurluğa görə” medalına döyüşlərdə fərqləndiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsində göstərdiyi igidliyə, bacarığına, bütün tapşırıqları uğurla yerinə yetirdiyinə görə layiq oldu.

Bütün savaşı keçdi Elçin. 43 gün addım-addım irəlilədi qələbəyə. Noyabrın 8-də Şuşa azadlığında Şəhid oldu ərənimiz. Ölümüylə əsgər dostlarını xilas

etdi. Şuşa uğrunda döyüşlərdə irəli keçən döyüşçülər yataq kisəsində gizlənən, arxadan onları güllələmək istəyən ermənini görmürlər. Onu Elçin görür, özünü düşmənin üstünə atır. Ölümü özü seçir. Beləcə neçə döyüşçünü xilas edir canı bahasına Vətən yolunda.

"Şuşanın azad olunması uğrunda" medalına layiq olur.

Bütün savaşı keçdi Elçin. Cəbrayıl, Füzuli, Xocavənd, Zəngilan, Qubadlı... Və Şuşa. Bütün savaşı ürəyinin üstündə gəzdirdiyi  bayrağı anaya verəndə qürur duydu ana: Şuşa döyüşləri başlayanda ondan xəbər tuta bilmədik bir neçə gün. Bildim ki, şəhid olub. Hiss elədim. Elçini gətirən gün gecə dedim "Oğlum gəlir. Durun, qarşılayın... Onun nəfəsini, ətrini duydum evdə. Gəldi... Ağırdı, amma başımıza gələn faciələrin cavabını verməliydik. İnanmıram ki, Elçin kimi oğul adi ölümlə ölə bilərdi. O kamil insan idi. Ölümü də fərqli olmalıydı.

Hər oğul Şəhid olmur, hər ana şəhid doğmur – dedi ərənimizin anası.

O bayrağı hər gün yüz dəfə qoxlayır ana: Elçinin ətri var bu bayraqda .

Elədi Xatirə xanım. İndi bayrağımız Elçin ətirlidir.

Bütün döyüşçülərin, bütün şəhidlərin anaları bilsin ki, indi torpağımız, bayrağımız, çörəyimiz, suyumuz, havamız Elçinlər ətirlidir.

***İyun, 2021***



# ELVİN

İLHAM OĞLU
MƏLİKOV

**20.03.2001 – 2.10.2020**

## ELVİN MƏLİKOVUN XALQINA NOVRUZ HƏDİYYƏSİ

Video görüntülərinə baxdım. Bir gün sonra Hərbi Xidmətə gedəcəkdi. Uşaqlıq dostlarıyla birgə keçirdiyi son gündən xəbərsizdi. O qədər sevincli idi ki. Hey gülürdü. Məsumca, uşaq kimi. Elə bil hamıdan xoşbəxt idi. Bu məsum uşaqlığın, uşaq məsumluğunun xoşbəxtliyini bağrına basmaq, qorumaq istəyirdin. O isə xoşbəxtliyin özünü anlatdı bizə.

Məlikov Elvin İlham oğlu 2001-ci il martın 20-də anadan olub. Bakıda. 20 yaşı olur bu il...

Cudoçuydu, qatıldığı yarışlarda mükafatlar alıb. Üzgüçülüklə məşğul olub. Gözəl rəsmlər çəkib. Atası İlham maşın ustasıydı. Dərslərini yaxşı oxuyar, həm də atasına kömək edərdi. Yaşından böyükdü Elvin.

Köhnə Günəşlidəki 24 nömrəli tam orta məktəbin

məzunudu. Yəqinki bu məktəb bundan sonra onun adını daşıyacaq.

ADU-nun tələbəsi Əliyev Rəşad da 24 nömrəli məktəbin məzunudur: Parta yoldaşı, dost, qardaş olmuşuq. Mərd, səxavətli, elə saf idi. Yaşıdları əyləndiyi zaman o, ailəsinə kömək etmək haqda düşünürdü. Maşınları sevirdi. Saatlarla maşınlardan danışardı. Axırıncı dəfə telefon söhbətimizdə artıq silahlardan bəhs etdi. Mübariz İbrahimova sevgisi başqaydı. “Qardaşın burda Mübariz İbrahimovun istifadə etdiyi silahla döyüşür. Onun intiqamını alacam” – dedi. Xəyalları vardı – ev, maşın almaq, sevgisinə qovuşmaq... Ali arzusuna – Müqəddəsliyə qovuşdu.

– Birlikdə böyümüşük. Ən maraqlı günləri birlikdə yaşamışıq. Onunla mübahisə etməyə bir bəhanə tapmazdın. Qəlbi geniş, təmiz, sədaqətli, cəsur idi Elvin. Belə dostum olduğu üçün fəxr edirdim. İndi də fəxr edirəm. İstəyirəm onu hamı tanısın – bunları Elçin Salamov söylədi.

Onu hamı tanıyır, ay Elçin. Onu Azərbaycan torpağı tanıyır. Bu torpağın bir adı da indi Şəhid Elvin Məlikovdu. Polad, Nail, Mübariz, Əlyar, Əmrah, Tərlan, Xudayardı...

“Onun haqqında düşüncələrimi danışsam, bitməz... Hələ də yoxluğunu qəbul edə bilmirəm. Hər gün onu düşünürəm. Hərtərəfli idi” – deyən Murad Quliyevin bir fikri ağlıma işlədi: “O qədər saf, sadiq, məğrur, ləyaqətli idi ki. Şəhid adına layiq idi”.

Doğru deyirdi. Bu ada layiq olmaq da var. Onun

üçün də bu ad  qürur yeriydi.

Başqa bir dostu Neft və Sənaye Universitetinin tələbəsi Nurlan Ağayev isə dedi ki, Elvin kimi dost, qardaş itirmək çox ağırdı. Onun necə olduğunu heç bir sözlə anlada bilmərəm. Xalqımız həmişə onunla fəxr edəcək. Ona nəsib oldu Şəhidlik zirvəsi. Kaşki mənə də nəsib olaydı...

Bütün dostları, döyüş yoldaşları onun şəxsiyyətindən, igidliyindən, Vətən sevgisindən danışır, danışmaq istəyirdi.

Elvin ali təhsilini başa vurmadan Hərbi Xidmətə yollandı.

“Öncə vətənə borcumu yerinə yetirməliyəm” – deyib anasına.

2019-cu ildə atasını itirirəndən az sonra gedir Həqiqi Hərbi Xidmətə. “İmkan tapan kimi atasına kömək edirdi. Qazandığı pulu mənə verərdi. “Qazandığını özünə də xərclə” deyirdim. “Yox, bacılarımın təhsilinə gərək olar”deyirdi. Gözləri doldu İlhamə xanımın. – Amma hələ məktəbdə oxuyandan 20 yanvar, Xocalı faciəsi, Qarabağ haqda danışardı. Əsgər getməyə tələsirdi, elə bil ürəyinə dammışdı ki, müharibə olacaq. Deyirdi “torpaqları almağa gedirəm, ana, fikir eləmə. Torpaqlarımız azad olsa, mənim də bir damcı payım olsa, ən xoşbəxt adam olaram”.

Ağcabədidən sonra həqiqi hərbi xidmətinə Cəlilabadda XTQ-də davam edib. Elə ilk günlərdən fərqlənib, komandiri “Elvin əsil hərbçisən. Snayperçisən, hərbidə qal” deyib. Sərrast atıcılığı ilə seçilib. Zəng

edəndə valideynlərinə “komandirim məni saxlamaq istəyir” – söyləyib fəxrlə.

Qarabağ Savaşı başlayanda Ağcabədidə N saylı hərbi hissədən döyüş bölgəsinə- Füzuliyə yollanır. Məsuliyyəti, atıcılığı, silahları idarə etmək bacarığı ilə tanınır Elvin. Sorağı özündən əvvəl çatmışdı hərbi hissəyə. “Əlləri qızıl, qızıl Elvin” deyirdilər.

Döyüş yoldaşı, Şəkidə müalicə alan Ziyanın dediyi kimi “Elvin qızıl idi. Bizim “Qızıl Elvin”imiz. Fikri-zikri qələbə idi. O qədər mədəni, səmimi və qorxmaz idi ki. Hamımız əsgər idik, döyüşürdük. Amma O bir başqaydı. İndi də fikirləşirəm ki, elə bil ən yaxşıları seçirdi güllələr”.

2 oktyabr gecəsi...

Gecə yata bilmədim. Bacım da bizdə idi. “Nə olub?” – deyə sordu. Dedim ki, ürəyim ağırlaşdı, yandı elə bil. Su içdim, yanğım keçmədi. Ürəyim yandı, yandı... Demə 3-də... – səsi qırıldı ananın. Kövrəldi İlhamə xanım. Ananın göz yaşını necə silmək olar? Ananın göz yaşından ağır nə olar ki? Çox ağırdı anaların göz yaşı. Elə ağırdı ki, bircə damçısında boğularsan. Bircə damcısından əzilərsən, xıncım-xıncım olarsan...

İndi İkinci Fəxri Xiyabanda uyuyan Elvin Məlikov “Vətən uğrunda” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunub.

Elvinin komandiri mayor Anar Quliyevin dedikləri: Əsgərim Elvindən çox danışa bilərəm. Hədsiz mədəni, qorxmaz idi. Ən önəmlisi, hamı kimi torpaqlarımızın azadlıq həsrətini çəkirdi. Məsuliyyət-

liydi. Ona baxanda qəhrəman Mehdi Hüseynzadəni xatırlayırdım. İmkan olan kimi gözəl rəsmlər çəkirdi.

Qaraxanbəyli uğrunda döyüşlərdə şəhid oldu. Düşmən yüksəkliklərdə yerləşmişdi. Biz hücuma keçməliydik. Elvin pulemyot manqasında döyüş yoldaşı İrapov İsmayılla Kayot silahını idarə edirdi. Silah ağır olduğundan iki nəfər idarə edir. Kayot silahı çox önəmlidir. Düşmən atəş yağdırırdı. Elvingil onları susdurmalıydı. Mən təxminən 50 m uzaqda idim. Elvingilin mövqeyinə mina atıldı. Mən onları səslədim "mövqeyi dəyişin" deyə. Ancaq ikinci atəş açıldı. Təsəvvür etmirsiz, əsgərlərinin şəhid olmağını görmək necə ağırdır. Onlara tərəf atıldım. İnanmaq istəmirdim. İnanmırdım. Bir daha baxdım, nəbzlərini yoxladım... Çox üzücüdür. Doğmaydı, saf idi. Əsil döyüşçü idi. Bilirdim ki, verilən tapşırığı tam, sonacan yerinə yetirəcək.

Mən bir zabit, döyüşçü kimi fəxr edirəm ki, elə əsgərim olub. Təkcə mən yox, bizim bölükdən sağ qalan döyüşçülər hamısı fəxr edir. Onun doğmaları, yaxınları da fəxr edəcək həmişə. Nə qədər ki, Elvin kimi cəsur oğullarımız var, bu xalq başı uca olacaq, Azərbaycan heç vaxt əyilməyəcək heç bir düşmən önündə.

Doğru deyir mayor Anar Quliyev. Başı bəlalı Azərbaycanımız elə Elvin kimi oğulların igidliyi, cəsarəti, mərdliyi hesabına əsrlərdi yaşayıb, yaşayır və yaşayacaq. Öz bütövlüyünə qovuşur və qovuşacaq.

Martın 20-də Elvin Məlikovlar ailəsinə taleyin

bayram hədiyyəsi idi. Bu Novruzda isə O, Şəhid Elvini Xalqına hədiyyə etdi.

***P. S. Hərbi Xidmətdən əvvəl Optimalda işləyirdi Elvin. 2021-ci il martın 20-də 20 yaşı oldu. İş yoldaşları Şəhid Elvin Məlikovun 20 yaşını qeyd etdi.***

***Mart, 2021***



# MAHMUD

HEYDƏR OĞLU
CAVADOV

**13.04.1999-10.10.2020**

## HARDAN BİLƏYDİM, MAHMUD

Azadlığına qəsd edən varsa, ölümü gözə alacaqsan.

Əsir torpaqların azadlığı elə böyük sevincdi ki!

Azadlıq uğruna savaşarlar.

Bu savaşdan qalib çıxanlar – hər yaralı, itkin, hər şəhid sevinc dünyamızda özünə yer elədi. Hər biri haqqında danışmaq, yazmaq, hər birini tanımaq istəyirik... Bir-birimizi onları unutmamağa çağırırıq günlərdi. Amma Onlara olan borcumuz ödənməz...

Onların arasında bir tərəfdə dayanıb utancaq-utancaq gülümsəyən Mahmuda da.

Mahmud yaddaşımda iz buraxan məzunlardandı. Mahmud haqqında əmin fikrim vardı: Burda dayansan, sənə çətin olacaq, hətta həyatını itirə bilərsən, amma başqalarına yaxşı olacaq. Məcbur deyilsən, gedə bilərsən, amma başqaları əziyyət çəkəcək. Seçim

sənindi. Üzündəki utancaq təbəssümü "olsun" deyərdi. Mahmud tərəddüd etmədən ölümünə razı olardı.

Ailənin sonbeşiyi və iki bacının tək qardaşı idi Mahmud Cavadov. İkinci Qarabağ savaşı başlayanda hərbi xidmətdə idi. Suqovuşan uğrunda döyüşlərə qatıldı. "Torpaqlarımızı azad edəcəyik. İnanıram. Bunda mənim də payım olacaq" – dedi son dəfə. Ata-ana yurdu Cəbrayılı görmək oldu son arzusu.

Sonra... Günlərlə ondan xəbər ala bilmədilər.

Əslən Cəbrayıldan olan Heydər Cavadov Birinci Qarabağ savaşına könüllü gedib. 90-cı illərdə 6 il hərbi xidmətdə olub.

Mahmud Cəbrayılı heç görməyib. 1999-cu il aprelin 13-də Bakıda doğulub. Bütün olanları ata-anasının dilindən eşidib, kitablardan oxumuşdu. Müharibədə itkin düşməkdən xəbərsizdi...

Birinci Qarabağ Savaşının zabiti olan atanın isə bu xəbərsizlikdən xəbəri vardı, həyacanını gizlətməyə çalışsa da, nə olduğunu bilirdi əslində. O həm də ümidini gözlərinə sıxan Ata idi. Vurnuxurdu, bir neçə dəfə cəbhə bölgəsinə getdi xəbər ümidiylə. Olmadı...

Oktyabrda şəhid olan Mahmud dekabrın ilk günündə gəldi böyüdüyü şəhərə...

İgidlərimizin, Şəhidlərimizin hamısının üzündə bir işıq, nur var... Bu işığı qaranlığımıza verib gedənlərdən biridi Mahmud.

Hardan biləydim ki, bir gün çox sevdiyim şagirdim Vətən yolunda Şəhid olacaq, onun haqqında yazı yazacağam. Hardan biləydim?

Hardan biləydim, Mahmud?...

Utancaq, sakit, ağıllı baxışları ilə gözlərimin önündədi. Elə bil heç yerə getməyib, hələ şagirddi. Qiymətləri 4 və 5 idi. Oxuduğu sinfin uşaqları da savadlıydı. Hay-küylü idilər amma. Böyüdükcə bir az da dəcəlliəşdilər. Elə uşaqlar vardı müəllimləri bezdirirdi. Osa dəyişmirdi. Hərdən bəzilərinin yersiz hərəkətlərindən onların əvəzinə utanardı. Dəyərliydi. Utanmaq hissi olmayanların dəyəri olmur.

Dəqiq elmləri sevərdi. Arada "Bu gün Mahmud 5 alır. Bu təkcə biliyinə verilən qiymət deyil. Davranışına, məsuliyyətinə, özünə və ətrafına hörmətinə verilən qiymətdi" – deyərdim. Üzündə yenə utancaq təbəssümü görünərdi.

Fərqliydi Mahmud.

Texniki universitetin bakalavr pilləsini bitirib magistraturada oxumaq arzusu vardı. Amma "hərbi xidmətə gedəcəm" dedi. Anası Səkinə xanımın "Bəs magistratura?" sualına "Vətənə borcum var" deyə cavab verib. Ana bilirdi ki, Mahmud boşuna danışmaz, qərar veribsə, gedəcək. Ona görə də heç nə demədi. Borcunu verməyə getdi Mahmud. Anası Səkinə xanım deyir ki, onu hərbi xidmətə yola salmağa getmişdik, uşaq elə sevinirdi, elə sevinirdi. Sonra kövrəlir: Mən ona hələ uşağım deyirdim, bir də baxdım ki, o artıq böyükdü – əsgərdi. Dostlarının gətirdiyi bayrağı gah başına tutdu, gah öpüb əzizlədi, gah sinəsinə sıxdı... Bir də..."Anayam... Nəsə Hərbi Komissarlığın qarşısında vüqarla dostlarıyla dolaşan oğluma baxanda

mənə elə gəldi ki, onu son dəfə görürəm... Bilmirəm niyə? Ana ürəyidi”– söylədi ana. Ah, ana...

Möhtəşəm ANAlar! “Vətən sağ olsun!” – deyən Ana ürəkləri.

Sevinclə, qürurla, fəxrlə getdi. Vətən bayrağını sinəsinə sıxıb getdi və bayrağa sığınıb gəldi. Qubadlıda, Xankəndində, Xocalıda dalğalanmaq üçün bayrağa dönüb gəldi. İndi O ikinci Fəxri Xiyabanda ən böyük amalları Vətən azadlığı olan, hər biri Vətən olan igidlərimizlə birlikdədi.

Onların arzuları Vətən torpağında boy verəcək.

Mahmudların düşüncəsi, mənəvi dünyası, vətən sevgisi... keçmiş olmur. Bu gündə yaşayır, sabaha gedir.

Hər şəhid sarsıdır adamı. Onun da şəhid olduğunu eşidəndə sarsıldım. İnanmaq istəmədim.

Oxuduğu məktəbin Tədris hissə müdiri Naibə müəllimlə, sinif rəhbəri Aidə xanımla xeyli söhbətləşdim, bölüşdüm. “Çox gözəl şagird idi. Ağıllı, təmkinli, savadlı. Öz dünyası vardı. Hər kəsi də o dünyaya buraxmazdı” – dedilər.

Bakının Yasamal rayonundakı Aslan Ağaverdiyev adına 31 nömrəli məktəbin 2016-cı il məzunuydu Mahmud Heydər oğlu Cavadov.

Ölməzliyə qovuşan 21 illik ömrünün 11 ilinin şahidi olan məktəb divarlarına, pillələrə, sinif otaqlarına baxmaq keçdi ürəyimdən. Mənə elə gəldi ki, həmişə oturduğu ikinci partada oturub yenə Mahmud. Əlbəttə, oturub. Çünki onun dünənininin arzuları

bu gün həqiqətə çevrilib, sabah Ağdamda, Fizulidə, Kəlbəcərdə, Laçında, Şuşada yaşayacaq. Xocalıda çiçəkləyəcək.

Bu arzular heç vaxt bitməyəcək. Həmişə yaşayacaq, bu doğma yurdu – Azərbaycanı yaşadacaq Mahmud kimi. Mahmudlar kimi.

***Dekabr, 2020***



# MURAD

NADİR OĞLU
BABAYEV

**31.03.1982-27.09.2020**

**Ermənilәri bağışlaya bilmərəm**

Murad Nadir oğlu Babayev Əfqanıstan müharibəsinin şəhidi Nizami Məmmədov adına Sabirabad 1 saylı kənd tam orta məktəbində təhsil alıb. 1982-ci ildə Cəlilabadın Sabirabad kəndində 31 martda dünyaya gəlib.

31 mart... Doğum günündə sevinə bilməyib Murad. Bəlkə böyüdükcə 31 mart onun taleyini yazıb?

31 mart dəhşətini yaşayıb hər dəfə.

Biz xalq olaraq unutmağa meylliyik. Unuduruq.

Murad Nadir oğlu unuda bilməyib heç...

Unutmayıb. 12000-ə yaxın insanın vəhşicəsinə öldürüldüyü, on minlərin soraqsız qaldığı o dəhşətləri necə unuda bilərdi Azərbaycan Ordusunun baş giziri?

Bəlkə 100 ilin arxasından eşidib onların səsini?.. Ona görə hərbçi olmağa qərar verib?...

“Ermənilləri bağışlaya bilmərəm” deyib.

Murad Babayev 2002-ci ildə müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra doğma kəndində 3 ay qala bilir.

Xəqani Babayev: Əsgərlikdən sonra 3 ay qaldı evdə. Heç kəsə demədən orduya yazılmışdı. Sonra da hərbi xidmətə getdi, kurs oxudu. 17 ilin hərbçisidi. Müharibə olacağını eşidəndə Füzuliyə getdim 26 sentyabr gecəsi. Qardaşımın əvəzinə döyüşmək istəyirdim, onu qorumaq istəyirdim... Amma heç görüşə bilmədim. Qoruya bilmədim. Cəlilabadın ilk şəhidi oldu qardaşım... Vətən onun üçün birinci idi-bunu dəqiq bilirəm.

Nadir Babayev və Aruzə xanım 5 oğul böyüdüb. Ailənin böyük oğlu Xəyyam Babayev Birinci Vətən savaşında könüllü olaraq cəbhəyə gedib. 1993-cü ilin qazisi, ikinci qrup əlildir.

Böyük qardaşının müharibə haqda söhbətlərini dinləyən Murad ermənilərin xainliklərini bağışlaya bilməyib. Unutmayıb baş gizir 31 martda ermənilərin törətdiyi soyqırımı. Qarabağ acısının harayı da qarışıb bu acıya.

Hər gün savaşı gözləyib-İkinci Qarabağ Savaşını. Hərbçi dostları da bunu təsdiq etdi. Muradın peşəkarlığından, mərdliyindən çoxları danışdı. “Tankı elə bilirdi, elə sevirdi elə bil özü yığmışdı”.

17 illik hərbi xidmətində bilik-bacarığına, peşəkarlığına, intizamına, tapşırıqlara məsuliyyətlə yanaşmasına görə onlarla fəxri-fərmanla, yubiley, qüsursuz

xidmətə görə medalları ilə təltif olunub.

Ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azadlığına görə" medallarına layiq görülüb.

Aprel döyüşlərində, Lələtəpə yüksəkliyinin alınmasında da xüsusi xidmətləri olub Muradın.

2020-ci il sentyabrın 27-də ilk döyüşə qatılanların sırasında savaşıb. Ermənistan işğalında olan torpaqlarımızın azadlığı uğruna canından keçib.

Hərbçi dostu Valeh bəyin "elə bir oğul idi ki, ondan yazın" sözləri məni kövrəltdi. XTQ-in baş giziri Valeh Bəşir oğlu Aslanov: "Biz dost olmuşuq. 2001-ci ildən tanımışam onu. "Gizir hazırlığı kursu"nda bir yerdə oxumuşuq Muradla. Fərqli ixtisas seçimi etmişdik. O, tankçı olmaq istədi. Mən xüsusi təyinatlı. Murad kimi oğullarla bir yerdə bir ömür yaşamışam-hərbçi ömrü. Onların igidliyinin şahidi olmaqdan qürur duymuşam həmişə. Murad tək öz tankıyla bir batalyon kimi döyüşürdü. Tankçılar ölümlə üzbəüz görüşə gedir əslində. Əsil qəhrəmanlıq simvolu idi. Tankını vurublar. Tank yanıb, amma o döyüşüb. İlk gündən şəhid olmağa hazır idi.

Anası Aruzə xanımın söylədikləri: Təmkinli, astayerişli, astasəsliydi mənim balam. Diqqətli, ailəcanlı idi. Hərbiyə gedəndən hazırlayırdı bizi bu xəbərə. "Mənim hərbçi olduğumu unutmayın. İstənilən döyüşdə birinci olmalıyam, şəhid də ola bilərəm" – deyirdi arada. Hərbçi idi, həsrətini çəkirdim həmişə. İndi də həsrət qaldım balama. Vətənsevdalıydı oğlum...

Ailəsi ilə Füzulidə yaşayıb. Xanımı Xalidə Hümbə-

tova: 26-da gecə yola saldı bizi. Sübh çağı zəng elədi, 5-in yarısında. Sizi çox istəyirəm, bilirsən. Özünüzdən muğayat olun. Çox dəyərliydi. Diqqətliydi. Həmişə mənə Xal deyərdi... Əzizləyərdi...

Tank komandiri idi qəhrəmanımız.

Vətən savaşında tankçılarımız xüsusi şücaət göstərib. Tək düşmənin deyil, ölümün də üstünə gediblər. Qalib olublar.

Füzuli rayon Mahmudlu 2 kənd tam orta məktəbinin müəllimэsi, dövlətinin əsil vətəndaşlarından olan Narınc xanım Məmmədova da Muradı unutmur: Hamının sevimlisi idi Murad Babayev. Hər kəsin hörmətini qazanmışdı. Övladları bizim məktəbdə oxuyurdu. Nümunəvi şagirdlər idi. Ata kimi də çox məsuliyyətliydi. Vaxtı məhdud olsa da, tez-tez məktəbə gəlir, övladlarının dərsləriylə maraqlanır, dərslərində iştirak edirdi. İlk şəhidlər gələndə dözməyib məscidə getmişdim. O ilk şəhidlər-səddi yaranlar gözümün qarşısındadı. Tankçılar idi... Unutmaq olmur.

Əlbəttə, Narınc xanım, xalqının acısını, yüz illərin yanğısını içində daşıyan Muradları unuda bilmərik. Qəlbi, beyni, ağlı o qədər yanıb ki, yanan tankın istisini hiss etməyib. Sonacan döyüşüb...

Onları unuda bilməyəcəyik. İlk şəhidimizi də, son şəhidimizi də. Unuda bilmərik. Haqqımız yoxdu.

Onları unutmaq torpağı unutmaq deməkdir.

Torpağı, yurdu uğruna son nəfəsəcən yananları necə unutmaq olar?..

***Oktyabr, 2021***



# MİRZƏ

MUSA OĞLU
AXUNDOV

**15.03.1984–2.10.2020**

## BU YOLDA ŞƏHİD OLSAM DA

Mirzə Musa oğlu Axundov Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin miçmanı idi.

Lənkəranın Gəgiran kəndində 15 mart 1984-cü ildə dünyaya gəlib. Ailədə 5 övlad böyüyüb: 4 qardaş və bir bacı. 1991-2002-ci illərdə Gəkiran tam orta məktəbində təhsil alıb.

2002-2004-cü illərdə müddətli həqiqi hərbi xidmətdə olub. Xidmətini başa vurandan sonra müddətdən artıq hərbi xidmət üçün müraciət edib.

2004-2016-cı illərdə Azərbaycan Qüvvələrinin Zığ qəsəbəsində Hərbi Dəniz Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət edib, "dəniz pişikləri"indən biri olub. 2016-cü ildə ön xəttə – Ağdamda "N" saylı hərbi hissənin kəşfiyyat bölüyünə keçib.

Mirzə Axundov hərbi xidmət dövründə narahat olub hər an. Torpaqlarımızın düşmən əlində olması

ona bir hərbçi, bir vətəndaş kimi rahatlıq verməyib. Hərbçi dostlarının dediyinə görə Mirzə həmişə ön cəbhəyə can atıb. Müharibə olacağına, qələbəmizə də inanıb.

Savaşda öndə olmağı arzulayırmış.

Aprel döyüşlərində də Mirzə Axundov az igidlik göstərməyib, mərdliklə döyüşüb. Öz peşəkarlığı ilə həmişə fərqlənib Mirzə.

2019-cu ildə hərbi xidmət yeri Tərtər rayonuna dəyişdirilib.

Xidmət müddətində “Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi” (26.06.2008), “Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi” (26.06.2013), “Azərbaycan Ordusunun 100 illiyi”(2018) yubiley medalları, “Qüsursuz xidmətə görə” 3-cü və 2-ci dərəcəli medalları ilə təltif olunub.

Ölümündən sonra vətənə qüsursuz xidmət edən Mirzə Axundov “Suqovuşanın azad olunmasına görə”, “Laçının azad olunmasına görə”, “Vətən uğrunda” medallarına layiq görülüb.

Hal-hazırda təqaüddə olan XTQ-in baş giziri Valeh Aslanovla Astara şəhidi Ramin Əliyev haqqında yazı yazarkən tanış oldum.   Valeh Bəşir oğlu da 44 günlük müharibənin iğidlərindəndir. Bütün döyüşçülər, zabitlər şəhid olanlar haqqında ürəklə danışır, onların hamısını tanıtmaq istəyir. Müharibənin hər bir əsgəri onun üçün qəhrəmandı. Haqlıdır Valeh. “Laçının azad olunmasına görə”, “Suqovuşanın azad olunmasına görə”, “Cəsur döyüşçü” medallarına layiq

görülən Valeh Aslanov haqlıdır:

Suqovuşan uğrunda döyüşlər gedirdi. Demək olar ki, Suqovuşan azad edilmişdi. Mirzə elə igidliklə döyüşürdü, ifadə etməyə söz tapmıram. Düşmən minamyotları susmurdu. Sığınacağa keçməli olduq. Belə təhlükəli vaxtda da döyüşməkdən çəkinmirdi. O şəraitdə günorta vaxtı bizə yemək gətirdi. Özü yemədi. Nə qədər təkid etsək də, yeməyə oturmadı. "Nəsə sıxılıram, bir az havaya çıxım" – deyib sığınacaqdan çıxdı. Elə o döyüşdə də şəhid oldu.

Üç övladı var Mirzənin: Zərifə adlı qızı, Ağamusa və Ağasəlim adlı iki oğlu. Böyük oğlu Ağamusa atası kimi hərbçi olmağı arzulayır.

Xanımı Sübnaz: Həyat gözümdən düşüb Mirzəsiz. Uşaqlıqdan sevmişik bir-birimizi. 9-10 yaşımız vardı. Mirzə həmişə arxamca gəzirdi. Hara getsəm, orda olardı. Məktəbliykən nişanlandıq. O, hərbçi olmaq istədi. 2004-cü ildə ailə qurduq. Bizim sevgimiz illərin sınağından çıxdı. O qədər diqqətli, məsuliyyətli, sevgi dolu həyat yoldaşı, ata idi. Hər şeydən öncə mənim ən sadiq dostum idi. Uşaq vaxtından başlayan bu dostluq sonunacan davam etdi. Həmişə şən olardı, gülərüzlü idi, amma hər işində ciddiydi. Mənim, uşaqların ən kiçik bir istəyinə ciddi yanaşar, mütləq yerinə yetirərdi. 4 il idi döyüş bölgəsinə keçmişdi. Tez-tez mənə "evin kişisi" deyərdi. "Elə demə" deyirdim. "Bu evin yükünü sən daha çox daşıyırsan" – cavabı bu olurdu.

Axırıncı dəfə evə gələndə elə bil nəsə demək istəyirdi, mən imkan vermədim. Çox peşmanam buna

görə. Bircə bunu dedi ki, Sübhü, sən yaxşı anasan, sənə arxayınam. Bilirəm ki, mənə bir şey olsa, övladlarımızı ləyaqətli böyüdəcəksən. Kövrəldim... Müharibə olacağını bilirmiş, sonra anladım ki, bunu demək istəyirmiş. Hərbçi olduğundan evdə az olurdu, həmişə həsrətini çəkirdik. Ömürlük həsrətim oldu...

Mirzə Axundovun döyüş yoldaşlarını dinləyəndə gözündə bir qəhrəman da ucalır: Qayğıkeş ata, sədaqətli həyat yoldaşı olan əsil vətəndaş, əsil hərbçi. Torpaqlarımızın azadlığı uğruna canından keçməyə hazır olan daha bir oğul.

Hərbiyə bir məqsədlə getmişdi Mirzə: Taleyimdə şəhid olmaq olsa da, torpaqların azadlığı uğrunda mən də savaşmalıyam.

Belə amalla yaşayan igidlərimiz  qara siyahını tariximizdən silib, öz adlarını yazdılar.

***Oktyabr, 2021***



# SƏXAVƏT

RİZVAN OĞLU
ABBASOV

**25.04.2000 – 20.10.2020**

## 20 yaşlı könüllü

2000-ci il aprelin 25-də Xırdalan şəhərində dünyaya göz açıb. Müharibə başlayanda 20 yaşı vardı... 20 yaş... Sən hələ həyatı anlamağa başlayırsan. Arzuların xəyallara qarışdığından xəbərin yoxdu. Hələ nənən səni əzizləyir, ata-ana "uşağım" deyir. 20 yaş... Sən hələ ömrün ən gözəl çağında olduğunu bilmirsən. 20 yaş... Və sən torpaqlarının düşmən əlində olduğunu bilirsən. Bu səni rahat yatmağa qoymur. Sənin üçün xoşbəxtlik ərazi bütövlüyün, torpaqlarının azadlığıdır.

Səxavət Rizvan oğlu Abbasov belə düşünürdü. "Hərbi xidmətini çəkib gəlmisən, tək övladımsan, getmə, səni aparmayacaqlar" deyən anasına "Gizlənim belə gündə? Sonra necə yaşayım? Gedəcəyəm" demişdi inadla.

Səxavət fərqliydi. 2007-2018-ci illərdə təhsil

aldığı, məzunu olduğu Xırdalan şəhər 1 saylı tam orta məktəbin müəllimləri də, sinif yoldaşları da belə deyir: Şagird olandan fərqliydi, elə bil yaşı çoxdu. Yetkin insan kimiydi. Şən, zarafatcıl olsa da, hərəkətlərini, sözünü ölçüb–biçərdi, yersiz bir söz deməz, bir hərəkət etməzdi.

Tarix müəllimi Nübar Məhərrəmova: Universiteti təzə bitirmişdim məktəbə işləməyə gələndə. Səxavətin indiki yaşındaydım. Onda Səxavət 5-ci sinifdə oxuyurdu. Sonralar onun sinif rəhbəri oldum. Tarixi çox oxumasa da ona aşağı qiymət verə bilmirdim. O qədər mədəni, təmkinli, intizamlı idi. Hamıya qarşı beləydi. Bir dəfə də kobudluqluğunun şahidi olmadım. Bütün tədbirlərdə iştirak edərdi. Əslində məzunun haqda keçmiş zamanda danışmaq çətindi. Ağlıma gəlməzdi ki, bir gün onun yazdığı tarixi keçəcəm. Kədərlidi, amma zəfər tarixi yazdılar.

Yaşadığı küçə indi Səxavət Abbasovun adınadı.

Anası Maisə xanım Xırdalandakı 2 saylı uşaq baxçasında tərbiyəçi-müəllimdir: Fərqli dünyası vardı Səxavətin. O yaşda uşaqlar xarici müsiqilərə qulaq asır. Səxavət Rəşid Behbudova, Şövkət Məmmədovaya, Rübabə Muradovaya qulaq asırdı. Kursa getmişdi, özü də həvəsli idi, gitarada çalırdı. Mənim bütün dünyam idi Səxavət.

Müddətli hərbi xidmətini Tovuzda keçib. İkinci Qarabağ savaşı başlayanda artıq xidmətini başa vurmuşdu Səxavət. Kimsəni dinləmədən könüllü qatılıb savaşa. Apşeron rayon HK-nın həyətindən

evə gəlməyib.

– Yeganə övladımdı. Getməyə bilərdi. Anayam "Tək uşaqsan, sənsiz neyləyərəm?" sözümə də "ana, niyə narahat olursan? Müharibədi, haqq savaşıdı, bütün uşaqlar gedir. Oğlun da döyüşəcək. Bundan qürur duymalısan". 27-də onu aparmadılar. İlk şəhid gələndə özünə yer tapmadı. Hərbi komissarlığın həyətindən çıxmırdı, təkcə hərbi biletini götürmək üçün gəldi evə, otağa belə keçmədi." – dedi ana.

Səxavətin məktəb yoldaşlarının çoxu könüllü yazılmışdı cəbhəyə. Sentyabrın 29-da savaşa gedənlərin arasında idi. Yola düşəndə üzündəki sevinclə qalıb dost-tanışın yaddaşında. Döyüşlərdə də fərqlənib Səxavət. Düşmənin onlarla canlı qüvvəsini, texnikasını məhv edib. Təkcə mərdliklə döyüşməyib, neçə-neçə yaralını xilas edib.

Füzuli, Cəbrayıl, Hadrut, Xocavənd uğrunda mərdliklə döyüşüb Səxavət Abbasov. Sonuncu döyüşü Füzuli rayonu ərazisindəki Ərgünəş dağı ətrafında olub. Bu döyüşlərdə dostu Rəşad Mehdiyev yaralanır. Səxavət ona kömək etməyə çalışarkən minamyot qəlpəsindən ikisi də şəhid olur. Oktyabrın 20-də.

Yeganə övladını itirən ananı düşünürəm. Təsəlli vermək, necə yaşadığını soruşmaq istəyirəm. Amma necə soruşum? Fikrimdən keçənləri hiss edir: – Çox çətindi. Necə yaşayacığımı da bilmirdim heç. Qardaşım təcili yardımda işləyir. Bir gün bir qazidən, onun ağrılarından danışdı. "Elə yaxınları da yoxdu, cavan ailədi, bəlkə onlara baş çəkəsən"? – dedi. Getdim

onlara. Tanış oldum. Sonra başqa qazilərlə də əlaqə yaratdım. Arada görüşürük.

Novruz bayramında qara bayram eləmədim oğluma. Oğlum bütün xalqa bayram yaşadıb. Niyə qara olsun ki, bayramı? 8 xonça düzəltdim. Gücüm çatan nə varsa aldım. Şirniyyat bişirdim. Bayram günlərində qazilərimizin yanına getdim. Artıq doğmalaşmışıq.

Qazilərlə görüşməkdən təskinlik tapır Maisə xanım: Heç biri Səxavət olmasa da, hər biri Səxavətdi elə bil.

"Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

***Sentyabr, 2021***



# Hüseyn

OQTAY OĞLU TAĞIYEV

**08.08.1991-05.10.2020**

**Sözünə sadiq oldu**

Azərbaycan Silahlı Qüvvələrinin kiçik çavuşu Hüseyn Oqtay oğlu Tağıyev 1991- ci il avqustun 8-də Bakı şəhərində anadan olub.

1998-ci ildə 212 nömrəli məktəbin 1-ci sinfinə gedib. Ailə yaşayış yerini dəyişdiyindən Yasamal rayonunda Mikayıl Müşfiq adına 18 nömrəli tam orta məktəbdə təhsilinə davam edib. Maddi çətinlikləri olduğundan Hüseyn 9-cu sinfi bitirdikdən sonra işləyib, ailəsinə dəstək olub. 18 yaşında hərbi çağırışçı olan Hüseyn 2009-2010-cu illərdə Ağdamda "N" saylı hərbi hissədə həqiqi hərbi xidmətə yollanır. Müddətli hərbi xidmətdən qayıdan Hüseyn anasına, bacılarına kömək etmək üçün işləsə də, hərbçi olmaq istəyirdi.

Bacısı Könülün xatirələri: Anam bizi çox çətinliklə böyüdüb. Hüseyn tək qardaşım deyildi. Dayağımı, dostumu itirmişəm.  Çox zəhmətkeş idi. Sirr ortağım idi. Sonbeşik olsa da böyük kimi qayğımıza

qalırdı. Amma torpağını da çox sevirdi. Hərbini özü seçdi. Şəhid olmağa hazır idi. Aprel döyüşlərindən sonra elə "mən niyə şəhid olmadım" deyirdi. Bir dəfə "olarsan" dedim. Müharibə başlayanda da "şəhid olmadan gəlmə, şəhid bacısı olmaq istəyirəm mən də" dedim. Əslində şəhid olmağı çox arzuladığından bu sözlər dilimə gəldi... Şəhid olmağını istəmirdim... Arzusuna çatdı...

Arzusuna çatmaq üçün 2015-ci ildə müddətdən artıq hərbi xidmətə yollanır Hüseyn. Daxili Qoşunlarda Kəşfiyyat bölüyündə xidmət edir.

2016-cı il aprel döyüşlərində öz cəsarəti ilə fərqlənib qəhrəmanımız. Öz işinə məsuliyyəti, peşəkarlığı ilə nümunə olub. Hazırda təlimlərdə olan Əzimbala Həsənovun söylədiklərindən: Daxili Qoşunlarda, aprel döyüşlərində bir yerdə olmuşuq. Azərbaycanımızın ərazi bütövlüyü uğrunda vətən savaşına birgə getmişik. Çox mərd idi Hüseyn. Əsil vətənpərvər, iradəli döyüşçü idi. Tankın üstünə gedirdi qorxmadan. Yaralılara çox kömək edirdi. Neçəsini ölümdən qurtarıb. Deyirdi "yüz dəfə dünyaya gəlsəm, yüz dəfə torpaq üçün şəhid olaram". Şəhidlik onun üçün ali zirvə idi. O zirvədədi indi. Biz ondan çox aşağıdayıq.

2018-ci ildə Hüseynin xidmət müqaviləsi bitir. Səhhətində problemlər olduğundan tərxis olunur. Elə bu zaman da Ayşənlə tanış olur. 2019-cu ildə Ayşən xanımla ailə qurur: Mənim üçün sədaqətin, sevginin özü idi. Onu tanıyan hər kəs insanları sevərdi. Ən vacibi vətəni sevərdi. "Optimal Elektronik" MMC-

də işə başlamışdı. İşindən razı idi. Bizə çox dəstək olurdular, Hüseyn şəhid olandan sonra da Optimalın kollektivi çox dəstək olur, onlara təşəkkür edirəm. Amma hərbçi olmaq istəyirdi. “Müalicə almışam, sağlamam, hərbiyə qayıdıram” dedi. 2020-ci ildə yenidən müqavilə bağladı. Hərbçi kimi özünü daha xoşbəxt hiss edirdi. Mən də bir söz demədim.  7 rəqəmini müqəddəs bilirdi. Martın 7-də evlənmək təklif edib, 7 mayda nişanlandıq, iyunun 7-də evləndik. Elə oldu ki, 7 oktyabrda da dəfn olundu...

2020-ci il 28 martda qızımız dünyaya gəlib. Qızının ilk addımlarını görmədi. Nazlı indi yeriməyi öyrənir. Hərdən mənə elə gəlir ki, o əllərini açanda Hüseyn əlindən tutub yıxılmağa qoymur. Həmişə deyirdi ki, qızımız ilk dəfə “ata” deyəcək. Bəlkə inanmazsız, o şəhid olan gün “ata, ata”  deyib ağladı qızımız. Özüm də heyrət etdim. Demə şəhid olub...

Torpaqlarımızın azadlığı uğruna hər an canından keçməyə hazır olan, bütün əməliyyatlarda öndə gedən, cəsurluğu ilə döyüş yoldaşlarının güvənc yeri olan Hüseyn oktyabrın 5-də Füzulidə Alxanbəyli kəndi uğrunda döyüşlərdə qəhrəmanca şəhid olur.

“Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunub.

Hamı kimi idi. Həm də fərqli idi Hüseyn.  Arzuları bir-birinə qarışardı hamı kimi: gözəl mənzil sahibi olmaq, anasını sevindirmək, yoldaşına hədiyyə almaq, qızının ilk yaşını qeyd eləmək... Amma bir arzusu ayrı idi-müqəddəs idi: Vətənin ərazi bütövlüyünü görmək.

Savaşmaq gərəksə-savaşmaq. Ölmək gərəksə-ölmək.

İsmayıl Mehdiyev Hüseynin uşaqlıq dostudur: Hüseynlə birinci sinifdə birlikdə oxumuşuq. O yaşlardan dostluğumuz başladı. Dost yox, qardaş idik. Həqiqi hərbi xidmət keçəndən sonra qayıdıb işləsə də hərbçi olmaq istəyirdi. Həmişə "müharibə olsa, birinci gedəcəm" deyirdi. Müqəddəs arzudu vətən uğrunda şəhid olmaq. Şəhid olan günün gecəsi yuxuma gəlmişdi, sevinirdi, gülürdü. Soruşdum ki, niyə gülürsən ay Hüseyn? Dedi "sevinirəm". O gülüşlə qalıb yaddaşımda. Səhəri gün şəhid oldu. Mənə nəsib olmadı bu müqəddəslik...

"Döyüş başlamışdı. Ərazilərimiz azad olunurdu. "Bəlkə qızımın bir yaşını qeyd edə bilmədim, şəhid oldum, amma torpaqlarımızın azadlıq günlərini yaşayıram, qeyd edirəm" – deyib döyüş yoldaşlarına.

Hüseyn Tağıyevin xanımı söhbətimizdə dedi ki, hərbi geyimdə özünü çox xoşbəxt hiss edirdi. "Formasız yaşaya bilmərəm, ancaq torpaqlarımız azad olunanda çıxaracam hərbi formanı" – deyib sevimli xanımına.

Hüseynin dürüst, sədaqətli olduğunu vurğulayırdı dostları, doğmaları, xanımı. O dürüst oldu. Sözünə-vədinə sədaqətli oldu: hərbi geyimini torpaqlarımız azad olunanda çıxardı... Amma bizim yaddaşımızda Milli Ordumuzun kiçik çavuşu Hüseyn Oqtay oğlu Tağıyev özünün dediyi kimi "ona xüsusi yaraşıq verən" hərbçi geyimində sədaqətli, vətən sevdalı Vətən əsgəri kimi yaşayacaq.

***yanvar, 2022***

# ESSE VƏ HEKAYƏLƏR



# SİZƏ NARINC MƏMMƏDOVADAN DANIŞMAQ İSTƏYİRƏM

O Narıncdan ki, Füzuli rayon Mahmudlu 2 kənd məktəbinin müəllimidir.

Azərbaycan Dövlət Pedoqoji Universitetinin riyaziyyat fakültəsini bitirib. 1991-ci ildən öz kəndində Qeyrət İbişov adına məktəbdə müəllim işləməyə başlayıb. Ailə qurduqdan sonra bir müddət Rusiyada-Moskvada yaşasa da darda olan yurdun həsrəti onu rahat buraxmayıb. Yenidən öz elinə qayıdıb:

– Torpağıma çox bağlıyam. Azərbaycandan, bu kənddən uzaqda yaşaya bilmədim. İşimi də sevirəm. Öz kəndimin övladlarına dərs demək, onların savadlanmasına xidmət etmək istədim. Bundan böyük xoşbəxtlik yoxdur mənim üçün. Şagirdlərimi sevirəm, onların uğurları ilə sevinirəm.

Sizə Narınc Məmmədovadan danışıram.

O Narıncdan ki, 1965-ci ildə illərdi yaralı olan o

torpaqlarda dünyaya gəlib, böyüyüb və illərdi təhlükəylə iç-içə yaşayır. İllərdi güllə səsi eşidir. İllərdi əsgərlərimizlə birgə döyüşür, yaralanır, şəhid olur.

– Kəndimiz cəbhə xəttindədi. Işğal olmuş ərazilər bizdən sonra başlayır. Ermənilər atəşkəsi tez-tez pozur. Elə bilirsiz, ölümdən qorxuram? Qətiyyən. Oğlanlarım ali təhsillidi. İş də yoxdu. "Bakıya, Gəncəyə getsinlər" deyə məsləhət verənlər var. Gedənlər də çoxdu. Amma onlar getmir. Heç nə bir addım o yandakı torpaqlarımızın düşmən əlində olmasından ağır deyildi. Neçə dəfə böyük oğlum İrana keçib ordan torpaqlarımıza baxıb. İçimizdə həmişə bir ümid, bir inam olub. Elə bilirdim burdan getsək, o ümidi itirərik. On metrlik bir bayraq tikmişdim. Həmişə düşünürdüm ki, torpaqlar azad olunacaq və mən o bayrağı rayonlarımızdan, yüksəkliklərdən birində asacam. Müharibə başlayanda, nə qədər ağrılı olsa da, sevindik. Kişilər qalsa da, qadınlar çıxdı kənddən. Dörd qadın qalmışdıq. Güllələrin, təcili yardım maşınlarının səsi hələ qulaqlarımdadır. Bundan ağrılı səs yoxdu mənim üçün. Çox çətin idi.

O günlərdə Narınc xanıma ünvanlanan doğmaların, dostların səs yazılarını dinləyirəm. Hamısı narahatlığını bildirir, "bəlkə bir neçə günlüyə də olsa, kənddən çıxasan" deyirlər.

O isə gedə bilmir. "Şəhidlərimizi, yaralılarımızı, əsgərlərimizi qoyub gedə bilmərəm" deyir hər igidlə şəhid olan, yaralanan Narınc xanım.

– Təsəvvür edə bilməzsiniz necə çətin idi. Sent-

yabrın 27-də tezdən savaş başladı. Elə bil atışmalar kənddə idi. Evim əsas yola, məscidə yaxındı. Bir neçə saatdan sonra artıq ilk yaralıları, şəhidləri gətirirdilər. Hava qaralırdı. Dayana bilmədim. Məscidin həyətinə getdim. O mənzərəni görmək ölümdən betərdi. Bir müəllim üçün məzunlarının şəhid olduğunu görmək ikiqat ağrılıdı. Sevimli şagirdimi – Şahnuru da orda gördüm... Elə Füzulidə hərbi hissədə xidmət edirdi. Kapitan idi...

Sizə Kapitan Şahnur Hüseynovun döyüş yolunda rastladığım Narınc müəllimədən söhbət açıram.

O günlərdən danışan Narınc müəllimənin səsi də, sözləri də yamyaş idi. Oğlanları ilə daim əsgərlərimizin yanında olub Narınc xanım: Oğullarım müharibə başlayan kimi orduya yazıldılar könüllü. Aparmadılar. "Bura da cəbhə hesab olunur" dedilər. Yəni arxa cəbhə də önəmlidir. Hər gün onsuz da əsgərlərlə idilər, ehtiyaclarını öyrənirdilər. Yaralıları daşıyırdılar. Hər gün yemək bişirirdik, necə olsa, ev yeməyidi. Anayam həm də. Hər bir əsgər övladımdı elə bil. İstəyirdim ev yeməyi-ana yeməyi yesinlər.

Yenə səsi qırılır: Bəlkə hansısa sonuncu dəfə mənim bişirdiyim aşı yeyib...

Əsgərlərimizin Narınc müəlliməyə göndərdiyi görüntülərə baxıram, səslərini dinləyirəm. Təşəkkür edirlər, göndərdiyi yeməklərin ləzzətindən danışırlar. Narınc müəlliməsə Gəncədə uşaq evində böyüyən Əmrah Rəcəbovu xatırlayır: – Dedilər, Şəhidimiz var, kimsəsizdi, uşaq evində böyüyüb, bəlkə siz gələsiz...

Kimsəyə demədim, yəni icazə-filan almadım, şagirdlərimi götürdüm. Bayraqlarla getdik. Təkcə külü vardı... Ürəyim az qalırdı partlasın... Biz onun ailəsi olduq.

Gözünün seli hər şeyi yuyub aparır elə bil. Qələbənin şirinliyində necə acılar var. "Bütün analar onun anası oldu" sözlərimi eşitdimi? Heç vaxt bilməyəcəm. Özümü yığıb-yığışdıra bilmirdim. Əmrah kimi yandım, külə döndüm. Dəfələrlə "Sən hamımızın oğlu oldun" deyə pıçıldadım.

Əmrah Rəcəbov bütün Azərbaycanın qəhrəmanı olsa da Gəncədə böyümüşdü.  Gəncə öz Şəhid oğlunu layiqincə qarşılayıb, layiqincə yola salıb.

Neçə-neçə əmrahlar, şahnurlarsa Narınc xanımın yaddaşındadı. Qələbə möhtəşəmliyinə aparan ağrılı-acılı, qürurlu günlər yaşayıb, arxa cəbhədəki işinə görə fəxri-fərmanlar alıb:

– Hər saat, hər gün bir qəsəbə, bir kənd, bir rayon azad olunurdu. Əsgərlər bayraq istəyirdilər, azad olunan hər qarış torpağa bayraq  asmaq arzusundaydı hamısı. Özümüz tikdiyimiz  50-60 bayrağımız vardı məktəbdə, tədbirlərdə istifadə edirdik. Hamısını əsgərlərə verdim. O 10 metrlik bayrağı da...

Ürəyindən qopub gələn gözyaşlarını görürəm elə bil.

– Bilirsiz necə sözəgəlməz duyğular yaşayıram bayraqlara baxdıqca. Oğlum da  mümkün qədər azad olunmuş torpaqlara gedir. Doğma yerlərdə dalğalanan bayraqlarımızın videolarını  çəkir. Baxıb düşünürəm ki, onların arasında mənim bayraqlarım da var. O 10

metrlik bayraq da var. Bizim bayraqlarımızdı. Necə qürur duyuram...

Səsində doğma küləklərlə oxşanan bayraqların titrəyişini hiss edirəm Narınc xanımın. Ürəyim, gözüm, əllərim də əsir elə bil. İçimdə hayqırtı var:

– Qarabağı bayraqlarımız bəzəyir. Qarabağım... Bayrağım... Azərbaycanım...

Yuxu kimi gəlir hələ də. Ən möhtəşəm xəyalımın gerçək olma şirinliyinin dadını hiss edirəm .

Mənim bayrağım. Bizim bayraq. Azərbaycan bayrağı. Öz elinə, obasına qovuşan Bayrağım. Nə qədər qürurvericidi. İlahi bir sevincdi Narınc müəllimə.

Kaş bir gün Bayrağımız bütün torpaqlarımızda beləcə qürurla dalğalansın. Narınc xanımınsa gözləri yol çəkir kim üçünsə:

– Gözlərimi yolda qoyan bir xatirəm var. Məktəbdə əsgərləri yerləşdirmişdilər. Məktəbə getməli olduq. Orda bir əsgər yaxınlaşdı. Cibindən bir kağız çıxartdı. Məktəbdə rəsm sərgilərimiz olur. Xocalı soyqırımına həsr olunmuş sərgidən bir rəsmi götürmüşdü.

Bir şagirdimiz ürək çəkmişdi – bölünən ürək. Yarısı qara, yarısı qırmızı. Dedi ki, müəllimə torpaqlarımızı azad edəcəyik. Mən bu şəklin  qarasını qırmızıyla çəkəcəm, bu ürək bütövləşəcək gətirib yerinə asacam. İnanırsız, hələ də o əsgəri gözləyirəm... Təəssüf ki, adını bilmirəm. Bir ana övladını gözləyən kimi gözləyirəm... Sosial şəbəkədə bütün paylaşımlara, videolara baxıram. O əsgəri axtarıram. Bəlkə heç sağ deyil... Amma mən  gözləyirəm. Mən o əsgərə,

əsgərlərimizə inanırdım.

Fəxrlə tez-tez “Qapım Zəfər yoluna açılır və bu yol düz Şuşaya gedir” deyə təkrarlayan Narınc xanım, inanın! İnanın ki, O əsgər gələcək. O əsgərlər gələcək. Bir gün AZƏRBAYCANIMIZIN bütöv şəklini çəkəcək.

Bir gün qapılarımız İrəvana, Göyçəyə, Zəngəzura, Ərdəbilə, Təbrizə gedən Zəfər yoluna açılacaq. Bütün yollarımız Zəfərə açılacaq.

***İyun, 2021***



# RÜFƏT

ELDAR OĞLU ƏSƏDULLAYEV

**12.11.1994**

## BAŞ LEYTENANT

O hərbçidir. O, Azərbaycanın ərazi bütövlüyü uğruna savaşıb. O qazidir.

Savaşda yaralanıb. Canının yarısı zədə alıb: gözü, əli, ayağı...

Hospitaldan çıxanda evə dönüşünün videogörüntülərinə baxmışdım. Bütün əhali onu qarşılamağa çıxmışdı. Maşın karvanının sonu görünmürdü. Gözü, qolu sarıqlı idi. Ayağı yaralı olduğundan güclə addımlayırdı. Hamı adını çağırırdı, hamı "qəhrəmanımız" deyirdi. Çox kövrəlirəm qazilərimizin evə dönüşünü sərgiləyən video görüntülərə baxanda. Onları yaxından görmək, bağrıma basmaq istəyirəm. Ona da sarılmaq istəyirdim.

*İlk dəfə Astaranın Ərçivan kəndində igidliyi əfsanə olan kapitan Şahnur Hüseynovun xatirə bulağının*

*açılışına gedəndə gördüm onu. Boynuna sarıldım elə. O qədər məsum, yaraşıqlı, təvazökardı.*

"Xalqımın, torpağımın azadlığı uğruna savaşmışam. Elədiklərimi də qəhrəmanlıq saymıram" – deyir.

Bədəninin yarısı yaralı qəhrəmanım neçə aydı müalicə alır. Diqqət çəkməsə də bədənində qəlpələrlə gəzir. Hələ müalicəsi bitməsə də, "necəsən?" soranlara "Ürəyimin yarası sağalıb" deyir.

O, Milli Ordunun baş leytenantı Rüfət Eldar oğlu Əsədullayevdi: Uşaqlıqdan hərbçi olmaq istəyirdim. Məktəbi bitirəndən sonra Hərbi Akademiyaya getdim. Nə yaxşı ki hərbini seçdim. Torpaqlarımızın azadlığı uğrunda döyüşmək mənə də nəsib oldu. Bu hərbçi kimi deyil, vətən övladı kimi mənim borcumdu. Savaşda heç kim qəhrəmanlıq haqda düşünmür, amma qalib olmaq üçün döyüşür. Elə igid oğullar vardı...

1994-cü il noyabrın 12-də Astaranın Ərçivan qəsəbəsində dünyamıza gəlib. 2000-2011-ci illərdə Natiq Kərimov adına 3 saylı tam orta məktəbdə təhsil alıb. 4 il Heydər Əliyev adına Azərbaycan Ali Hərbi məktəbinin kursantı olub. Yerüstü artilleriya ixtisası üzrə bitirib hərbi məktəbi. 2015-ci ildə leytenant hərbi rütbəsi ilə Ağcəbədi rayonu N saylı hissədə xidmətə başlayıb.

2016-cı il aprel döyüşlərinin iştirakçısıdır qəhrəmanım.

2018-ci ildə baş leytenant hərbi rütbəsi ilə hərbi xidmətinə davam edib.

İkinci savaşın ilk günündən igidliyi ilə seçilib. Ən

çətin tapşırıqları, əməliyyatları yerinə yetirib. Cəbrayıl uğrunda döyüşlərdə ağır yaralanıb hədsiz cəsurluğu ilə hamının sevimlisi olan Rüfət Əsədullayev. Tank əleyhinə bölüyün komandiri düşmən tankını birinci özü vurub. Bunları demir.

Özü haqqında çox danışmağı sevmir: Nə deyim ki? Hərbçi olmaq arzum olub. Həmişə müharibə olacağını, döyüşəcəyimi, ermənilərdən qisas alacağımı, torpaqlarımızı azad edəcəyimizi düşünürdüm. İstəklərim yerinə yetdi. Təəssüf edirəm ki, yaralandım, sona qədər döyüşə bilmədim. Məni Hünər adlı gizirimiz xilas etdi. Elə oğuldu ki, Hünər. Bir düşmən texnikasını gözdən qaçırmazdı.

2015-ci ildən müddətdən artıq hərbi xidmətə başlayan gizir Hünər Məmmədov haqqında öyrəndiklərim heyrətə salır: təkcə Cəbrayıl uğrunda döyüşlərdə düşmənin onlarla tankını sıradan çıxarıb Hünər. Bəzən deyirlər "adam adına oxşayır", elə bil Hünər üçün deyilib. Hünəri ilə ad qazanıb Hünər. "Ona baxanda bütün həyəcanın yoxa çıxırdı. Çox hünərlidi adı kimi" dedilər döyüş yoldaşları. Hünərin həyəcanı isə hələ yoxa çıxmayıb. Hünərin dedikləri: Qələbəyə inanırdıq. Qələbəmizdən qürur duyuram. Amma o günlərdən danışmaq çətindi. Döyüş yoldaşlarının şəhid olduğunu görmək çox ağır idi. Unuda bilmirəm. Birlikdə döyüşə gedirdik: kimi şəhid oldu, kimi yaralandı, kimi sağ qaldı...Amma hamı qəhrəman idi. Onların mərdliyi hesabına qələbə qazandıq. Rüfət kimi oğulların varlığıdı qələbə. Onunla 2016-cı ildən tanı-

şam. Müxtəlif təlimlərdə, kurslarda birlikdə olmuşuq. 2017-ci ilin sonlarında yeni yaradılmış TƏİRK bölməsində xidmətə davam etmək üçün xüsusi kurslarda da birlikdə olduq. Çox savadlı, peşəkar zabitdi Rüfət. Kursu ən yaxşı nəticə ilə bitirdiyi üçün bölməyə batareya komandiri təyin olundu. Bilmədiklərimi ondan öyrənmişəm həmişə. 2020-ci ildə düşmənin fəallığı artmışdı. Bizə baş verə biləcək təxribatların qarşısını almaq tapşırığı verilmişdi. Öz işimizi layiqincə yerinə yetirirdik. Burda da Rüfətin peşəkarlığı xüsusi rol oynayırdı. Tovuz hadisələrindən sonra səbrimiz tükəndi. Hər an əmr gözləyirdik. Belə davam edə bilməzdi. Genişmiqyaslı hücum əmri alanda Rüfət bizi topladı, “Gözlədiyimiz gün gəlib çatdı. Biz torpaqlarımızı azad etmək xoşbəxtliyini yaşayacağıq. Həmin gün bu gündür” dedi. Cəbrayıl-Füzuli istiqamətində döyüşlər başladı. Daha az itkiylə daha çox düşməni məhv etmək üçün bölünüb müxtəlif istiqamətlərdən hücuma keçirdik. Oktyabrın 7-də mənim heyətimin vəziyyəti gərgin idi. Gördüm Rüfət köməyə gəlib. Necə sevindim. O yanımda olanda daha inamlı olurdum. Vəziyyət gözlədiyimizdən çətin idi: düşmənin xeyli hərbi texnikası, canlı qüvvəsi ilə üz-üzə idik. Bu zaman da Rüfət ağlasığmaz igidlik göstərdi. Sağ qalanları başına toplayıb hücuma keçdi. Düşmənin diqqətini öz üzərinə çəkərək tank eleyhinə qurğunu hazırlamaq üçün mənə vaxt qazandırdı. Düşmənin 4 tankını vurdum. XTQ-də köməyə gəldi. Düşmən artıq qaçmağa üz qoymuşdu. Gözlərimə inanmır-

dım, texnikanı qoyub qaçırdılar. Birdən kimsə dedi ki, ağır yaralı var, çıxarmaq lazımdı. Gedib gördüm ki, Rüfətdi. Qan içindəydi. Nə hala düşdüm... İlk tibbi yardım göstərdim. Artıq huşu gedirdi. Onu təcili yardım maşınına çatdırana qədər vurur, silkələyir, hey çağırırdım: Kombat... Kombat... Həkim yaşayacağına inandırdı məni. Özüm də yaralanmışdım. Tibbi yardımdan sonra yenidən döyüşə qayıtdım. Yaralı olmalarına baxmayaraq döyüşənlər çox idi. Düşmən məntəqələrini məhv etdik.

Beləcə öz kombatını xilas edir Hünər Məmmədov.

Bu döyüşdə Rüfət Əsədullayev rəhbərlik etdiyi 15 nəfərlik heyətlə düşmənin 10-dan artıq tankını, hərbi texnikasını, yüzdən artıq canlı qüvvəsini məhv edir. Hünərin dediyi kimi "düşmən qaçmağa məcbur olur". İkinci Qarabağ savaşında şəhid olan Milli Qəhrəman polkovnik Şükür Həmidov bu döyüşə nəzarət edirdi. Şükürbəyli istiqamətində hücuma hazırlaşan düşmən tanklarının və canlı qüvvələrinin qarşısının alınması tapşırığını verir cənab polkovnik. İgidlərimiz bu tapşırığı ləyaqətlə yerinə yetirirlər.

"Bu döyüş çox həlledici idi. Düşmən hücumunun qarşısını ala bilməsəydik, azad etdiyimiz əraziləri yenidən itirə bilərdik. Bu isə elə bizim üçün ölümə bərabər idi" – dedi Hünər.

Bir neçə günlük döyüş haqqında danışdı Hünər. Belə oğulları necə bağrına basmayasan? Onlara baxdıqca ən gözəl sözləri demək istəyirsən. Amma cə-

surluqları, vətən sevgiləri qarşısında sözlər bəs etmir. Sənsə sadəcə bir yazı yazırsan. Onları tanıtmaq istəyirsən. Amma xalq, bu torpaq onu qoruyan, sevən oğullarını tanıyır.

Yaralı Rüfət evə dönərkən yüzlərlə insan "Rüfət, Rüfət" deyib hay salmışdı. Bu sədalar vətən göylərinə yayılırdı. Və yayılacaq. Ulduzlar da eşidirdi bu adı. Və eşidəcək.

Biz Rüfətlərin, Hünərlərin adını nəsil-nəsil eşidəcəyik.

Rüfət Əsədullayev "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları, "Cəbrayılın azad olunmasına görə" medalı və "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur.

***Noyabr, 2021***



## ƏFSANƏVİ
# PƏRVİN
AMİN OĞLU
İMANOV

**16.06.1991**

Pərvin Amin oğlu İmanov haqda danışmaq istəyirəm.

Vətən, torpaq, yurd deyəndə hamı yada düşmür. Onu yaşadanları düşünürsən. Əsrlərlə başı bəlalar çəkən Azərbaycanı əsrlərlə yaşadanları – canını fəda edənləri düşünürsən. İkinci Qarabağ savaşının şəhidlərini, döyüşçülərini, qazilərini düşünürsən.

1991-ci il iyunun 16-da Tərtər rayonunun Seydimli kəndində dünyaya gələn Pərvin kimi oğulları düşünürsən. Orta təhsilinə də Seydimli kənd 1 saylı məktəbdə başlayıb. Ailə Sumqayıta köçdüyündən təhsilinə Sumqayıt şəhər Zülfü Hacıyev adına 17 saylı tam orta məktəbdə davam edib. 2008-ci ilin məzunudur.

2010-cu ildə həqiqi hərbi xidmətə çağırılıb. Füzulidə 706 nömrəli hərbi hissədə müddətli hərbi xidmət keçib. Və sonrakı ömrünü hərbiyə bağlayıb. 2012-ci ilin yanvarında Azərbaycan Silahlı Qüvvələ-

rinin Təlim Tədris Mərkəzində çavuş kursunda oxuyub. Kursu bitirdikdən sonra 2012-ci ilin aprelində Abşeron rayonunun Perekeşkül qəsəbəsindəki 877 saylı hərbi hissədə kəşfiyyat manqa komandiri vəzifəsinə təyin olunub. 2013-cü ilin dekabrında isə XTQ-də kurs keçmək üçün 052 saylı hərbi hissəyə ezam olunub. Sonra "Gizir hazırlığı" kursunu bitirib.

2014-cü ilin iyun ayından 052 saylı hərbi hissədə xüsusi əməliyyat taborunun xüsusi əməliyyat qrupunun kəşfiyyatçısı olur gizir Pərvin İmanov. 2013-cü ildə həm də Bolqarıstanda Amerika dəniz piyadaları ilə kəşfiyyat təlimlərində iştirak edir. 2015-ci ildə isə Xüsusi təyinatlı Xarici təşkilat ilə Xüsusi təyinatlı qrup kursunu, 2018-ci ildə Türkiyə Özəl Qüvvələrinin antiterror kursunu bitirir.

Bu Pərvin Amin oğlunun öz peşəkarlığını artırmaq üçün etdikləridi. Seçdiyi peşənin bütün sirlərini öyrənir yorulmadan. Pərvin bir gün torpaqlarımız uğruna azadlıq savaşının olacağına inanır və bu günü gözləyirdi. Qələbə üçün savadlı kadrların necə gərəkli olduğunu bilirdi. O, hər gün peşəkarlığını artırmağa çalışıb. Bu Pərvinin təkcə seçdiyi peşəyə məsuliyyəti, sevgisi deyil, bir vətən oğlunun öz dövləti qarşısındakı məsuliyyəti, öz yurduna olan sevgisidi.

2020-ci ilin sentyabrında başlayan Vətən savaşında da öndə idi Pərvin. Həmişə birinci olmaq istəyib.

Kəlbəcər, Füzuli, Cəbrayıl, Xocavənd, Hadrut, Horadiz uğrunda döyüşlərdən keçib qəhrəmanım. Döyüş yoldaşları ilə birgə hər qayaya, hər daşa igid-

lik dastanı yazıb. Döyüşə Kəlbəcərdən Murov dağ silsiləsindən başlayıb. 3 gün davam edən döyüşdə qələbə qazanıb ərənlərimiz.

– Həlledici döyüşlərdən biri Horadiz əməliyyatı idi. 7-8 saat aramsız atışma oldu. Bu döyüşlərdə komandirimiz, həm də əməliyyat zabiti kapitan Elçin Mübariz oğlu İsmayılov yanımda şəhid oldu. Bizə dəstək üçün gələn tankları yönləndirirdi. Snayperlə vurdular. Çox dəyərli zabit idi. Devran Naibov, Abdullayev Şəhriyar kimi oğullar şəhid oldu... Kimi deyim? Ən ağrılısı döyüş yoldaşlarını itirməkdi. Torpaqlarının düşmən əlində olması isə daha ağırdı. Hər birimiz şəhid olmağa hazır idik. Ali məqsədimiz vardı: düşməni torpaqlarımızdan çıxarmaq. 7 gün Hadrut uğruna döyüşdük. 1400 yüksəkliyi uğruna 4 gün mühasirədə qaldıq. Bitkilərlə qidalanıb, şehləri su əvəzi içdik. Amma qalib olduq. Mühasirədən çıxdıq və düşməni məhv elədik. – Pərvin döyüş xatirələrini bölüşür.

Elşən Novruzəli oğlu Əliyev hazırda hərbi xidmətdədi. XTQ-in seçilən kəşfiyyatçılarından biridir: 2014-cü ildən Pərvinlə bir yerdəyik. Bütün post tapşırıqlarda birlikdə olmuşuq. Hücum qruplarında olmuşuq əsasən. 2016-cı ilin aprel döyüşlərində də birlikdə idik. İkinci Qarabağ savaşına da birlikdə qatıldıq. Pərvinin bacarıqlı, peşəkar, savadlı bir hərbçi olduğunun illərdi şahidiyəm. O qədər qorxmaz və igiddi. Həmişə öndədi, həmişə birincidi. Öz üzərində həmişə çalışıb. Hər an döyüşə hazır hərbçidir. Onun

peşəkarlığı hamımıza kömək olub. Verdiyi düzgün qərarlardan çox yararlanmışıq.

Bir neçə dəfə yaralansa da döyüşdən çıxmayıb, Vətəni qorumaqdan bir an belə vaz keçməyib Pərvin.

4 gün 1400 yüksəkliyinin alınması uğrunda fasiləsiz döyüşdən sonra Füzulidə yuxarı Yağləvənd istiqamətində hücum zamanı mərmi atəşinə məruz qalır döyüşçülərimiz. Bu zaman Pərvin də ağır yaralanır. Kəllə-beyin travması alan Pərvin Füzuli Mərkəzi klinik xəstəxanasına təxliyyə olunur. Komaya düşür igidimiz. Vəziyyəti ağır olduğundan Gəncəyə, daha sonra Bakıya hərbi hospitala köçürülür.

Hal-hazırda səhhətiylə bağlı ehtiyatdadı Pərvin İmanov.

Kəlbəcər, Füzuli, Cəbrayıl, Xocavəndin azadlığına görə, "Şücaətə görə" medalları və "Bayraq ordeni" ilə təltif olunub.

Onun işinə məsuliyyəti, vətən sevgisi, cəsurluğu barədə döyüş yoldaşları çox danışdı. Özü isə deyir: Bu tək mənim qələbəm deyil ki? Müharibədə həmrəylik, birlik olmasa, qalib olmaq olmaz. Qələbənin başlıca səbəblərindən biri də nizam-intizamdır. Bütün əsgərlərimiz cəngavər kimi döyüşürdülər. Biz öz borcumuzu yerinə yetirirdik.

Müharibənin taleyini həll edən Horadiz əməliyyatında da baş kəşfiyyatçı kimi fərqlənir XTQ-in giziri Pərvin İmanov. Və düşmən tamamilə məhv edilir bu əməliyyatda. Bu qələbə Cəbrayıl istiqamətində döyüşən əsgərlərimizin mühasirəyə düşmə-

sinin də qarşısını alır. Sübhdən başlayan döyüş zamanı aramsız 8 saata yaxın atışma qələbə ilə bitir. Bundan sonra Hadrut əməliyyatı və yenə qələbə. İgidlərimiz hamısı eyni sözü deyirdi: Erməniləri döyüş meydanından qaçmağa məcbur etmək üçün vuruşurduq. 30 ilin həsrətinə, ağrılarına son qoymaq üçün-Qələbə üçün vuruşurduq.

Pərvin danışır, döyüş yoldaşları danışır, sən isə qulaq asırsan. Bütün ruhunla dinləyirsən onları. "Əfsanə Pərvin"deyilən qəhrəmanımın döyüş yoldaşları ilə yazdığı əfsanə kimi görünən həqiqətləri təsəvvür etməyə çalışırsan. Onları bağrına basmaq, yaralarına məlhəm olmaq, əllərindən öpmək istəyirsən. Yüz dəfə, min dəfə təşəkkür etmək istəyirsən. Elə bil ürəyini oxuyur, baxışlarını anlayır.

"Biz təşəkkür üçün döyüşməmişik. Biz ləyaqətimiz, məğrur duruşumuz üçün vuruşmuşuq. Azərbaycanımız üçün vuruşmuşuq. Əsil vətən oğlunun, əsil hərbçinin heç bir umacağı olmur kimsədən. Yalnız vicdanı, sevgisi, borcu olur.

Sənsə yenə düşünürsən: Bəs biz borcumuzu necə verək?

***Yanvar, 2022***

## BU NECƏ PAYIZDI

İllərdi beləsini yaşamadıq. Yaz havalı payızımız olmadı. Payız nədir ki...heç yazımız yaz deyildi, ağrıdan başqa havası olmadı bu torpağın. Çiçəklərin kədərdən başqa rəngi olmadı. Yüz illərdi... yayı, yazı, qışı, payızı bir-birinə qarışıb bu yurdun. Yüz illərdi yağış yağır bura. Ürəyimizə qar yağır, duyğularımız donur.

Sosial şəbəkədə görüntüləri paylaşılan Məbudu xatırlayıram. Yaralıdı. Həkim sarğılarını dəyişir. O isə oxuyur: Anadır arzulara həər zaaman Qarabaaağ..

İllərdi "Bir az bənövşə kimi kol dibində qalmışam. Bir az İrəvan kimi boynubükük olmuşam". "İtən bir iz kimiyəm, axtarıb tapmaq olmur. Bir az Təbriz kimiyəm, gedirsən, çatmaq olmur".

Bir də Xocalı kimi yanmaq var...

Konservatoriyanın məzunu yaralı Məbudsa oxuyur: "Danışan dil-dodağım tar-kaman Qarabağ...

Dünyanın ən gözəl yaralısı...

Vətən yaralarını sarıyan Məbudun yaralarını sarıyan həkim "oğulsan, halaldı, öpdüm səni" deyib onu əzizləyir.

Nə vaxtdı ürəyi kimi yolları da çat-çat olan torpaq üçün oxuyur. Səsində qürur yaşadan inam var.

İllər ümidsizlikdən asılmışdı sadəcə. İnam yox idi. Niyə? Bu niyənin cavabı uğruna nə qədər şəhid verib bu torpaq. Şəhidlərim bu torpağa canından can

verib – vətəni yaşadıb. Yaralarına qanını məlhəm edə-edə yaşadıb.

İllərdi ruhları narahat Şəhidlərim sevindilər. Rahatlıq tapdılar. Qürur dolu ağrılı göz yaşları ilə yola saldığımız şəhidlərimizə sarıldılar. Elə bilirəm hamısı gülümsəyir. Yenidən doğulur. Siz Vətən qarşısında borcunuzdan çıxdınız. Biz isə nəsil-nəsil sizə borclu qalacayıq.

İgidlərim! Müzəffərlərim! Bu torpağa bütövlük yaşadanlarım. Tariximə zəfər yazanlarım.

Nə desək azdı, nə etsək az. Sözə, gözə, ürəyə sığmayanlarım. Vətəni azad etmək üçün canını qurban edənlərim. Vətən görsün deyə gözlərini verənlərim. Bu gecə də sizi düşünürdüm hər kəs kimi. Vətənin ayaqlarını sağaltmaq üçün ayaqlarını verən polad kimi Poladları, qollarına qolunu fəda edən Sahilləri, ürəyinin qəlpələrini ürəyinə yığan Elçinləri, əsir Bayramları, Aminləri, itkinləri... Bunu yaşamaq ağırdır. Çox ağırdır. Ürək istər, baş istər. Bütün bunları yaşamaq mümkünsüz... Bu ağrının içində bir həqiqətə sığınırsan: "Qarabağ Azərbaycandır".

Qəfil yağan yağışın səsi gəldi. Yağış da oxuyurdu elə bil Məbud kimi: "Qarabağ can Qarabağ, Qarabağ... Qarabağ..."

Bu səslər qarışığında bu gün hamımızın özlədiyi səsi eşidirdim: "Qarabağ Azərbaycandır və Nida!"

İllərlə həsrət qaldığımız qələbə yazan Ali Baş Komandan.

Cənab prezident İlham Əliyev! O qalxan yum-

ruğunuz bizə yumruq olmağın böyüklüyünü yaşatdı və yaşadır. Çox paralanıb, çox yaralanıb bu torpaq. Tarixin illər səhifələrində elə acılar var ki!.. Amma bu gün hər dəfə "Yaşasın Azərbaycan Ordusu" dediyiniz igidlərlə yazdığınız səhifələr olmayıb. Bizə möcüzə yaşatdınız. Qürur yaşatdınız.

İrəvan dərdli ürəyimizdə Təbriz, Sulduz, Ərdəbil yanğılı "Biz verdik Şuşanı, Ağdamı... Biz verdik Qarabağı" günahı vardı.

Həmişə məğlub kimi görünmək acısı, utancı ilə yaşamaq yaşamaq deyil ki...

Nə qədər torpaq itirmişik.. Ali Baş Komandan! Möcüzə yaratdınız. Tariximizdə olmayan möcüzə. Ölən inama can verdiniz. Qalibiyyət səhifələri yazdınız.

Heç belə payız yaşamadıq. Yaz havalı, Qələbə ətirli payız.

Hər qarışla, hər kəndlə yenidən doğulur şəhidlərimiz.

Hər şəhidlə bütövləşir Azərbaycan.

Nə deyim? İnanmırdım. Bu günləri görəcəyimə inanmırdım. O qara siyahı qara günümə dönmüşdü. Daha şagird gündəliklərində o qara tarixlər olmayacaq.

Zəfər, necə möhtəşəmsən!

Bayram günlərimiz var indi – həsrət qaldığımız qələbə günləri!

Dünyanın ən gözəl şəhidinin nurlu simasından Vətənə nur səpilir. İllər boyu hər daşda, hər qarışda,

güldə, hər ürəkdə səslənəcək Xudayarın “Şair, sorma nədən Vətən yaxşıdı” səsinə qarışırdı dünyanın ən gözəl yaralısının səsi: Ana yurdum, ana yurdum, ana yurdum...

Ana yurdum – Azərbaycan! İlahi, necə gözəldi belə demək. Necə gözəldi!

Xoşbəxtliyin necə olduğunu bildim. Xoşbəxtliyi gördüm. Demə belə olurmuş.

İlahi, nə gözəldi Vətəni bütöv olmaq, ona can vermək, Onu bütöv sevmək. Bayraq olub Xankəndində dalğalanmaq istəyirəm. Hayqırmaq, pıçıldamaq istəyirəm:

Sən uğruna öləcəyim,
sən uğruna yaşadığım varlığımsan,
Ana Vətən! Səni bütöv sevirəm mən.
İlk sevgilim deyilsən sən, SON SEVGİMSƏN!

***Noyabr, 2020***

# AĞ BAYRAQ

Qız ağır günlərdə anadan olmuşdu: ölüm, göz yaşıydı hər tərəf. Güllənin nə olduğunu bilməsə də, baxışları güllə səslərinin arxasınca yollanardı həmişə. Müharibənin nə olduğunu da anlamırdı hələ. Anlayanda nifrət edəcəkdi bütün müharibələrə. Ata-anasını az görən, onların qucağına, qayğısına, istisinə həsrət bir körpə ömrü yaşayırdı sadəcə. Ata döyüşürdü hamı kimi. Ananın görmədiyi iş yox idi: səngərdə olur, yaralılara qulluq edir, əsgərlərin paltarlarını yuyur, həyət-bacaya, heyvana baxır, uşaqların yeməyinə, pal-paltarına əl yetirir, dərslərinə nəzarət edir və sair və ilaxır... Kəndin bütün qadınları kimi. Hava, su, ağaclar, daşlar, gül-çiçək,... hər şey, hər şey ağır idi. Yaşamaq ağır idi. Hamı ağır idi. Yaşlılar, gənclər, yeniyetmələr, uşaqlar – hamı eyni yaşda, hamı qoca idi. Körpələr daha çox ağlayır, öz-özlərinə qığıldayırdılar, güldürən yox idi onları; ya özləri gülmürdülər, heç kəs fərqində deyildi. Nə şikayət edən, nə də şikayət etməyə vaxt var idi. Səbir vardı – ümid, inam dolu.

Qızın qardaşı tez-tez səngərlərə – döyüşçülərin yanına qaçardı. Atası qardaşı danlayar: “Sən dərslərini oxumalısan deyərdi. Qızın qardaşı isə deyinərdi: “Nə oxumaq... Torpaqlarımızı alaq, sonra oxuyaram da...” Amma atası bu sözləri eşitmirdi. Bunları oğlan eşidirdi. O, təkcə oğlanın yanında danışar, ürəyinin sözünü deyərdi: – Onsuz da çıxıb gedəcəm.

Hələ olanları dərk etməyən, amma üzünə, baxışlarına havanın, suyun, dağın-daşın, ağacların,.. ağırlığı düşmüş oğlan soruşardı:

– Hara?

– Uzaqlara. Bizim kənddən uzaqlara, döyüşməyə. Elə yerə ki, atam məni tapmasın, – deyə qızın qardaşı böyük, lap böyük kişilər kimi cavab verərdi.

– Məni də özünlə apararsan.

– Yox, səni apara bilmərəm. Balacasan, – deyib oğlanın yaşla (yaşa) dolmuş gözlərinə baxar, səsi titrəyərdi – Axı sən burda lazımsan. Atalarımız döyüşür, analarımız bütün günü işləyirlər. Sizin həyət, bizim həyət, bunlara baxan bir kişi lazımdı, ya yox? Hələ bacım, onu sənə tapşırıram. Onsuz da sən baxırsan ona. Dərslərini də oxu. Yaxşı oxu. Kitabları əlindən yerə qoyma... mən oxumadım. Savadlı adam güclü olur. Bacımın da dərslərinə baxarsan. İstəyirəm həkim olsun, – deyən qardaşın gözləri yol çəkərdi.

Bir dəfə oğlan kədərli halda qardaşdan soruşdu:
– Sən gec qayıdacaqsan ki?

Bu dərdli səsə gülümsəyib “Yox... torpaqlarımızı alan kimi” – cavabını verdi.

Axı qız kiçik idi. Məktəbə getməyinə çox qalırdı. “Deməli, gec qayıdacaq” – deyə düşündü... Bu söhbətdən sonra oğlanın gözləri bir az da qocaldı, səsi, yerişi, duruşu bir az da ağırlaşdı. Bunun səbəbi təkcə qızın qardaşının gec qayıtmağı deyildi, onun bütün varlığına sarılan mahiyyətini tam dərk etmədiyi mü-

haribənin gec qurtaracağı idi. Deməli, neçə il atasını lap az görəcək, bütün günü anası üçün darıxacaq, dostları ilə rahat oynaya bilməyəcək, məktəbə rahat getməyəcək. Tez-tez zirzəmilərə doluşacaqlar, kimlərsə şikəst olacaq, kimlərsə öləcək, kimlərsə hay salıb, kimlərsə sakitcə ağlayacaq. Ümumiyyətlə, hələ neçə il oğlana elə gələcək ki, böyüklər hamısı ağlayır...

Qızın qardaşı isə sözünü tutdu, bir müddətdən sonra getdi... Amma tez qayıtdı. Əsgər paltarında, sakitcə uzanmışdı, elə gözəl, elə yaraşıqlı, elə gənc... Hamı yığışmışdı ətrafına. Döyüşçülərdən biri pıçıldadı: “Elə cəsur, elə ürəkli idi...”

Ana inildədi: – Nə yaman tələsdin, oğul...

Oğlan ataya baxırdı. Ata göz yaşına oxşayırdı – hamı kimi... Heç kəs özünə oxşamırdı. Özünə oxşamamaq necə müdhişdi. Qızcığazı düşündü. Gözünə dəymədi. Birdən qardaşının yanında peyda oldu. Kiçik əlləri ilə onun əlindən tutdu. Elə bir sükut oldu ki, elə bil dünyanın dili tutuldu. Bir əli ilə qardaşının saçını tumarladı. Sükut pozuldu... Dünya ağlayırdı... qardaşın əli islandı. Qızcığaza elə gəldi ki, qardaşı əlini sıxdı. “Darıxmışdım” dedi. Birdən kimsə ayıldı, qızcığazı qucağına götürdü, sinəsinə sıxdı. O hıçqırdı:

– Qaqaş niyə uzanıb, tərpənmir? Ölüb? Bapbalaca qızın “Ölüb?” sualı heç kəsi təəccübləndirmədi. Bircə oğlan düşündü: Nədi ölüm? Yəni səni torpağa qoyacaqlar. Yəqin, çox ağrıyanda belə olur. Axı adam ağrıyanda anası onu qucağına alır, ovundu-

rur. O saat ağrıların azalır, sonra keçib gedir. Ana qucağından rahat, isti, güvəncli yer varmı, görəsən? Yəqin, torpaqdı, ona görə də ona ANA deyirik. ANA torpaq. Torpaq bizi qucağına alır. Ana kimi”. Oğlan düşünürdü. Yenə ataya baxdı, baxdı... Atanın başına elə bil ağ papaq qoymuşdular. Ətrafdakılara baxdı. Heç kəs heyrətlənmirdi. Müharibədə heyrət ölür.

Bir neçə il ötdü. Qızcığaz məktəbə gedirdi. Hamının başı yenə qarışıq idi. Nisbətən sakitlik olsa da, müharibə bitməmişdi. Oğlan qızcığazdan ayrılmırdı. Qız tez-tez soruşardı:

– Sən mənim qardaşımsan?

Həmişə də eyni cavabı eşidərdi:

– Yox... Hə...

Heç biri anlamasa da, bu qeyri-müəyyən cavab ikisini də qane edirdi.

Tez-tez kəndin ətrafındakı meyvə bağlarına gedərdilər. Ancaq bir tərəfində gəzərdilər. Az qala bağların ortasından uzunuzadı səngər qazılmışdı. Həmişə səngərlərdə əsgərlər olardı. Bir gün qızcığaz soruşdu:

– Niyə biz o tərəfə getmirik? Axı ora da bizim kəndimizdi.

– Çünki indi orda düşmənlər var.

– Düşmən kimdi?

– Düşmən?.. Yəni bizi sevməyənlər...

– Adamı öldürənlər də düşməndi?

– Hə...

– Mən məhləmizdəki o sarı oğlanı xoşlamıram.

Amma onu öldürmərəm.

– O başqa, o sənə heç nə eləmir ki...

– Orda düşmənlər varsa, əsgərlər niyə çıxıb getmirlər?

– Bizi qoruyurlar.

– Əsgərlər olmasa, düşmənlər bizi öldürər?

– Öldürər.

– Səni də öldürərlər?

Oğlan bir an susdu.

İçində cavabladı: "Hələ səni də... Amma sən həkim ola bilərsən. Bəlkə, müəllim olmaq istədin..."

Sonra onun saçına sığal çəkdi:

– Müharibədi. Müharibədə belə olur.

Bu cavab qızcığaz üçün kifayət deyildi. Çox da anlamadı. Bircə onu anladı ki, müharibədə hamı ölə bilər, uşaqlar da, böyüklər də, bütün sevdiklərin də, hamı...

– Bəs müharibə nə vaxt qurtarar?

Oğlan duruxdu, fikirləşdi:

– Müharibə edən tərəflərdən biri təslim olsa.

– Onda biz təslim olaq, müharibə də qurtarsın.

– Olmaz, – oğlan acıqlandı. – Bir də bu sözü demə! Onlar bizim torpaqlarımızı alıblar. Biz o torpaqları azad eləməliyik. Təslim ola bilmərik. Bilmərik!

– Onda onlar təslim olsunlar, müharibə də qurtarsın... Heç kim də ölməsin. Axı özün deyirsən ki, kimsə təslim olmalıdı. Olsunlar da, onlar təslim olsunlar, ölməsin heç kim, – qızcığaz ağlamsındı,

gözləri doldu.

Oğlan onun göz yaşını barmağının ucu ilə sildi. Öz-özünə danışdı: “Əslində bu göz yaşından dəhşətli heç nə yoxdu. Kaş insanlar bir-birini ağlatmayaydı. Məndən olsa, silah kəşf edənləri cəzalandırardım. Yox, ümumiyyətlə , silaha qadağa qoyardım”.

Qız yenə soruşdu:

– Bəs onlar niyə təslim olmurlar?

– İstəmirlər. Biz özümüz onları təslim edəcəyik.

– Bəlkə, istəyirlər, nə bilirsən, istəmirlər?

– İstəsələr, bilərik.

– Necə bilərik?

– Ağ bayraq qaldırarlar.

Qızcığaz heyrətlə ona baxdı.

Oğlan içində ümid görünən heyrətli baxışları su kimi içdi:

– Ağ bayraq qaldırmaq – yəni müharibə etmək istəmirəm, təslim oluram, barışmaq istəyirəm deməkdi. Ağ bayraq qaldırsalar, torpaqlarımızı versələr, müharibə olmaz, başa düşdün? – deyə izahatından razı qaldığını bilmək üçün qıza baxdı. Qızcığazın üzündə işıq vardı. Danışan işıq. Bu işıq deyirdi ki, başa düşmək üçün bundan gözəl nə ola bilər?!

Bir neçə gün ötdü. Oğlan həyətdən qızı səslədi. Bir də səslədi. Yuxarı qalxdı. Qızcığaz yox idi. Axı məktəbdən birlikdə gəliblər, bu hara yoxa çıxıb? Tək gedib. Qorxdumu, həyəcanlandımı, heç özü də anlamadı. Səngərlərə tərəf qaçdı. Bu gün gecədən yenə

də atışma səsləri eşidilirdi. Oğlan ürəyinin dalınca qaçırdı. Çatdı. Qızcığaz görünmürdü. Əsgərlərdən biri acıqlandı:

– Nə dimdik durmusan, əyil. Eşitmirsən, atırlar?..

Oğlan isə bir az da dikəldi, bir az da ucaldı elə bil, gözlərindəki heyrət əsgərlərin baxışlarını ardınca apardı. Ağacların arasından çıxan ağ bayraq iki tərəf arasındakı boşluğun ortasında o tərəf-bu tərəfə gedirdi. Atışma dayandı. Hər iki tərəf çaşıb qalmışdı. Müharibənin bitmə ümidi dolanırdı ortada... Bayrağın sahibini görmək olmurdu. Təkcə oğlan görürdü – ağa bürünmüş körpə, zəif, zərif vücudu. Başına saldığı ağ örpəyin altından dinc, rahat, müharibəsiz-filansız günlər kimi gözəl qara saçları görünürdü hərdən. Qızcığaz aclıqdanmı, yaşam acısındanmı, içindəki kədərdənmi özünə gələ bilməyən, nazik bayraq çubuqlarına bənzəyən ayaqları üstündə uçurdu.

Hər iki tərəf susmuşdu...

# GÜLÜŞ

Toğrul illərdi günahkar kimi gəzirdi.

Toğrul illərdi içindəki övkəni, nifrini, ağrını, sevgini gizləyib gəzirdi.

Toğrul illərdi Aysunun gülüşünü görmək istəyirdi.

Aysu illərdi gülmürdü.

Ağlındakı, ürəyindəki, bədənindəki ağrılarla birgə böyüyən Aysu artıq 19 yaşlı qız idi. Həm də gözəldi Aysu. Dümdüz qaməti, hərdən hördüyü, hərdən topladığı qara saçları, ayaqları, əlləri, hətta barmaqları da gözəldi.

Bircə gülüşünün necə olduğunu bilmirdi kimsə.

Toğrul balaca Aysunun gülüşünü də unutmuşdu artıq.

Çünki illərdi Aysu gülmürdü.

Həmişə gözlərini qaçırar, Toğrulun üzünə, gözünə baxmazdı. Çox vaxt susardı Aysu. Hərdən Toğrul bu susqunluğa dözməz, Aysunu ehmalca sinəsinə sıxar, içinə sığmayan duyğularını pıçıldayardı. Qız yenə susar sadəcə bir az ona qısılardı. Toğrul əllərinə, sinəsinə düşən damlaların istisindən qovrulardı. Qıza qoşulub hönkürmək istərdi. Toğrula elə gəlirdi ki, Aysu doğma kəndidi - Qarabağın özüdü: belə yaxın və uzaq, belə əziz və yaralı... Gözəl və viranə...

Toğrul Aysunu nə vaxtdan sevdiyini də dəqiq bilmirdi. Bəlkə də Aysu dünyaya gələndən sevirdi...

***

Kənd camaatı bir başqadı. Bir ailənin, bir nəfərin kədəri də, sevinci də hamınındı. Cahangirlə Naibənin ilki doğulanda qonum-qonşu onlarla birlikdə sevinirdi. Toğrul tez-tez anasıyla balaca qızı görməyə gedirdi. Hərdən anasının balacanı əzizləməsinə qısqanclıqla yanaşsa da, özü gözünü beşikdəki körpəyə zilləyər, böyüklərin söhbətə başı qarışdığını görəndə beşiyə yaxınlaşardı. Bir gün qızcığazın xalasının təbəssümlə dediyi sözləri illər sonra tez-tez xatırlayacağından, həyatını bu sözlərə bağlayacağından xəbərsizdi.

Yenə oğrun-oğrun beşiyə yaxınlaşdı. Balaca Aysu əllərini oynadırdı. Qızın əlindən tutmaq istədi. Aysu Toğrulun barmağından yapışdı. Oğlan gülümsədi. Birdən xalanın baxışlarını gördü. “Əlimi buraxmır” dedi qəribə utancaqlıqla. Xala yaxına gəlib Toğrulun saçlarını oxşadı: Heç buraxmasın, sən də onun əlindən bərk yapış, heç vaxt buraxma – dedi.

Sonralar itkin düşəcək xalanın ən gözəl təbəssüm vardı üzündə.

Naibə xalanın bacısına “Ay qız, uşaqla işin olmasın” deyə yüngülcə acıqlanması Toğrulun yadında idi.

Toğrula bu sözlər şipşirin gəlmişdi. Bu sözlərdən anasının əllərindəki istiliyi hiss eləmişdi. Sonralar qız böyüdükcə Toğrul onun əlindən tutub gəzdirərdi. Aysu Toğrulgilin bağlarını çox sevərdi. Qonşu idilər. həyətlərinin arasındakı çəpər əvəzi olan gül kollarının arasından yavaşca onların həyətinə keçərdi tez-tez.

Sonra Aysu da Toğrul kimi məktəbə getdi. Arada məktəbdən birlikdə gəlirdilər. Xalanın sözlərini

xatırlamasa da, qızın əlindən bərk-bərk yapışardı...

Sonra Toğrul tələbə oldu.

Həyat onun üçün başqa rəng aldı. Ömrünün ən maraqlı illərini yaşayırdı. Asta yerişli, təmkinli Toğrul davranışı, savadı ilə sevildi, seçildi. Adama elə gəlirdi ki, Toğrul  heç vaxt, heç nəyə tələsmir. Sakit havada dənizə bənzəyirdi. Sadəcə səthi yüngülcə titrəyən, amma sonsuzluq duyğusu yaradan dənizə... Şəhərə alışmağa çalışırdı.

Sonra...

Sonra 1988-ci ildə Azərbaycanın qədim şəhəri, hal-hazırda Ermənistanın paytaxtı olan İrəvanda "Ermənistanı türklərdən təmizləyək" hərəkatı başladı. Bir qədər sonra SSRİ Dövlət Təhlükəsizlik komitəsi, erməni kəşfiyyat orqanları və Daşnak partiyasının ekstremist qrupları Sumqayıtda iğtişaşlar törətdi. SSRİ-nin, rus imperiyasının dəstəyi ilə minlərlə azəri türkü doğma elindən-obasından, evindən-eşiyindən didərgin düşdü. Bir vaxt Rusiyanın dəstəyi ilə Ermənistana qatılan torpaqlarımız ermənilərə qaldı. Amma SSRİ buna göz yumdu, iğtişaşları bəhanə edərək Azərbaycana qoşun yeritdi. 1990-cı il yanvarın 20-də əliyalın insanlarımızın üzərinə sovet tankları hücum etdi. Böyük qardaş daha bir qanlı səhifə yazdı tariximizə.

Bakıda vəziyyət gərgin, Qarabağdan gələn xəbərlər ürəkaçan deyildi. "Ermənistanı türklərdən təmizləyək" əməliyyatını Rusiyanın köməyi ilə uğurla başa vuran ermənilər ərazi iddiası ilə Dağlıq Qarabağda

iğtişaşlar törətməyə başladı.

Yerli əhali çaşbaş oldu. Zaman-zaman namərdliklərini unudaraq ermənilərə yenidən qucaq açmaları, "dost" demələri xəyanətlə üz-üzə qaldı. Hər "dost"un içindən bir vəhşi çıxdı...

Vəziyyət get-gedə ağırlaşırdı. Bir müddət əvvəl əhalidən ov tüfəngləri də yığılmışdı. Toğrul kəndə qayıtdı, könüllü dəstələrə qoşuldu. Döyüşür, yerli uşaqlarla birgə erməni və rus silahlılarının doğma kənd-kəsəyindən didərgin etdiyi yerli əhaliyə kömək edirdi. Kəndlər, rayonlar işğal olurdu. Əhali vəhşiliklə üz-üzə idi: evlər dağıdılır, hər yerə od vurulur, insanlar güllələnir, doğranır... Uşaqlara, hamilə qadınlara, yaşlılara belə aman vermirdilər: ermənilərin amansızlığı ağlasığmaz idi. hər birinin içində bəslədiyi namərd meydana atılmışdı. "Xeyirxah" unutqanlıqları amansıza dönüb yerli əhaliyə hücum çəkirdi.

Əli silah tutanlar döyüşür, yolları, cığırları, meşələri, daş-kəsəyi gəzir, azıb qalanları, yaralıları, meyitləri daşıyırdılar. Toğrul ağırlıqdan, ağrılardan güclə toparlanırdı. Hamı eyni hissləri yaşayırdı. Ölkənin müxtəlif yerlərindən gələn, bu yerləri ilk dəfə görən könüllülər üçün belə yad adam yox idi. Hamı doğmaydı.

Neçə gün idi kəndə gedə bilmirdi. Atası, kiçik qardaşı, bütün qonum-qonşu, dost-tanış, məktəb direktoru, şagirdlər belə döyüşür, kəndi qoruyurdu. Silah çatışmırdı.

Kəndlərinin düşmən əlinə keçdiyini öyrəndi.

Ölən ölmüş, döyüşən döyüşürdü. Qalanlar yollarda, dağda, dərədə idi. Toğrulu yaşamaqla bağlayan bütün tellər qırılmışdı...

Döyüş yoldaşı Rasim və Səmədlə kəndlərinə yaxınlaşdı. Hər tərəf yanırdı, hər tərəf dağıdılmışdı. Heç kim gözə dəymirdi...

Toğrulgil dağın ətəyindən ağacların arasından kəndə baxır, gah da gözləri kənd yolundan meşəyə aparan cığırları axtarırdı. Birdən qəribə sükut çökdü. Toğrul çayın səsini eşitdi. Ona elə gəldi ki, kimsə inildəyir. Əslində Aysu inildəmirdi, kimsəni çağırmırdı. 12 yaşlı qızcığazın səsi batmışdı.

Salamat yeri olmayan, yarıçılpaq Aysunu görəndə elə bildi ki, qız ölüb. Bir anda bədəni xəlbirə döndü və hər tərəfə qan səpildi. Qandan başqa heç nə görmürdü, qulaqları tutuldu.

Səmədin onu şillələyərək "Toğrul, Toğrul, tez ol, özünə gəl" dediyini eşidənəcən nə qədər zaman keçdiyini bilmədi.

Toğrul saatların günlərə, günlərin aylara necə döndüyünü hiss eləmədi Zaman mahiyyətini itirmişdi Aysuyla birlikdə sağalmağa çalışdı.

İllərsə keçdi.

Düz 7 il.

Aysunun bədənindəki yaralar sağaldı. Amma üzü gülmədi. Heç nəyə sevinmədi Aysu. Kiçik qardaşını götürüb "Naibə, mən uşaqları kənddən çıxarıram, tez ol sən də Aysunu götür, çıx evdən" deyərkən üzündəki əzabla yadında qalan dayısı Eldarı, kiçik qardaşını

görəndə də  ağladı sakitcə. Dayısından 5-10 dəqiqə sonra gələn, “çıxın, çıxın” deyə anasını tələsdirən atasınımı xatırladı?

Amma gecikdilər...

***

Tibb kollecinə qəbul olanda da sevinmədi Aysu.

Toğrul ona sevgisini açanda, evlənmək təklif edəndə də susdu. Baxışları uzaqlara getdi. Kədərləndi. İki damla yaş düşdü yanağına. Nə gördü Aysu? Kəndlərinimi? Özünü qızının üstünə atan anasının saçlarından ora – bura çırpıldığınımı? Üstünə yıxılan bədənlərimi?

Atasının baxışlarını da unutmadı. Qızının çığırtısından, iniltisindən qulaqları dağıldı atanın. Qulaqlarından axan qan sinəsini yandırdımı, dondurdumu, Aysu bilmədi. Qulaqları kimi ürəyi də dağıldı Cahangirin. Kədər, əzab, nifrət dolu çarəsiz baxışları qaldı Aysunun gözlərində.

Bir də hər dəfə üstünə cumanların ayaqlarından yapışan anasının təpiklərdən dağılan üzü...

Onlar heç vaxt o günlərdən danışmırdılar.

Aysu ümumiyyətlə “yaxşı”, “hə”, “yox”, “olar” və s. qısa kəlmələr işlədirdi.  Toğrulun evlənmək təklifinə də susdu. Toğrul Aysunun onu semədiyini düşündü. “Bəlkə heç burda yaşamaq istəmir”– fikri də keçdi ağlından. Aysunun dayısı Eldarla danışmağa qərar verdi.

Müharibədən sonra Bakının yaxın kəndlərinin

birində götürdüyü torpaq sahəsində özünə yığcam səliqəli bir ev tikmişdi Toğrul. Qızın dayısı Eldarla qonşu idi. İllər öncə Eldar Aysunu aparmaq istəyəndə də Aysu qaçıb Toğrulun əlindən bərk-bərk tutmuşdu. İndi də dayı "Aysu, daha evimizə gedək, səni aparmağa gəlmişəm, bizimlə yaşamağın yaxşıdı" deyəndə Aysu Toğrulun əlindən yapışdı. Yenə iki damla yaş düşdü gözlərindən. "Getmirəm" dedi. Toğrul onun əllərinin əsdiyini hiss etdi. Dayı razılıqla mehribanca Toğrula baxdı: "Xoşbəxt olun"dedi.

Oğlu olanda da ağlamışdı Aysu. Toğrulun "İstəyirsən atanın adını verək" sözünə "Yox, Turan olsun" demişdi.

Qızı olanda günlərlə bədəni əsdi Aysunun.

Toğrul o günlərin acısından nə vaxtsa qurtula biləcəklərini sanmırdı. Bədəninin bir parçasıydı artıq. Kəsib atsan da, yoxluğu ağrıdacaqdı. Unutmayacaqdın.

***

2020-ci ilin ilin iyulunda Ermənistanın ləyaqətsizliyi yeni münaqişəyə səbəb oldu. Azərbaycan ordusunun general-mayoru, hamının sevimlisi Polad Həşimovun ölümü şillə kimi silkələdi hamını. Minlərlə gənc könüllü hərbi xidmətə yazıldı. Birinci kursu bitirən Turan da təhsilini dondurub könüllü həqiqi hərbi xidmətə yollandı. Toğrul onu fikrindən daşındırmağa çalışsa da Aysu susdu.

Sentyabrın 27-də savaş başlayanda Aysunun üzündəki ifadə dəyişdi. Bir qürurluq yarandı duru-

şunda. Oğlu döyüşdən zəng edəndə səsində kədər hiss olunmadı. Hər danışığında sakitcə inamla ”Qalib olacaqsız” deyirdi sadəcə. “Qorxma, onlardan qorxma. O alçaqlardan qorxma” deyirdi.

Kəndlər, rayonlar, şəhərlər azad olduqca Aysunun üzündə təbəssüm görünürdü.

Qələbə xəbəri bütün ölkəni sevincə bürüdü. Ağlayan, gülən bir-birinə qarışdı.

Turan arada yüngül yaralansa da, evlərinə qayıdırdı. Bütün kənd camaatı küçə boyu düzülmüşdü. Hamı əsgərini qarşılayırdı. Toğrul da yaxınların əhatəsində küçədə idi.

Bircə Aysu həyətdə qalmışdı.

Aysu eyvanda dayanmışdı heykəl kimi. Hay-küy qopdu Aysu tərpənmədi.

Həyət darvazası taybatay açıq idi. Turan darvazada göründü. Vüqarla dayandı çinar kimi qamətli oğul. Anasına baxdı. Baxışlar görüşdü... Ağladı...30 ilin acısını yudu...

Dəqiqələr ötdü. Aysu yavaş-yavaş oğluna tərəf gəldi, qarşısında dizi üstə düşdü...

Turan anasını ehmalca ayağa qaldırdı. Qollarının arasına aldı. Üz-gözündən öpüb, saçlarına sığal çəkdi.

Toğrul heyrət içindəydi. Toğrulun heyrəti sevinirdi. Aysu yaş dolu gözlərini Toğrulun gözünə zilləmişdi. Aysu gülürdü. Yox, bu gülüş də deyildi, bu dəlicə bir qəhqəhə idi. Aysu dayanmaq bilmirdi. Bu qəhqəyə hıçqırtı qarışırdı. Ona qoşulub ağlayır, gülürdü Turan.

Bu göz yaşı ananın hər əzasında yığılıb qalan ağrı-acıydı damla-damla süzülüb gedirdi. Bu gülüş azad olunmuş hər qarışdan qayıdan haray idi.

Turan illərdi anasının saçlarında, əllərində, gözlərində yığılıb qalan ağrıları söküb atmışdı. Turan əzaba qalib gəlmişdi.

Bir an hamı susdu. Aysunun qəhqəsi eşidildi hər tərəfdən. Bu qəhqəhə Qarabağda eşidildi, Aysugilin kəndinə gedib çatdı. Toğrula elə gəldi ki, kənd camaatını görür: hamı burdaydı - ölüb, itən, sağ qalan - hamı. Hamı gülürdü-qəhqəhə çəkirdi. Bu qəhqəhə ürəklərdə dağa dönən acıları ayaqları altına alıb əzirdi...

Elə bil göylə yer birləşirdi. Torpaq silkələnirdi. Göy guruldayır, ildırım çaxırdı. Günəş doğdu birdən. Hamı günəşə qoşulub qəhqəhə çəkdi.

Turan qalib idi.

# ÇİÇƏK

İstirahət mərkəzi böyük deyildi. Həyətindəki kiçik istirahət güşəsində 6 taxta masa elə taxta aralıqlarla bir-birindən ayrılmışdı.

Rəşid üçüncü dəfə idi bura gəlirdi. İlk dəfə rayondakı məşhur istirahət məkanlarında yer olmayanda gəlib buranı tapmışdı. Əyləncə, ya gəzinti yeri yoxdu. Ancaq sakitlik, təmiz, səliqəli otaqları vardı. İlk gəlişindən səliqə-səhmanı, sakitliyi ürəyinə yatdı. Taxta skamyada oturub görünən mənzərəyə baxmağı sevərdi. Mənzərə gözçəkilməz idi: Aşağıda yaşıllıqlar arasından sezilən, günəşin şüalarında gizlənqaç oynayan çayın səsi onsuz da xəyalpərvər olan Rəşiddə qəribə duyğular oyadırdı. O bu səsi dinləyə-dinləyə ağacların arasındakı evlərə baxır, orda yaşayanları düşünürdü: Kimisə çaydan su gətirərkən, kimisə sacda çörək bişirən, kimini odun yaran, həyət-bacanı təmizləyən, toyuq-cücəyə dən verən və s. kimi təsəvvür edirdi. Rəşid şəhərdə böyümüşdü. Vaxt tapanda, özünün dediyi kimi, təbiətlə görüşmək istəyirdi. Hə, bir də rayonda baba yurdunda yaşayan dayısıgilə qonaq gedərdi. Kəndlərdə olmağı sevirdi. Ümumiyyətlə, qəribə bir marağı, sevgisi vardı rayon, kənd həyatına, orda yaşayanlara. Elə bil burdakı insanlar fərqliydi, nəsə daha doğma, daha isti idilər. Bir də gördün küçədə tanımadığın biri səni saxlayır, səninlə görüşür, hal-əhval tutur: “Sən Qurbanın nəvəsisən?

Babana oxşayırsan. Kişi adam idi. Burda hörməti çoxdu. Sən necəsən? İşlərin avand olsun" kimi cümlələri bir-birinin ardınca düzürdülər.

Həyətlərin birində çəhrayı güllü ağ don göründü. Ağacların arasından çəhrayı güllər səsiylə Rəşidin düşüncələrinə sığal çəkən çay kimi arabir nəzərə çarpırdı.  Diqqətini cəmlədi. Bu yerlər kimi gözəl bir qıza bənzətdi don sahibini. Ağacların bir-birinə qovuşan yam-yaşıl budaqları gizlədiyindən, çox da yaxın olmayan məsafədən qızın üzünü seçmək mümkün deyildi. Ora-bura gedən, gah əyilib-qalxan varlığın yaşını da müəyyən etmək olmazdı. Sadəcə çevik idi. Rəşidə elə gəlirdi ki, orda dolaşan dünyanın ən gözəl qızıdı.

– Bir şey içmək istəyirsiniz?... Çay, kofe, su…

Rəşidin eşitmədiyini duyub onun baxdığı səmtə boylandı. Gülümsündü: – Çiçək.

Onun Çiçək olduğunu istirahət məkanında işləyən Orxan bilirdi. "Bu oğlan niyə belə diqqətlə baxır. Bəlkə Çiçəyi tanıyır?" – maraqla düşündü.

– Rəşid bəy. Rəşid– deyə bir az ucadan səsləndi.

Ona tərəf dönən Rəşid elə bil harda olduğunu unutmuşdu.

– Orxan… Sənin samovarın qaynamadı? Yaxşı bir samovar çayı içək.

– İndicə qaynadı. Mən də soruşuram. Amma fikriniz məşğul idi.

Gülümsündü:

– Bu mənzərəyə baxmaqdan doymuram. Bu ev-

lər mənə qəribə təsir edir. Heç birinin hasarı yoxdu. Deməli, həyət qapıları da yoxdu. Evlərin həyəti harda qurtarır, harda başlayır? Azaddılar. Bu hasarsız həyətlərdəki evlər azadlığın özüdü. Rahatlıqdı.

Orxan da istirahət məkanından aşağıda qalan evlərə baxdı. Kəndlərdə belə evlər çoxdu. Amma elə bil o da bu evləri indi görürdü. Sevindi özlüyündə Orxan. Bir-biriylə qucaqlaşan adamlara bənzətdi evləri. Elə bil ağaclar əllər idi. Bir-birindən ayrılmayan, bir-birinə dayaq olan əllər. Öz düşüncələrinin təsiriylə dedi, daha doğrusu pıçıldadı: Elə bil həyətlər qucaqlaşıblar doğma adamlar kimi.

– O da Çiçəkdi. Həyətdə iş görür. Yəqin, oxumaqdan yorulub..

– Tanıyırsan?

– Əlbəttə. Kəndçiyik. Mən oxuduğum məktəbdə oxuyur. Əlaçıdı. Bütün günü kitablarla məşğuldu. Arada yorulanda fasiləyə çıxır, həyəti təmizləyir, ağaclara su verir, meyvə yığır, dükana gedir. Lazım olanda mən də bazarlıq edirəm onlara.

Rəşid artıq tanımadığı Çiçəyi sevirdi. Həyacanlandı: – Yoxsa...

– Yox, ona hədsiz hörmətim var, sevgim var, amma bacı, dost, insan kimi. O da mənə qardaş kimi baxır. Həm də, səhv başa düşməyin, dayaq olmaq istəyirəm. İstəyirəm mənə güvənsin, həmişə yanında olacağıma güvənsin... O da güvənir məncə, təkcə mənə yox, bizim ailəyə. Atam da onları tək qoymur, tez-tez baş çəkir.

Rəşid anlaşılmaz təəccüblə, maraqla oğlana baxırdı:

– Nədən?

– Nədən… Ehtiyacı var. Ehtiyacları var.

– Təkdi?

– Nənəsiylədi. Başqa elə bir yaxını yoxdu. Əslində qohumları var, amma yaxınlıq etmirlər…

– Atası-anası bəs?

– Çayımızı içək. Samovar soyuyur – deyə Orxan söhbəti dəyişdi. Rəşid onun Çiçəyin həyatını danışmaq istəmədiyini anladı. Əslində bu həqiqət idi. Orxan Çiçəkdən danışmaq istəmirdi. “Bu şəhərli balası birdən-birə niyə onunla maraqlanır? – düşündü yenə. Hətta bir az əsəbiləşdi.

Rəşid bunu hiss etdi. Söhbət kədərli olsa da, o sevincliydi. – Hə, çayımızı içək. – Amma onun hekayəsini danışarsan, çox xahiş edirəm.

Orxan artıq masaya qənd, konfet, mürəbbə, Quba paxlavası qoymuşdu. Samovarda yanan quru ağacların qoxusunu içinə çəkən Rəşid özünə çay süzmək istədi.

– Bu mənim işimdi, siz zəhmət çəkməyin – deyə stəkanı ondan almağa cəhd etdi.

– Di bəsdir, bu mənə zövq verir. Özün də otur. Burda tək çay içməyəcəm ki. Bu harda qaldı-dostunun dalınca gileylənməyi də unutmadı. – Onsuz da kimsə yoxdu.

Bu vaxt qonşu otaqlardan birində qalan qızlar gəlib çıxdı. Bir gözü Rəşiddə olan solğunbənizli, zərifüzlü qız nəşəylə səsləndi:

– Ay nə gözəl, yanıram, elə samovar çayı keçirdi ürəyimdən.

– Buyurun. – Rəşid qalxıb qonşu masaya keçən qızlara çay süzdü. Orxan qızların masasına çay dəstgahı düzür və gözaltı Rəşidə baxırdı – Buna nə oldu görən birdən-birə?

...

Günortadan xeyli ötmüşdü. Məhəccərə dirsəklənmiş Rəşid çaya baxdı. Daha günəşin altındakı güzgü parçaları kimi işığı qaytarmırdı. Hava tutulmuşdu.

– Yağış yağacaq indicə.

Elə bil buludlar Orxanın sözünə bənd idilər. Bir anda göydə qəribə şəkillər yaratmağa başladılar. İkisi də gözünü buludlara zilləmişdi. İkisi də buludlarla danışırdı. Öz aralarında pıçıltıyla danışıb-gülən qonşu masadakı qızlar onları eşitmirdi. Hərə öz həmsöhbətiylə idi. Yağış başladı. Oğlanlar ləzzətlə çay içir, ətrafa boylanırdılar.

***

Baharla İlham bir sinifdə oxumuşdu. Məktəb illərindən sevmişdilər bir-birini. Onlar məktəbi qurtaranda SSRİ dağıldı. Ermənilər Rusiyanın dəstəyi ilə Azərbaycana qarşı yenə də ərazi iddiasına qalxdılar, iğtişaşlara başladılar. 1988-ci ildə Sovetləşmə dönəmində 1920-ci ildə Rusiyanın Ermənistana verdiyi qədim Azərbaycan torpaqlarından-Zəngəzur mahalından yerli əhalinin vəhşicəcinə qovulması başladı. "Ermənistanı türklərdən təmizləyək" şüarı ilə İrəvan,

Vedi, Göyçə, Dərələyəzdə yaşayanlar da öz dədə-baba torpaqlarından qovuldu. SSRİ rəhbərliyi buna şərait yaratdı.

Rusiyanın dəstəyi ilə “Təmizləmə” əməliyyatını uğurla başa vuran Ermənistan  Qarabağ müharibəsinə başladı. Yerli əhali ağlasığmaz çətinliklərlə üz-üzə qaldı. Vəziyyət ağır idi. İllərlə, əsrlərlə Azərbaycan torpaqlarında yaşayan, qədim İrəvan şəhərini özünə paytaxt edən ermənilər havalandılar yenə. Vətənin belə ağır günündə İlham oxumaqdan vaz keçdi: Əsgər gedəcəm – deyə inad etdi. Ürək çatışmamazlığından əziyyət çəkən ata yeganə övladının xasiyyətini bilirdi. Susdu. “Getmə” deyə bilmədi. Ana göz yaşı axıtdı. Öz ağrılı taleyindən xəbərsiz Baharsa sadəcə qürur duydu. İlham döyüşlərə gedəndə qız Tibb texnikumunda təhsil alırdı. İlham döyüşlərdə yaralandı. Müalicə üçün Bakıya hərbi hospitala yerləşdirdilər. Tam sağalmasa da yenidən “Qarabağa gedəcəm” dedi. Bu dəfə Bahar da “Birlikdə gedəcəyik. Qızlar da döyüşür. Mən də tibb bacısıyam” – deyə təkid etdi.

Aylar ötdü.

Və bir gün Bahar qayıtdı. Şən, söhbətcil  Bahar lal-dinməz olmuşdu. Müharibənin acılarını içində gəzdirən adam danışıb gülə bilmir. Bəzən yaşadıqlarını kimsəylə bölüşə də bilmir Bahar kimi. Bir neçə aydan sonra hamı Baharın qayıtmağının səbəbini bildi. Hamiləydi. Hərə bir söz danışdı. Onun susqunluğunu yozmağa bəhanə tapdılar. Gündə onlarla yaralı, şəhid görən Baharı – müharibəni unutdular.

Bahar sakitcə İlhamı gözləyirdi. İlhamsa qayıtmadı. Nə öldüsü, nə dirisi məlum olmadı… Bir gün qardaşı Bahara “bəlkə Bakıya, ya qonşu kəndə gedəsən. Bir müddət qohumların evində qalarsan. Ya da rayonda ev tutaq. Mən də tez-tez sənə baş çəkərəm” dedi. Bahar qardaşının narahat səsinə sakitcə qulaq asdı.

Bir neçə gündən sonra qardaşına heç nə demədən evdən çıxdı. Hər gün “Gedək bizimlə qal” deyən uşaqlıq rəfiqəsi Süsənə də bir söz demədi. Bakıya getməyə qərar vermişdi. Əvvəlcə çayın kənarına getdi. İlhamgilin evindən çaya bir cığır yol alırdı. Çaya doğru ağacların sıxlığı azalırdı. Yalnız evləri qoruyurmuş kimi sıralanan ağaclar birdən-birə yoxa çıxırdı çay kənarında. Onlar da bir az uzaqdan çayın gözəlliyinə baxırdılar, elə bil bu gözəlliyi gizləmək istəmirdilər. Bahar bu cığırla qalxdı, doğma ağacı tapdı. Altında oturdu. Balaca boxçasını başının altına qoyub ordaca yuxuladı. Ağrıları ürəyini, beynini əldən salmışdı. Oyananda səhər açılırdı. Gecənin rəngi hələ ətrafdan tamam silinməmişdi. Gözünü ağacların arasından güclə görünən evə zilləmişdi. Günəşin nə vaxt gecəyə tam qələbə çaldığını, budaqların arasından gizlicə yol taparaq əllərini, üzünü oxşadığını hiss eləmirdi. Arada düz göz bəbəklərinə toxunan şüalara nəhayət ki, salam verdi. Bədənində bir istilik hiss elədi. Qeyri-ixtiyari axşamdan kürəyinə saldığı şalını götürdü, sinəsinə sıxdı. Və… Və qəfildən günəşin əllərindən duyduğu doğmalıqdan, istilikdən kövrəldi. Üzünü şalında gizləyərək hönkürdü. İçin-için ağladı, ağladı,

ağladı,... Ayaqlarını azacıq yığmışdı. Ağrı-acıdan ağırlaşan başını dizlərinə söykəmişdi. Əlləriylə qarnını qucaqlamışdı. Bahar onunçün hamıdan, hər şeydən dəyərli olan varlığı, onun evini qorumaq istəyirdi. Onunçün bütün sözlər, bütün gözlər mənasızdı. O bu cığırın kənarındakı ağaca söykənmişdi. O yalnız bu ağacla danışa, dərdləşə bilərdi. Çünki o ağac çox şey bilirdi. Onun sevincini, xoşbəxt günlərini, ağrı-acısını, xəyala dönən, ölən arzularını,... çox şeyi. O ağac tək sığınacağı, tək dayağı, tək sirdaşı, tək həqiqəti idi. Nə qədər bu ağacla danışdı, nə qədər onu dinlədi, bilmədi. Başının üstünə qalxan günəşin yavaş-yavaş "sabaha qədər" deməyini eşitmədi.

Saçlarında, üzündə hiss elədiyi sığaldan, vücudunda duyduğu tərpənişdən gözlərini açmağa çalışdı. Milyontonluq kipriklərini azca tərpədə bildi. Əlinə düşən damcıları hiss etdi. Yağış yağırdı. Ağrı, acı, sevgi yağışı yağırdı. Bu ağrı, acı yağışı selə dönüb onu ora-bura çırpır, boğur, gah da sevgiyə dönüb boğulmağa qoymurdu. "Qızım, qızım..." tanış, doğma, bu dünyada ona dayaq ola biləcək, ən çox ehtiyac duyduğu səs başqa heç nə deyə bilmirdi. Güllü ana dizi üstə çöküb Baharın üzünə, gözünə, saçlarına sığal çəkir, əsim-əsim əsir, gözlərindən sel tökürdü. Qızı özünə sıxırdı, ya ona sığınırdı var gücüylə, anlamaq olmurdu. Baharsa susur, bu əllərin toxunuşunda ölmədiyini hiss edirdi. Ana qızı ayağa qaldırdı, az qala qucağında evə apardı. Əl-üzünü yudu. Qonşu otaqdakı boş yatağa baxdı, səksəndi. Qapını örtüb divanda yataq hazırladı.

Baharı rahatlayıb ona isti mürəbbəli çay, çörək gətirdi. Bahar heykəl gözləriylə baxırdı. Ana onun yanında oturub çay içirdi, qızın rəngi dəyişdi azacıq. Birdən vücudunda yenə tərpəniş duydu. Bahar qeyri-ixtiyari əlini qarnına apardı. Ayıldı. İri gözəl gözlərini Anaya zillədi. Ana da heç vaxt belə baxmamışdı. “Mən ona qıya bilmədim. Mən İl.... – sözləri qırıldı. Gözlərini anadan çəkmədi: ”onun yadigarına qiya bilməzdim. Mən ona xəyanət edə bilməzdim. Mən...” Bir an susdu. “Bu, bizimdi”. Ana onun yanında oturdu. Dünyanın yeddi möcüzəsini heçə çıxaran səkkizinci möcüzə görürmüş kimi qıza baxdı, baxdı: “Bilirəm”

– Siz mənə inanırsız?

Ana sakitcə “Balamın nişanəsidi” – dedi. “Mənə bu bəs edər. Kimsəyə izah vermək, kiçik düşmək istəmirəm. Neyniyə billəm başqa?” Qız için-için ağladı, ananın qucağına sığındı, əllərindən öpdü. Göz yaşları qarışdı, dərdləşdi, sevindi bir az da bu gecə... Bir suala özü də cavab tapmırdı: Bütün kəndin bizim sevgimizdən xəbəri vardı. Mən cəbhəyə gedəndə “mərd qızımız” deyənlər də vardı. İndi nə oldu?

Bahar beləcə Güllü anayla qaldı.

Ana oğlunun Baharı sevdiyini bilirdi. Ona görə onu “Gəlinim” deyib əzizlədi. Tək oğlu üçün saxladığı zinyət əşyalarını Bahara verdi. Barmağına nişan üzüyü taxdı.

Bahar qayıdanda İlhamın ölüm xəbəri kəndə yayılmışdı. İlhamın atası bu xəbəri eşidəndən bir neçə gün sonra dünyasını dəyişmişdi. Kimsə dərd içində

qıvrılan anaya onun hamilə olduğunu deməmişdi. O, kənd arasına da çıxmırdı. O, Baharı tapanda öyrəndi həqiqəti. Və bu həyatda qalmaq səbəbi oldu. Körpə böyüdükcə Baharın vəziyyəti ağırlaşdı. Soyuqda nəm yerdə yatmaqdan böyrəkləri az qala sıradan çıxmışdı. Həkimlər doğuma icazə vermirdilər, qız inad etdi. Ağrılarla savaşa-savaşa körpəsini böyütdü. Amma doqquz ay gözləmək olmazdı. Çiçək 8 ay tamam olmamış dünyaya gəldi. Bahar müalicə oluna bilmədi. Qızının ilk addımlarını belə görə bilmədi. Pulumu çatmadı, ya müalicə eləmək mümkün olmadı-kimsə bu haqda danışmadı.

Ölümü hamını sarsıtdı.

Varolma xoşbəxtlikdi. Ölüm yoxluqdur-qeybə çəkilməkdir.

***

Ertəsi gün Orxan bunları Rəşidə danışdı.

“Çiçək beləcə dünyaya gəlib” – deyib susdu. – Güllü ana onunla yenidən doğuldu elə bil.

Əslində bunlar Orxanın dəqiq yadında deyildi. Bu hadisələr baş verəndə o, kiçik idi. Sadəcə eşitmişdi, öyrənmişdi, ən çox da atasından, anasından. Böyüdükcə ata-anasını Güllü ananın yanında görmüşdü.

Orxan susdu. Sonra içdən nəfəs aldı – Çiçək çox yaxşı oxuyur. Filoloq olmaq istəyir.

İstədi “Hekayə, şeir yazır”– deyə əlavə etsin, amma demədi. Bu Çiçəyin sirri idi. Təkcə bacısı bi-

lirdi. Bilirdi ki, Çiçək yazıçı olmaq istəyir. Orxan da bilirdi. Bilirdi ki, o yazıçı olacaq.

Rəşid Qarabağ müharibəsində ölümlərin hamısını gözləriylə görmüş kimi hiss elədi özünü. Amma gözlərinin dərinliyində bir sevinc işıldayırdı. Çiçəyi tapmasının sevinci qızın həyatının kədəri qədər böyükdü. Rəşid olanlara kədərlənməkdən başqa heç nə edə bilməzdi,  amma ola biləcəklərin sevincini yaşaya bilərdi.

Həyat geriyə qayıdış deyil. İrəliyə getməkdi. Yaşamaq dünənə deyil, sabaha pəncərə açmaqdı.

Səhəri gün Rəşid şəhərə qayıtdı. Elə bil nağıldan gəldi. İkinci həftə yenə Qubaya getdi. Yenə bütün günü sürahiyə söykənib Çiçəkgilin evinə baxdı. Mavi donu arabir gördü.

Səhər yeməyindən sonra çaya tərəf düşdü. Həmin o cığırı, həmin ağacı tapdı. Rəşid kədərlə Baharın həmin gecə pənah gətirdiyi ağacı oxşadı.

Ağacın altında yerini rahatladı. Gözlərini qaldırıb başının üstündəki yamyaşıl budaqlara baxdı, ilk dəfə ağacların şahənə görünüşünün fərqinə vardı. Baxışlarını çevirdi, cığırla üzüyuxarı boylandı. Beləcə nə qədər oturduğunu bilmədi. Səsə gözlərini açdı. Yuxlamışdı. Qarşısındakı qızı görəndə gözəlliyin nə olduğunu anladı. Yaxası açıq, sinəsinin altından azacıq büzməli, üstündə çox xırda ağ xalları olan mavi don qızın vücudunun zərifliyini gizlədə bilmirdi. İri gözlərinin çəhrayıya çalan bəbəkləri oğlana zillənmişdi. Bir neçə dəqiqə bir-birinə baxdılar. Nəhayət

yarpaqların səsini pozdu:

– Salam. Mən deyəsən yuxlamışam, qorxutdum sizi elə bil.

– Yox, niyə qorxum. Mən buralarda qorxmuram. Burda tanımadığım birini görmək gözlənilməz oldu.

– Mən Rəşidəm. Bakıdan gəlmişəm. Yuxarıdakı istirahət evində qalıram. Ordan bura elə gözəl görünür ki. Nəsə bura düşmək, çayın sahilinə enmək istədim. Bir az gəzindim buralarda.

Cığırla kiminsə gəldiyi hiss olunurdu.

– Çiçək – qızı səslədilər. Yəqin nənə idi.

– Gəldim ana.

Güllü ana göründü. Rəşid özünü itirsə də sevinclə salamladı nənəni.

– Salam... Mən sizin kənddə dincəlirəm. Adım Rəşiddi.

– Nə olar. Xoş gördük Gəl qonağımız ol, çayımızı iç.

– Sizə əziyyət verməyim?

– Nə əziyyət ay bala. Bizdə bir az meyvə yığmaq istədik.

– Mən yığım bu gün meyvəni.

– Nə olar–nənə gülümsədi. – Bir az gilənar, bir az gilas yığ.

– Özüm yığaram. Bəlkə qonağın işi var-nəhayət Çiçək dilləndi.

– Yox, başqa işim yoxdu. Kənddə meyvə yığmaqdan gözəl nə ola bilər?

Rəşid həvəslə Çiçəklə birgə meyvə yığdı. Arabir

diqqət çəkmədən qızın təmkinli davranışına nəzər yetirirdi.

– Ta bəsdi, gedək. Sən də gəl, ay oğul bala. Bir tikə kəs bizimlə.

Güllü nənə Rəşidə duyduğu doğmalığın səbəbini özü də bilmədi. Rəşid qıza baxdı. Çiçək gülümsündü...

***

Rəşid qəribə hisslərlə qayıtdı. Rəşid xoşbəxt qayıtdı. Rəşid arzuladığı qızı tapdığına əminliklə qayıtdı. Taxta masanın arxasındakı yerinə keçdi.

Orxan Rəşidin gəldiyini görüb mətbəxdə özünü məşğul kimi göstərdi. Əslindəsə həyəcanlı, bir az da əsəbi idi. Onun çaya doğru düşdüyünü görmüşdü. Bu qədər zamanda nə etdiyini öyrənmək arzusu onu narahat edirdi.

Rəşid səbrsizləndi birdən.

– Orxan, hardasan? İşin çoxdu?

– Burdayam – deyə mətbəxdən çıxdı.

Rəşid onun gərginliyini hiss etdi.

– Yox, elə bir işim yoxdu. Elə çox qonağımız da yox.

Niyəsə tələsik izahat verdi.

Orxan Rəşidlə üzbəüz oturdu.

– Günün necə keçdi?

Susdu, cavabı tez eşitmək istəyirdi – Xeyli vaxt yoxdun.

– Bilmirəm, vaxtı unutdum... Yəqin xoşbəxt günüm idi.

Orxan hər şeyi anlamışdı.

– O çox xəyalpərvərdi. Başqa dünyası var. Adi qız deyil. Yaralıdı həm də. Ana-atasının yaşadıqlarını biləndən sonra səssiz oldu. Heç kimlə danışmır az qala. Hamıdan küsüb elə bil kənddə. Dayısı indiyə kimi onun könlünü almağa çalışır. Yüz dəfə üzr istəyib, cavab verməyib Çiçək. Polad dayı peşman olub bacısına etdiyi haqsızlıqdan. Neçə dəfə Baharın dalınca getsə də, Bahar qayıtmayıb, Güllü anayla qalıb. Atam İlham əmiylə birlikdə getmişdi cəbhəyə. Onu kiçik qardaşı kimi sevib. Bahardan bir il sonra gəldi atam. Yaralanmışdı, bir ayağı dizdən aşağı yoxdu. Qayıdanda hamı görüşünə gəlirdi. Bir-iki gün başı qarışdı. Sonra Baharı soruşdu. Yanında qonum-qonşu vardı. Hamı susdu. Anam nələrsə danışdı. Uşaq idim, sadəcə nələrinsə düz olmadığını anlayırdım. Qonşumuz Mərdan "müharibədə olmuşdu, birdən elə vəziyyətdə qayıtdı. İlham da..." Sözü ağzında qaldı. Atam necə hirsləndisə, sağ əlini havada görməyimlə Mərdanın aşması bir oldu. Hamını söydü, qovdu. Güllü ana gilə getdi. Əsayla gəzirdi. Onu da unutdu, yaralı ayağını da. Mən əl ağacını da götürüb ardınca qaçdım. Atamı görəndə Bahar xala quruyub qaldı elə bil. Sonra ona sarıldı. İkisi də ağlayırdı. Atam arada ona "qurban olum, ağlama" desə də, özü göz yaşlarını saxlaya bilmirdi. Güllü anayla mən sakitcə dayanıb onlara baxırdıq. Hələ də o səhnə yadımdadı. O gündən atam onları tək qoymadı. Baharı həkimlərə də apardı, xeyri olmadı. Bahar öləndə bütün sağ olan

döyüş yoldaşları gəlmişdi. Onu qəhrəman kimi dəfn elədilər. Hamısı da Güllü anaya baş çəkir. Atamsa Çiçəyə atalıq elədi. Yəni Çiçək tək deyil, mən varam, atam var...

Susdu Orxan. Baxışları uzaqlara getdi.

– Universitetə hazırlaşır Çiçək... Bu il imtahan verəcək. Bir oğlan sevirdi onu, söz yayıldı ki, anası razı olmayıb. Atam bunu eşidib kəndin ortasında oğlanın atasının qabağını kəsib "Sizə qız verərəm mən? Sənin o bisavad oğluna qız verərəm? Mənim qızım oxuyacaq hələ. O savadsız oğluna de ki, qızımın adını bir də tutmasın, dilini kəsərəm yoxsa". Çiçək bacımla rəfiqədi. Ona deyib ki "bu kənddən kimsəni sevmərəm. Universitetə qəbul olacam. Oxuyacam. Sonra dalımca yasəmənlə bəzənmiş maşında gələcək oğlan". Al yelkənlər filmindəki kimi. O filmi də, yasəməni də çox sevir. Aleksandr Qrinin "Al yelkənlər" əsərini deyirəm. Kitabı da oxuyub. Xəyal qurub... Kaş onun bu xəyalı gerçəkləşəydi.

O qədər ürəkdən dedi ki, Rəşid "necə böyük ürəyi var bu oğlanın" deyə düşündü. "Onun xəyalı gerçəkləşəcək" – dedi.

– Onun qəlbini qırsan... – cümləsini bitirmədi Orxan.

– Nə danışırsan? Elə igid ata-ananın yadigarının? Çiçək kimi qızın? – Rəşid kövrəldi. – Ona bütün acılarını unutduraram. Əgər istəsə...

***

Çiçək imtahanları uğurla verdi, yüksək bal topladı, filologiya fakültəsinə qəbul oldu. Rəşid Bakıda bir neçə dəfə onu gözlədi universitetin qarşısında. Təsadüfən rastlaşan kimi aparırdı hər dəfə özünü. Guya universitetdə işi var. Əslində o, Azərbaycan Dövlət Neft Akademiyasının doktorantirasında oxuyur, həm də işləyirdi. Dövlət universitetinə Çiçəyi görməyə gedirdi. Hərdən də metroda rast olurdular.

Nəhayət bir gün ürəyini açdı qıza. Çiçək gülümsədi. Rəşidə elə gəldi ki, dünyanın ən gözəl güllərinin ətri var bu təbəssümdə.

***

Çiçək artıq üçüncü kursda idi. Güllü ana çox darıxdığından arada həftə sonları kəndə gəlirdi.

Mayın ilk həftəsində də nənəsini görməyə gəlmişdi.

Səhəri gün kənd yolunda hər tərəfi yasəmənə bürünmüş Cip irəliləyirdi. Hərdən kiçik daşlar təkərlərin altından sıçrayıb kənara atılırdı. Rəşid ürək döyüntüsündən irili-xırdalı daşların səsini eşitmirdi. Çay kənarına doğru irəliləyən "yasəmən" maşını çoxları görmüşdü. Arada kəsik-kəsik siqnal səsi çayın səsinə qarışırdı. Adamlar həyətlərdən boylanır, görənlər maraqla maşına baxırdılar.

Maşın dayananda daşların sevincli səsi eşidildi. Sürücü maşından düşüb – Çiçək, ay Çiçək – deyə səsləndi.

Həyətlərdən boylananların sayı artdı.

– ÇİÇƏKKK... – səs sulara, dağa daşa dəyib qayıdırdı elə bil. Hər yerdən Çiçək sədası gəlirdi. Hər yer Çiçəkləndi elə bil. Qız həyətə yüyürdü, yola boylandı. İri yasəmən kolunu xatırladan maşına baxdı. Rəşidi gördü.

Rəşid qollarını yana açdı:

– Mən gəldim Çiçək, gəldim. Gəldim Çiçək – deyə təkrarladı.

Güllü ananın səsini eşitdi: – Kimdi ay bala. Kimdi bu hay-küy salan?

– Odu Güllü ana, O gəlib. Rəşiddi.

## MÜNDƏRİCAT

SEVİMLİ ŞAİRƏM.....3
AZƏRBAYCAN – qalibiyyət dünyası.....7
SƏN ELƏ AZADSAN.....8
SON SEVGİMSƏN.....10
QARABAĞIM.....12
KƏDƏR.....14
DOYA BİLSƏYDİM.....15
BAKIMA.....16
BAKI HAQQINDA NAĞIL.....17
URMU GÖLÜNƏ.....19
VURĞUNAM.....20
ARAZA.....21
AZƏRBAYCAN.....22
SİLƏK SƏRHƏDLƏRİ.....23
YUXU.....24
QORUYA BİLMƏDİM.....25
BİR KÖRPƏ YATIRDI.....26
HƏYAT.....27
MƏNƏ NAĞIL DANIŞ.....28
QIZCIĞAZLAR ANA OLMAQ İSTƏYİR.....29
VƏTƏNİM.....31
BİR LAYLA DE.....32

ÜRƏKLƏRDƏ ÖLMƏYİN ....................................................33
BİRİNCİ QARABAĞ SAVAŞININ QƏHRƏMANLARI .....35
QARDAŞLAR ..............................................................................35
RUSLAN HÜSEYNQULU OĞLU BAĞIROV .....................36
NASİR HÜSEYNQULU OĞLU BAĞIROV ..........................38
ƏHƏD FİRUZ OĞLU İSGƏNDƏROV..................................43
ŞAHNUR ŞAHİN OĞLU HÜSEYNOV..................................48
ELÇİN VAQİF OĞLU HƏSƏNLİ.............................................54
ELVİN İLHAM OĞLU MƏLİKOV...........................................60
MAHMUD HEYDƏR OĞLU CAVADOV ..............................66
MURAD NADİR OĞLU BABAYEV.........................................71
MİRZƏ MUSA OĞLU AXUNDOV ..........................................75
SƏXAVƏT RİZVAN OĞLU ABBASOV ...............................79
HÜSEYN OQTAY OĞLU TAĞIYEV.........................................83
SİZƏ NARINC MƏMMƏDOVADAN DANIŞMAQ
İSTƏYİRƏM ..................................................................................88
RÜFƏT ELDAR OĞLU ƏSƏDULLAYEV...............................94
ƏFSANƏVİ PƏRVİN AMİN OĞLU İMANOV....................100
BU NECƏ PAYIZDI .......................................................................105
AĞ BAYRAQ.....................................................................................109
GÜLÜŞ ..............................................................................................116
ÇİÇƏK ..................................................................................................125

**Kamalə Aydın qızı Abiyeva**

# T O R P A Q

**Korrektor:**
**Gülnarə Vəliyeva**

**Operator:**
**Təranə Fətullayeva**

Çapa imzalanıb 28.02.2022
Formatı 60x84 1/16
Təbaşirli kağız №1
Fiz. çap. vər. 9

Kitab “APOSTROF-A“ nəşriyyatında
ofset üsulu ilə çap edilib.
E-mail: apostrof0706@gmail.com
Tel: +99412 432 51 04 / +99450 313 07 06